RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 51 (9218) 7 MART 2023-cü il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## Fədakar analarımız, yüz illər əvvəl olduğu kimi, saf əqidəli övladlar yetişdirirlər

### Prezident İlham Əliyev 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarını təbrik edib

Hörmətli xanımlar!

Sizi Beynəlxalq Qadınlar Günü münasibətilə ürəkdən təbrik edir, hamınıza cansağlığı, səadət və gələcək işlərinizdə uğurlar arzulayıram.

Xalqımız çoxəsrlik tarixinin bütün dövrlərində qadını ülviyyətin təcəssümü saymış və ona hər zaman dərin ehtiram göstərmişdir. Azərbaycan qadınları keçmişimizin taleyüklü, həlledici anlarında vəzifələrinin öhdəsindən daim layiqincə gəlmişlər. Bəşər mədəniyyəti xəzinəsinə töhfəmiz olan milli-mənəvi dəyərlərimizin bir bütöv halında qorunub saxlanılmasında onların misilsiz xidmətləri vardır.

Azərbaycan qadınları dünyanın bir sıra qabaqcıl ölkələrinin qadınlarından əvvəl seçib-seçilmək hüququ qazanmış, incəsənətin və elmin ən müxtəlif istiqamətləri üzrə müsəlman Şərqində qadınlar arasında ilk addımları atmaqla qabaqcıl düşüncəli, yenilikçi və mütərəqqi ruhlu olduqlarını sübuta yetirmişlər. Onlar ölkəmizin, xüsusən təhsil, səhiyyə və mədəniyyət sistemlərinin müasir əsaslar üzərində qurulması üçün böyük əzmlə çalışmış, ötən müddət ərzində mühüm nailiyyətlər əldə etmişlər.

Ədəbi-ictimai və mədəni-elmi fikir tariximizdə iz buraxmış maarifpərvər sələflərinin adlarını uca tutan və nəsillərin varisliyi prinsipinə sadiq qalaraq onların açdıqları yolda inamla irəliləyən Azərbaycan xanımları bu gün də dolğun sosial-mədəni fəaliyyətləri ilə cəmiyyətimizin inkişafına xüsusi dinamizm və ahəngdarlıq qatırlar.

Fədakar analarımız, yüz illər əvvəl olduğu kimi, vətəni ana qədər əziz və müqəddəs bilən, qəlbləri doğma yurda sevgi ilə dolu, ənənələrimizə sadiq, saf əqidəli övladlar yetişdirirlər. Haqq işi uğrunda apardığımız Vətən müharibəsində xalqımıza parlaq qələbə sevinci yaşadan gənclərimizin unudulmaz rəşadəti bunun aydın təzahürüdür.

İnanıram ki, zəngin mənəviyyatlı Azərbaycan qadınları qarşıdakı illərdə də qurub-yaratmaq şövqləri ilə cəmiyyət həyatına yüksək dəyərlər bəxş edəcək və müstəqillik salnaməmizə yeni, işıqlı səhifələr yazacaqlar.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 mart 2023-cü il*



## "Dəmir yumruq" təxribatçıların başını əzdi

## Qalib Azərbaycan Ordusu şəhidlərimizin qisasını aldı

**"Biz Ermənistanda baş qaldıran revanşist qüvvələrin hərəkətlərinə diqqətlə baxırıq. Onlar da bunu bilsinlər. Bax, o dağın başında mənim sözlərim yazılıb: "Dəmir yumruq" yerindədir, bunu heç kim unutmasın".**

Qalib Ali Baş Komandan kimi ötən ilin iyun ayında Şərqi Zəngəzura növbəti səfəri zamanı İlham Əliyev Kəlbəcərdən bir daha separatçılara bu mesajı göndərmişdi. Ermənistanla sülh danışıqları ərəfəsində bu ölkənin rəhbərliyinin son günlərdəki davranışı, əsassız "status" iddialarına və Zəngəzur dəhlizinin açılması istiqamətində fəaliyyətsizliyinə toxunaraq bəyan etmişdi ki, heç kim Azərbaycanın qabağında dura bilməz. Əgər yenə də Ermənistanda revanşist qüvvələr baş qaldırsa, bilməlidirlər ki, onları nələr gözləyir.

Sözü imzası qədər keçərli olan İlham Əliyev bu qətiyyətli fikirləri ilə revanşistlərə bir daha xəbərdarlıq edərək bildirmişdi ki, istənilən təxribata layiqli cavab veriləcək və hər hansısa pozuntu yalnız onların özlərinə ziyan vuracaq.

→ 8

## Macarıstan Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 6-da Macarıstanın iqtisadi inkişaf naziri Marton Nadı qəbul edib.

→ 2

## Prezident İlham Əliyev ABŞ Dövlət Departamentinin baş müşavirini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 6-da ABŞ Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş müşaviri Lui Bononu qəbul edib.

→ 2

## Heydər Əliyev ili

## Heydər Əliyev və Azərbaycan: qüdrətli dövlətçilik, milli inkişaf, böyük zəfər

### Bakı Şəhər İcra Hakimiyyətinin və "Azərbaycan" qəzetinin birgə konfransı



*"Heydər Əliyev İli" çərçivəsində Azərbaycanda Ulu Öndərin əbədiyaşar xatirəsinə həsr olunmuş çoxsaylı tədbirlər keçirilir, tariximizin son yarıməsrdən artıq dövrünün şərəf və qürur salnaməsi, inkişaf və quruculuq mərhələləri bir daha müzakirə və təhlil olunur.*

*Bu silsilədə Bakı Şəhər İcra Hakimiyyəti ilə "Azərbaycan" qəzetinin birgə təşkil etdikləri "Heydər Əliyev və Azərbaycan" mövzusunda konfransda da Ulu Öndərin tarixi missiyası, dövlətçilik yolu, onun ideyalarının indi tam reallaşması barədə rəylər söylənildi, mövcud nailiyyətlərin əsaslarının yaradıcısı olan Ümummilli Liderin fəaliyyətinin müxtəlif spektrləri mövzularında çıxışlar dinlənildi.*

*Konfrans iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin büstünün önünə gül dəstələri qoydular. Tədbir Ulu Öndərin və şəhidlərimizin xatirəsinin birdəqiqəlik sükutla yad edilməsi ilə başladı.*

Konfransda giriş nitqi ilə çıxış edən **Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar ƏZİZOV** Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyini Azərbaycan tarixinin əlamətdar hadisəsi kimi qiymətləndirdi. Bu yubileyin mühüm cəhəti olaraq vurğuladı ki, Ulu Öndərimizin şəxsində həm də Azərbaycanın dünənini, bu gününü, ən əsası isə sabahını bir daha təhlil edirik:

- Heydər Əliyevin yaratdıqları barədə minnətdarlıqla danışırıq, onun yolu əsasında bu gün əldə edilən nailiyyətlərdən fəxrlə söhbət açırıq və yenə də məhz onun sayəsində gələcəkdə qazanacağımız qələbələrin real hədəflərini inamla müəyyənləşdiririk.

Bu kontekstdə tam əminliklə deyə bilərəm ki, Heydər Əliyev tariximizin qürurlu dünəni, öyrənilən bu günü və daim istinad olunacaq sabahıdır. Heydər Əliyevin unikallığının, bənzərsizliyinin elə ən vacib simvolu da budur: o, hər üç dövrün əbədi lideridir.

→ 4-5

## Vyetnam Sosialist Respublikasının Prezidenti zati-aliləri cənab Vo Van Txıonqa

Hörmətli cənab Prezident!

Vyetnam Sosialist Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Biz Azərbaycan ilə Vyetnam arasında ənənəvi dostluq münasibətlərinin hərtərəfli inkişafına xüsusi əhəmiyyət veririk. İnanıram ki, xalqlarımızın mənafelərinə uyğun olaraq dövlətlərarası əlaqələrimizin möhkəmləndirilməsi, ikitərəfli və çoxtərəfli müstəvidə əməkdaşlığımızın daha da genişləndirilməsi istiqamətində birgə səylərimizi bundan sonra da davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Vyetnam xalqının rifahı naminə ali dövləti fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 mart 2023-cü il*

## Avropa İttifaqı sülh prosesinə bundan sonra da töhfəsini verəcək



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 6-da Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarı qəbul edib.

→ 2

# Macarıstan Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir



Əvvəli 1-ci səh.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Macarıstana son səfərini məmnunluqla xatırladaraq, Macarıstan Prezidentinin və Baş nazirinin bu səfər zamanı göstərdikləri qonaqpərvərlik və sıx əməkdaşlıq səylərini bir daha yüksək qiymətləndirdi. Prezident İlham Əliyev bu səfərin yaxşı nəticələr verdiyini vurğulayaraq Marton Nadın ölkəmizə gəlməsinin ikitərəfli münasibətlərimizin inkişafı baxımından önəmini qeyd etdi. Dövlətimizin başçısı Macarıstanın iqtisadi inkişaf nazirinin səfərinin əldə olunmuş razılıqlara əsasən gələcək əməkdaşlıq istiqamətlərinin müəyyən edilməsi üçün yaxşı imkan yaratdığını dedi. Əlaqələrimizin gündəliyinin genişləndiyini bildirən Azərbaycan Prezidenti bütün istiqamətlərdə artıq yaxşı nəticələrin olduğunu vurğuladı.

Qəbula görə minnətdarlığını ifadə edən Marton Nad dünən Azərbaycan hərbçilərinin şəhid olması ilə bağlı dövlətimizin başçısına başsağlığı verdi.

Macarıstanın iqtisadi inkişaf naziri ölkəsinin Azərbaycan Respublikasının ərazi bütövlüyünü daim dəstəklədiyini bildirərək sülh və danışıqlara alternativin olmadığını vurğuladı. Qonaq Prezident İlham Əliyevin Macarıstana səfərinin yüksək səviyyədə həyata keçirildiyini və münasibətlərimizin inkişafı baxımından böyük önəm daşıdığını dedi.

Görüşdə ölkələrimiz arasında iqtisadi əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

# Prezident İlham Əliyev ABŞ Dövlət Departamentinin baş müşavirini qəbul edib



Əvvəli 1-ci səh.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Münhen Təhlükəsizlik Konfransı çərçivəsində Azərbaycan və Ermənistan rəhbərlərinin görüşünün nəticələrindən məmnunluğunu bildirdi və bu istiqamətdə göstərdiyi davamlı səylərinə görə ABŞ Dövlət katibi Entoni Blinkenə təşəkkürünü ifadə etdi.

Qonaq ABŞ Dövlət katibinin salamlarını Prezident İlham Əliyevə çatdıraraq vurğuladı ki, Entoni Blinken də Münhen görüşünün səmərəli keçdiyi qənaətindədir.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Entoni Blinkenə çatdırmağı xahiş etdi.

Söhbət zamanı Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması və sülh müqaviləsi üzrə danışıqlar prosesi ətrafında fikir mübadiləsi aparıldı.

# Avropa İttifaqı sülh prosesinə bundan sonra da öz töhfəsini verəcək



Əvvəli 1-ci səh.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişellə Münhen Təhlükəsizlik Konfransı çərçivəsində keçirdiyi görüşü məmnunluqla xatırladı və ölkəmizin Brüssel sülh gündəliyinə sadiq olduğunu vurğuladı.

Toivo Klaar da öz növbəsində Münhendə Prezident İlham Əliyevlə Avropa İttifaqı Şurasının prezidentinin səmərəli görüşünü qeyd etdi və Avropa İttifaqının da Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesinə bundan sonra da öz töhfəsini verəcəyini dedi.

Görüşdə Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi üzrə danışıqlar prosesi barədə fikir mübadiləsi aparıldı.

# Ermənistan tərəfi növbəti dəfə təxribat törədib

**Xankəndi-Xəlfəli-Turşsu torpaq yolundan istifadə edilməklə Ermənistan Respublikasından hərbi ləvazimatların, silah-sursatın və şəxsi heyətin Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərinə daşınmasının həyata keçirilməsi barədə operativ məlumatlar daxil olub.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, martın 5-də səhər saatlarında daxil olmuş məlumatın yoxlanması məqsədilə qanunsuz hərbi daşımalar həyata keçirən nəqliyyat vasitələrinin Azərbaycan Ordusunun bölmələri tərəfindən saxlanılaraq yoxlanılmasına cəhd göstərilib.

Qarşı tərəfdən atəş açılıb və baş vermiş atışma nəticəsində hər iki tərəfdən həlak olan və yaralananlar var.

Azərbaycan tərəfi Rusiya sülhməramlı kontingentinin komandanlığının diqqətinə çatdırır ki, üçtərəfli Bəyanatın bəndlərinin yerinə yetirilməsi qeyd-şərtsiz və tam təmin edilməlidir.

"Bildiririk ki, Qarabağ iqtisadi rayonu ilə Ermənistan Respublikası arasında yeganə istifadə oluna biləcək avtomobil yolu Xankəndi-Laçın yoludur. Rusiya sülhməramlı kontingentinin komandanlığına bir daha xatırladırıq ki, başqa marşrutlar üzrə hərbi və digər təyinatlı daşımaların həyata keçirilməsi qəti surətdə yolverilməzdir.

Xatırladırıq ki, Ermənistandan Qarabağ iqtisadi rayonuna silah-sursat, digər hərbi təchizat, o cümlədən minalar, yanacaq və canlı qüvvənin daşınması faktları bundan əvvəl də müəyyən olunub. Həmin marşrut üzrə minaların daşınması ilə əlaqədar Azərbaycan tərəfi dəfələrlə beynəlxalq ictimaiyyəti xəbərdar etmişdir.

Əlavə olaraq bildiririk ki, 2022-ci ildə Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin nümayəndələrinin Ermənistan tərəfindən basdırılan və sonradan aşkarlanan minalara baxış üçün əraziyə səfərləri də təşkil edilib.

Bu gün baş vermiş insident bir daha Azərbaycan tərəfindən Laçın-Xankəndi yolunun üzərində müvafiq nəzarət-keçid məntəqəsinin yaradılmasının zəruri olduğunu göstərir.

Ermənistanın yenə də Azərbaycanın Qarabağ iqtisadi rayonuna hərbi daşımaları həyata keçirməsi faktı bu ölkənin Azərbaycana qarşı davam edən təcavüzü və terror siyasətidir.

Törədilmiş təxribata görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür", - deyə Müdafiə Nazirliyinin açıqlamasında bildirilib.

* * *

Martın 5-i saat 15:00-dan martın 6-sı saat 03:10-dək Azərbaycan Ordusunun mövqeləri 19 dəfə atəşə tutulub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Günəşli, Aşağı Şorca, Əzizli, Zərkənd, Yuxarı Zağalı yaşayış məntəqələri və Çəmbərək rayonu istiqamətlərində yerləşən mövqelərindən ordumuzun Daşkəsən rayonunun Astaf, Kəlbəcər rayonunun Yellicə, Mollabayramlı, Yuxarı Ayrım və Gədəbəy rayonunun Göyəlli yaşayış məntəqələrində yerləşən mövqelərini müxtəlif çaplı atıcı silahlardan və minaatanlardan fasilələrlə atəşə tutublar.

Bundan başqa, Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri tərəfindən Azərbaycan Ordusunun Şuşa şəhəri istiqamətində yerləşən mövqeləri də atəşə tutulub.

Ordumuzun bölmələri tərəfindən cavab tədbirləri görülüb.

# Azərbaycan qadınlarının "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq, 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai həyatında səmərəli fəaliyyətlərinə görə aşağıdakı şəxslər "Tərəqqi" medalı ilə təltif edilsinlər:

Abdurahmanova Neva Sabir qızı
Baba-zadə Könül Elçin qızı
Həsənova Afət Sadıq qızı
Hüseynova Nübarək Kamran qızı
İbrahimova Aida Ziyad qızı
İsmayıl Şəhla Rafiq qızı
İsmayılova Nəsibə İsrafil qızı
İsmayılova Zərintac İsmayıl qızı
Qəhrəmanova Məlahət Cəmil qızı
Quliyeva Ədalət Abid qızı
Mahmudova Ramilə Rasim qızı
Manafova Qalina Yakovlevna
Mehtiyeva Rahilə İbrahim qızı
Məmmədova Nərgiz Həkim qızı
Məmmədova Nəzakət Salah qızı
Məmmədova Zümrüd Musa qızı
Mirhadiyeva Zəminə Rza qızı
Muradova Zəhra Bilal qızı
Rizazadə İradə Bağır qızı
Vəliyeva Tünzalə Vəli qızı
Yedadayeva Yafo Ariilovna.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 mart 2023-cü il*

# Azərbaycanın Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının 13-cü iclası keçirilib

**Martın 6-da Azərbaycan Respublikası Baş nazirinin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədovun rəhbərliyi ilə Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının 13-cü iclası keçirilib.**



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Əli Əhmədov ötən dövr ərzində ölkəmizdə Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM) nail olunması istiqamətində görülmüş işləri, habelə ölkədə qəbul edilən dövlət proqramları və strategiyaların DİM-lərə uyğunlaşdırıldığını, bu istiqamətdə xüsusilə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"ə uyğun olaraq Prezident İlham Əliyev tərəfindən 2022-ci ilin iyul ayında təsdiq edilmiş "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın tamamilə DİM-lərin məqsəd və hədəflərinə inteqrasiya edildiyini diqqətə çatdırıb.

Eyni zamanda DİM-lərin maliyyələşdirilməsi istiqamətində beynəlxalq təşkilatlarla layihələrin davam etdirildiyi, bu istiqamətdə BMT-nin İnkişaf Proqramı ilə birgə həyata keçirilən "İnteqrə Olunmuş Milli Maliyyələşdirmə Çərçivəsi"ndə Azərbaycan hökumətinə yaşıl iqtisadiyyata keçid, bu istiqamətdə boşluqların və investisiya istiqamətlərinin müəyyən edilməsi ilə bağlı texniki dəstəyin göstərildiyi bildirilib. Görülmüş işlərin yekunu olaraq DİM-lərin həyata keçirilməsi üzrə "2022-Dayanıqlı İnkişaf Hesabatı"nda Azərbaycanın mövqeyinin 5 pillə irəlilədiyi göstərilib. Bununla yanaşı, şura sədri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bakıda Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun pandemiyadan sonrakı bərpaya həsr edilmiş sammiti çərçivəsində səsləndirdiyi minatəmizləmənin 18-ci Dayanıqlı İnkişaf Məqsədi olması təşəbbüsü ilə bağlı təkliflərinin reallaşdırılması istiqamətində şura tərəfindən müvafiq tədbirlərin görülməsinin vacibliyini vurğulayıb.

İclasda "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"dən irəli gələn DİM göstəriciləri üzrə mövcud vəziyyət və yeni göstəricilərin prioritetləşdirilməsi imkanları" mövzusunda Dövlət Statistika Komitəsinin sədr müavini Rauf Səlimov çıxış edərək, 2022-ci ildə DİM göstəriciləri üzrə qlobal metodologiyalar öyrənilərək müvafiq dövlət orqanları ilə birgə 5 yeni göstərici üzrə məlumatların hazırlanmasına nail olunduğunu, bununla da məlumat istehsalı təmin edilmiş, milli prioritet kimi müəyyənləşdirilmiş göstəricilərin sayının 86-ya çatdırıldığını ifadə edib.

Azərbaycan Respublikasının Prezidentinə təqdim etmək üçün "Dünyamızın transformasiyası: 2030-cu ilədək Dayanıqlı İnkişaf Gündəliyi"nin icrası ilə əlaqədar Azərbaycanda görülən işlər və əldə olunan nailiyyətlər haqqında 2022-ci il üzrə yekun Hesabat və "2023-cü il ərzində ölkəmizdə Dayanıqlı İnkişaf Məqsədlərinin maarifləndirilməsi istiqamətində həyata keçiriləcək tədbirlər üzrə Fəaliyyət Planı" barədə İqtisadiyyat Nazirliyinin Dayanıqlı İnkişaf və sosial siyasət şöbəsinin müdiri, şuranın katibi Hüseyn Hüseynov tərəfindən geniş təqdimatlar edilib. O, 2023-cü il üzrə DİM-lərin maarifləndirilməsi istiqamətində 36 tədbirdən ibarət fəaliyyət planının hazırlandığını bildirib. O cümlədən Bakıda Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun pandemiyadan sonrakı bərpaya həsr edilmiş sammiti çərçivəsində Azərbaycan Respublikası Prezidentinin minatəmizləmənin 18-ci Dayanıqlı İnkişaf Məqsədi olması təşəbbüsü ilə bağlı təklifinə dair yerli və beynəlxalq arenada təbliğat və təşviqat tədbirlərinin həyata keçirilməsi istiqamətində tədbirlərin fəaliyyət planına daxil edildiyi bildirilib.

Azərbaycan Respublikasının Prezidentinə təqdim olunması məqsədilə DİM-lərin icrası ilə əlaqədar 2022-ci il üzrə Azərbaycanda görülən işlər və əldə olunan nailiyyətlər haqqında yekun hesabat və "2023-cü ildə Dayanıqlı İnkişaf Məqsədlərinin maarifləndirilməsi istiqamətində həyata keçiriləcək tədbirlər üzrə fəaliyyət planı" şura üzvləri tərəfindən müzakirə edilərək təsdiq olunub, DİM göstəriciləri ilə bağlı milli prioritetlərin yenilənməsi və maarifləndirmə tədbirlərinin davam etdirilməsi, dövlət büdcəsinin DİM-lərə inteqrasiyası ilə bağlı bir sıra tapşırıqlar verilib.

# Milli Məclisdə TÜRKPA-nın komissiya iclası keçirilib

**Martın 6-da Milli Məclisdə TÜRKPA-nın Ətraf mühit, təbii ehtiyatlar və sağlamlığın qorunması Komissiyasının səkkizinci iclası keçirilib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan Milli Məclisin komitə sədri, TÜRKPA-nın Ətraf mühit, təbii ehtiyatlar və sağlamlığın qorunması Komissiyasının sədri Əhliman Əmiraslanovun təklifi ilə qardaş Türkiyədə baş verən güclü zəlzələ səbəbindən dünyasını dəyişmiş insanların xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Sonra Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynli giriş nitqi ilə çıxış edərək iclas iştirakçılarını Milli Məclisin Sədri Sahibə Qafarovanın adından salamlayıb və komissiyanın işinə uğurlar arzulayıb. O, TÜRKPA-nın ölkələrimiz arasında dostluğun və qardaşlığın dərinləşməsinə xidmət etdiyini deyərək, Ermənistanın təcavüzünə uğrayan Azərbaycanın haqq işini həmişə dəstəklədiyinə görə bu quruma təşəkkürünü ifadə edib. Eyni zamanda Türkiyədə baş vermiş zəlzələ nəticəsində çoxsaylı insanın həlak olmasına görə qardaş Türkiyə xalqına dərin hüznlə başsağlığı verib, yaralananların tezliklə sağalmasını diləyib.

Son illər TÜRKPA-ya üzv olan ölkələrin dövlət başçılarının dostluq, qardaşlıq və strateji tərəfdaşlıq münasibətlərinin daha da dərinləşdiyini deyən birinci vitse-spiker bu işdə Azərbaycan Prezidenti cənab İlham Əliyevin müstəsna xidmətlərini vurğulayıb. O, TÜRKPA-ya üzv olan ölkələrin qarşısında duran qanunvericiliklərin yaxınlaşdırılması, ətraf mühit və sağlamlığın qorunması kimi aktual məsələlərə toxunub, TÜRKPA-nın bugünkü komissiya iclasının ölkələrimiz arasında bu istiqamətdə əməkdaşlığa öz töhfəsini verəcəyinə inamını bildirib.

Tədbirin moderatoru və komissiyanın sədri Əhliman Əmiraslanov TÜRKPA-nın Ətraf mühit, təbii ehtiyatlar və sağlamlığın qorunması Komissiyasının "TÜRKPA üzv dövlətlərində biomüxtəlifliyin qorunması" mövzusuna həsr edilmiş 8-ci iclasının mövzusu və gündəliyi ilə bağlı fikirlərini bölüşüb. O, gündəliyin əsas mövzusuna dair hesabat məruzəsinin və tövsiyə qərarının hazırlanması ilə bağlı, eyni zamanda iclasın gündəliyində yer alan "Reproduktiv sağlamlığın qorunması haqqında" model qanun layihəsi haqqında məlumat verib.

Əhliman Əmiraslanov TÜRKPA-ya üzv dövlətlərin qanunvericiliklərinin yaxınlaşdırılması məsələsindən danışıb, indiyədək qurumun daimi komissiyalarında ümumilikdə 7 model qanunun qəbul olunduğunu diqqətə çatdırıb.

Sonra TÜRKPA-nın Ətraf mühit, təbii ehtiyatlar və sağlamlığın qorunması Komissiyasının sədr müavini Recep Şeker və TÜRKPA-nın baş katibi Mehmet Süreyya Er də çıxış edib, iclasın mövzusu ilə bağlı fikirlərini bölüşüblər. Çıxışlarda Türkiyədə baş vermiş zəlzələdən, fəlakətin dağıdıcı miqyasından danışılıb, TÜRKPA və üzv dövlətlərin hərtərəfli dəstəyi xüsusi qeyd olunub.

Açılış nitqlərindən sonra iclasın gündəliyi təsdiq olunub. Gündəlikdə duran "TÜRKPA üzv dövlətlərində biomüxtəlifliyin qorunması"na dair komissiyanın hesabat məruzəsini TÜRKPA-nın Ətraf mühit, təbii ehtiyatlar və sağlamlığın qorunması Komissiyasının sədr müavini və TBMM-in üzvü Recep Şeker təqdim edib. Keçən əsrdən başlayaraq planetdə antropogen fəaliyyətlərin sürətli inkişafının ekosistemdə yaratdığı fəsadlardan bəhs edən məruzəçi biomüxtəlifliyin qorunması, səmərəli istifadəsi ilə bağlı TÜRKPA-da və üzv dövlətlərdə görülən işlərdən danışıb, hesabat sənədinin məqsədi və məzmunu ilə bağlı məlumat verib.

Təqdimatdan sonra AMEA-nın vitse-prezidenti, Azərbaycanın Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun baş direktoru İradə Hüseynova, Genetik Ehtiyatlar İnstitutunun baş direktoru Zeynal Əkpərov, Türkiyə Böyük Millət Məclisinin üzvü Ömer Fethi Gürer, Botanika İnstitutunun baş direktoru Səyyarə İbadullayeva, AMEA-nın Fiziologiya İnstitutunun direktoru Ulduz Həşimova, Qazaxıstan Respublikası Parlamenti Senatının üzvü Nurlan Bekenov, Qırğız Respublikası Joqorku Keneşinin üzvləri Tazabek İkramov və Marlen Mamataliyevin məsələ ilə bağlı çıxışları dinlənildikdən sonra komissiyanın hesabat layihəsi təsdiq olunub və assambleyanın plenar iclasında məsələ üzrə məruzəçi TÜRKPA-nın Ətraf mühit, təbii ehtiyatlar və sağlamlığın qorunması Komissiyasının sədr müavini Recep Şeker seçilib.

TÜRKPA-nın Ətraf mühit, təbii ehtiyatlar və sağlamlığın qorunması Komissiyasının sədri Əhliman Əmiraslanov "TÜRKPA üzv dövlətlərində biomüxtəlifliyin qorunması"na dair komissiyanın tövsiyə qərarının layihəsini təqdim edib.

Komissiyanın sədri bildirib ki, TÜRKPA biomüxtəlifliyin qorunması və dayanıqlı istifadəsi üçün beynəlxalq çərçivə olan Bioloji Müxtəliflik haqqında Konvensiyanı dəstəkləyir. Biomüxtəlifliyin pozulmasının yaratdığı problemlərə toxunan Əhliman Əmiraslanov türk dövlətləri arasında digər sahələrdə olduğu kimi, biomüxtəlifliyin qorunması sahəsində də əlaqələrin daha da inkişaf etdirilməsinin və bu istiqamətdə qanunvericiliyin uyğunlaşdırılmasının zəruriliyini qeyd edib.

O, tövsiyə qərarında TÜRKPA-ya üzv ölkələr arasında bioloji müxtəlifliyin qorunması sahəsində əməkdaşlığın gələcək perspektivlərinə dair görülə biləcək fəaliyyətlərin vurğulandığını diqqətə çatdıraraq sənədin müvafiq sahədə səmərəli əməkdaşlığı artıracağına inamını bildirib.

İclasda tövsiyə qərarı təsdiq olunub və sənədi assambleyanın plenar iclasında təqdim etmək üçün məruzəçi TÜRKPA-nın Ətraf mühit, təbii ehtiyatlar və sağlamlığın qorunması Komissiyasının sədri Əhliman Əmiraslanov seçilib.

Sonra Əhliman Əmiraslanov bildirib ki, uzun illər Ermənistanın işğalı altında qalan Azərbaycan ərazilərində ermənilər milli-mədəni irsimizi məhv etməklə yanaşı, həmçinin ekologiyamıza da böyük ziyan veriblər, ekoloji terror törədiblər. Azərbaycan torpaqlarını işğaldan azad etdikdən sonra da ermənilər ekoloji terroru davam etdirirlər və azərbaycanlılar buna son qoyulması üçün 85 gündür Xankəndi-Şuşa-Laçın yolunda etiraz aksiyası keçirirlər. O, TÜRKPA-ya üzv dövlətləri Ermənistanın ekoloji terror törətməsini qınamağa çağırıb.

İclasın gündəliyindəki "Reproduktiv sağlamlığın qorunması haqqında" Model Qanun layihəsini Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev təqdim edib.

Model qanun layihəsinin ehtiva etdiyi sahənin aktuallığından danışan Adil Vəliyev reproduktiv sağlamlığın qorunması sahəsində problemlərə toxunub, insanların reproduktiv sağlamlığının qorunmasına dövlət qayğısının artırılmasının zəruriliyini diqqətə çatdırıb. Milli Məclisin şöbə müdiri model qanun layihəsində reproduktiv sağlamlığın qorunması məsələlərinin necə tənzimlənməsi, sənədin əsas məqsəd və hədəfləri barədə məlumat verib.

ATU-nun I Cərrahi xəstəliklər kafedrasının müdiri Nuru Bayramov məsələ ilə bağlı çıxış edib, suallarını səsləndirib.

Səslənən suallara aydınlıq gətiriləndən sonra model qanun layihəsi təsdiq olunub.

Sonra parlamentarilər komissiyanın 9-cu iclasının mövzusunu müəyyən ediblər. Bildirilib ki, komissiyanın növbəti iclası Qazaxıstanda keçiriləcək.

İclasda Milli Məclisin TÜRKPA-dakı nümayəndə heyətinin üzvləri Məlahət İbrahimqızı, Sədaqət Vəliyeva, üzv dövlətlərin parlamentariləri və digər rəsmi şəxslər iştirak ediblər.

*"Azərbaycan"*

# TÜRKPA-nın Ətraf mühit, təbii ehtiyatlar və sağlamlığın qorunması Komissiyasının üzvləri Fəxri xiyabanı və Şəhidlər xiyabanını ziyarət ediblər





**Martın 6-da ölkəmizdə səfərdə olan TÜRKPA-nın Ətraf mühit, təbii ehtiyatlar və sağlamlığın qorunması Komissiyasının 8-ci iclasının nümayəndə heyəti Fəxri xiyabanı və Şəhidlər xiyabanını ziyarət ediblər.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, nümayəndə heyəti əvvəlcə Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə tər güllər düzüblər.

Nümayəndə heyəti həmçinin Şəhidlər xiyabanını ziyarət edərək ölkəmizin azadlığı uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının məzarları üzərinə tər çiçəklər düzüb, "Əbədi məşəl" abidəsini ziyarət ediblər.

Ziyarət zamanı nümayəndə heyətini Milli Məclisin Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əhliman Əmiraslanov və digər rəsmi şəxslər müşayiət ediblər.

*"Azərbaycan"*

# Tbilisidə Azərbaycan, Gürcüstan və Türkiyə parlamentlərinin Xarici əlaqələr komitələrinin 8-ci görüşü olub



**Martın 6-da Tbilisidə Azərbaycan, Gürcüstan və Türkiyə parlamentlərinin Xarici əlaqələr komitələrinin 8-ci görüşü baş tutub.**

AZƏRTAC xəbər verir ki, görüşdə ötən il Azərbaycanın mədəniyyət paytaxtı Şuşada keçirilən 7-ci iclasdan sonra görülən işlər, qarşıda duran vəzifələr müzakirə olunub.

Gürcüstan parlamentinin komitə sədri Nikoloz Samxaradze dünyada cərəyan edən proseslər, regionda təhlükəsizlik məsələləri, eləcə də Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu layihələrinin əhəmiyyəti barədə ətraflı məlumat verib. Azərbaycan, Gürcüstan və Türkiyə arasında üçtərəfli əməkdaşlığın genişlənməsində və daha da möhkəmlənməsində parlamentlərin rolunu qeyd edib.

Azərbaycan Respublikası Milli Məclisinin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov çıxış edərək keçən il Şuşada keçirilən 7-ci iclasın əhəmiyyətini bir daha qeyd edib. Bildirib ki, 7-ci iclasdan keçən bir il ərzində Şuşada, eləcə də Azərbaycanın işğaldan azad olunmuş digər ərazilərində çox böyük quruculuq və bərpa işləri həyata keçirilib. Bildirilib ki, hazırda Zəngəzur dəhlizinin tikintisi istiqamətində işlər davam edir. Lakin hər zaman pozuculuq fəaliyyəti ilə məşğul olan Ermənistan yenə də öz məkrli siyasətindən əl çəkmir. Buna baxmayaraq, Azərbaycan regionda sülhün bərqərar olması və davamlı inkişafa çatmaq üçün səylərini davam etdirir.

Səməd Seyidov Azərbaycan Prezidenti İlham Əliyevin Gürcüstana səfəri zamanı əlaqələrimizin inkişafı ilə bağlı söylədiyi fikirlərin əhəmiyyətini qeyd edib, parlamentlərin Xarici əlaqələr komitələrinin səmərəli fəaliyyətinin ikitərəfli və üçtərəfli əməkdaşlığın genişləndirilməsinə xidmət etdiyini vurğulayıb.

Türkiyə Böyük Millət Məclisinin komitə sədri Akif Çağatay Kılıç ilk növbədə ölkəsində baş vermiş dağıdıcı zəlzələnin fəsadlarının aradan qaldırılmasında və təbii fəlakət nəticəsində zərərçəkən insanlara göstərilən dəstək və yardıma görə, Azərbaycan və Gürcüstan hökumətlərinin rəhbərlərinə minnətdarlıq edib.

A.Çağatay Kılıç regionda və bölgədə baş verən proseslərdən danışıb, parlament əməkdaşlığının rolunu diqqətə çatdırıb.

Müzakirələr zamanı üç ölkə arasında əməkdaşlığın, strateji tərəfdaşlıq münasibətlərinin inkişafının regionda sülhün və təhlükəsizliyin bərqərar olmasına xidmət edəcəyi xüsusi vurğulanıb.

# Koreya Milli Assambleyasının nümayəndə heyəti ilə görüş

**Milli Məclis Sədrinin birinci müavini, parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli Koreya Respublikası Milli Assambleyasının Xarici İşlər və Birlik Komitəsinin sədri Kim Te-honun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Əli Hüseynli görüşdən məmnunluğunu ifadə edərək, Koreya nümayəndə heyətinin üzvlərinə Milli Məclisin Sədri Sahibə Qafarovanın salamlarını çatdırıb. O, Azərbaycanın Cənubi Qafqazda Koreyanın ən böyük tərəfdaşı olduğunu bildirib. Bu səfərin ölkələrimiz arasında dostluq münasibətlərinin inkişafına töhfə verəcəyini söyləyib.

Əli Hüseynli Azərbaycan və Koreya parlamentləri arasında əlaqələri yüksək qiymətləndirib, hər iki ölkənin qanunvericilik orqanlarında mövcud olan dostluq qruplarının təcrübə və informasiya mübadiləsi baxımından əməkdaşlığının əhəmiyyətindən danışıb.

O, dövlətlərimiz arasında siyasi əlaqələrin möhkəmləndirilməsinin vacibliyini qeyd edib. İqtisadi əlaqələrimizin sürətlə inkişaf etdiyini, Koreya şirkətlərinin ölkəmizdə müxtəlif sahələrdə uğurla fəaliyyət göstərdiyini deyib. Həyata keçirilən birgə layihələrdən bəhs edib. Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində rolunu qeyd edib.

Birinci vitse-spiker Azərbaycanın Qarabağ bölgəsinin 30 il ərzində Ermənistan tərəfindən işğal edildiyini, 2020-ci ildə 44 günlük Vətən müharibəsində əldə edilmiş Qələbə nəticəsində bu torpaqların işğaldan azad edildiyini diqqətə çatdırıb. Hazırda azad edilmiş ərazilərdə sürətlə bərpa və yenidənqurma işlərinin həyata keçirildiyini bildirib.

Əli Hüseynli ölkələrimiz arasında təhsil, mədəniyyət, turizm, idman və digər sahələrdə əlaqələrin genişləndirilməsi üçün geniş imkanların olduğunu söyləyib.

Koreya Respublikası Milli Assambleyasının Xarici İşlər və Birlik Komitəsinin sədri Kim Te-ho səmimi görüşə görə təşəkkürünü bildirib. O, ölkəmizdə ilk dəfə olduğunu deyərək, Azərbaycanda müşahidə etdiyi inkişafdan məmnunluğunu ifadə edib, burada gördükləri ilə bağlı xoş təəssüratlarını bölüşüb. Koreyanın Azərbaycanla həyatın bütün sahələrində əməkdaşlıqda maraqlı olduğunu söyləyib.

Koreya nümayəndə heyətinin rəhbəri Azərbaycanın Vətən müharibəsində əldə etdiyi Qələbə münasibəti ilə təbriklərini çatdıraraq, işğaldan azad edilmiş ərazilərin gələcəkdə daha da inkişaf edəcəyinə əminliyini bildirib.

Kim Te-ho Azərbaycanın neft və qaz ixracı sahəsində dünyada qabaqcıl ölkələrdən olduğunu deyib. Bununla yanaşı, qeyri-neft sahəsinin inkişafı ilə bağlı dövlət proqramının həyata keçirildiyini təqdirəlayiq hesab edib.

Müasir dövrdə informasiya texnologiyalarının inkişafı ilə bağlı "ağıllı şəhər", "ağıllı kənd" layihələrinin tətbiqi istiqamətində Koreyanın təcrübəsindən bəhs edən qonaq bu sahələrdə Azərbaycanla səmərəli əməkdaşlığın əhəmiyyətindən danışıb.

Koreyalı deputat təhsil və tələbə mübadiləsi sahəsində əlaqələrin daha da genişləndirilməsi üçün imkanların olduğunu deyib.

Görüşdə çıxış edən Koreya Milli Assambleyasının Xarici İşlər və Birlik Komitəsinin sədr müavini xanım Le Ce Conq ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin inkişaf perspektivləri, parlamentlər arasında əməkdaşlığın daha da möhkəmləndirilməsi ilə bağlı fikirlərini açıqlayıb.

Söhbətdə tərəfləri maraqlandıran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

Görüşdə Milli Məclisin Koreya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Malik Həsənov, qrupun üzvü Kamran Bayramov, Koreya nümayəndə heyətinin üzvləri Moon Sung Hvan, Jo Ki Yul, Koreyanın Azərbaycandakı səfiri Li In-yonq və digər rəsmi şəxslər iştirak ediblər.

*"Azərbaycan"*



Heydər Əliyev İli 2023

# Heydər Əliyev və Azərbaycan:

## Bakı Şəhər İcra Hakimiyyətinin və "Azərbaycan" qəzetinin birgə konfransı

*Əvvəli 1-ci səh.*

Bu baxımdan konfransın "Heydər Əliyev və Azərbaycan" adlandırılması da tarixi qanunauyğunluqdur. Həqiqətən də, Ulu Öndər Heydər Əliyevin bioqrafiyası bütünlüklə Azərbaycanın tərcümeyi-halı, şərəf salnaməsidir. Ölkəmizdə hansı uğura, zəfərə, tərəqqiyə nəzər salınsa, orada hökmən Heydər Əliyev imzası, müəllifliyi görünəcək.

Konfrans iştirakçıları mənim bu fikrimlə razı olarlar ki, Azərbaycan və Heydər Əliyev - bütövdür, ayrılmaz vəhdətdir. Yaddaşlara xilaskar lider, qurucu rəhbər, böyük ideoloq, tarix yaradan şəxsiyyət kimi həkk olunan Ulu Öndərin ömür yolu şanlı irsimizdir və daim öyrənəcəyimiz məktəbdir.

Həm sovetlər, həm də müstəqillik dövründə milli inkişafın və mədəni intibahın birmənalı müəllifi olan bu böyük şəxsiyyətin bütün fəaliyyəti yalnız doğma vəteninin və əziz xalqının qüdrətlənməsinə, nüfuzunun yüksəlməsinə həsr olunmuşdur. O, hər zaman bu müqəddəs amalla yaşadı, həmişə bu amalı reallaşdırdı, bu gün də bu amal onun siyasi kursunun sədaqətli ardıcılları tərəfindən layiqincə gerçəkləşdirilir.

Tam əminik və çox sevinirik ki, dövlətimizə və xalqımıza yüksəliş bəxş edən, mövcud inkişafın yaradıcısı olan Ulu Öndərin böyük əzmlə davam etdirilən dövlətçilik xətti respublikamızın bundan sonrakı əbədi yüksəlişinin də möhkəm bünövrəsi olacaq.

Heydər Əliyev qüdrətli şəxsiyyət kimi yalnız Azərbaycanın və regionun tarixində iz qoymayıb. O, dünya miqyaslı tarixi şəxsiyyətdir. Heydər Əliyev kiçik Azərbaycanda həyata keçirdiyi böyük işlərlə, əslində, qlobal dünyada mükəmməl bir nümunə yaratdı, liderlik məktəbi formalaşdırdı.

Heydər Əliyev xaosdan qurtuluşa, böhrandan yüksəlişə təhlükəsiz keçidin əsasını qoyaraq, milli dövlətçiliyi yaratmaq və onu qorumaq örnəyini dünya ölkələri üçün uğurlu nümunə kimi təqdim etdi.

Heydər Əliyevin dövlət və ordu quruculuğu ənənələri, iqtisadi islahatları, sabitlik yaratma üsulları yeni müstəqillik qazanmış ölkələr üçün sınaqdan uğurla çıxmış ən dəyərli "yol xəritəsi" idi.

Heydər Əliyevin ölkədə yaşayan bütün xalqların və fərqli dinlərin təmsilçilərini vahid məqsəd - Azərbaycançılıq ideologiyası ətrafında birləşdirərək, yaratdığı tolerantlıq və multikulturalizm modeli dünyanın bu sahədəki ən yaxşı nümunələrindəndir.

Heydər Əliyevin müəllifi olduğu enerji siyasəti bu gün möhtərəm Prezident İlham Əliyevin qüdrətli liderlik bacarığı ilə Avrasiyanın enerji təhlükəsizliyinin əsas təminatçılarındandır.

Bu misalları istənilən qədər artırmaq olar. Vaxtınızı çox almadan yalnız bir tarixi hadisəyə toxunmaq istərdim.

Vətən müharibəsində əldə olunan böyük zəfər də məhz Ulu Öndər Heydər Əliyev ideyalarının təntənəsi idi. Onun müəyyənləşdirdiyi modern ordu quruculuğu konsepsiyası Müzəffər Ali Baş Komandan İlham Əliyevin dahi intellekti, yüksək hərbi strateqliyi ilə zəfəri reallaşdırdı. İkiəsrlik münaqişəyə, 30 illik savaşa, 1 milyon məcburi köçkünün yurd həsrətinə son qoyuldu.

Cənab İlham Əliyevin böyük zəfərlə yekunlaşdırdığı Heydər Əliyev hərbi strategiyası bu gün dünyanın "beyin mərkəzləri", hərbi tədris ocaqları tərəfindən ciddi araşdırılır, dərindən öyrənilir. Dünyada bitməyən, süni yolla uzanan müharibələr çoxdur, təəssüf ki, onların sayı hələ də artır. Heydər Əliyevin hərbi strategiyası həm də bu ölkələrə bir nümunədir ki, heç bir xarici yardım olmadan, yalnız öz ordunun və xalqının gücü hesabına müharibəyə son qoya bilərsən.

Heydər Əliyev barədə danışarkən onun bir xüsusiyyətinə də hökmən toxunmalıyıq. Ulu Öndər böyük intellektual idi, hər sahənin bilicisi idi. O, heykəltaraşla təcrübəli memar kimi danışırdı. Bəstəkarla mahir musiqi bilicisi kimi, alimlə erudisiyalı elm xadimi kimi söhbət edirdi.



Tarixdən danışanda tarixçilər, siyasətdən bəhs edərkən nəzəriyyəçi politoloqlar, beynəlxalq münasibətlər barədə fikirlər söyləyərkən təcrübəli diplomatlar ona heyrət edərdilər. Hansı peşə sahibi ilə danışırsa-danışsın, həmsöhbəti onu özünə bacarıqlı həmkar bilərdi.

Ulu Öndərin sadə insanlarla, zəhmətkeşlərlə xüsusilə səmimi, doğma ünsiyyəti vardı. Bu münasibət Heydər Əliyevə xalqın sonsuz sevgisini, ehtiramını, inamını formalaşdırırdı. Elə bu inamın nəticəsi idi ki, 1993-cü ildə xalqımız yeganə ümid, nicat ünvanı kimi məhz Ümummilli Liderimizi gördü, onu təkidlə hakimiyyətə dəvət etdi.

Heydər Əliyev bütün varlığı, ruhu ilə xalqına, dövlətinə, Azərbaycana bağlı idi. O, repressiya ocağı sayılan Dövlət Təhlükəsizliyi Xidmətində çalışarkən də, Sovet Azərbaycanına başçılıq edərkən də, SSRİ-nin ali rəhbərliyində təmsil olunarkən də, öncə məhz azərbaycanlı idi, Azərbaycan vətənpərvəri idi və Azərbaycana xidmət edirdi. Onun üçün əsas məqsəd Azərbaycanı və azərbaycanlıları qorumaq, inkişaf etdirmək, milli ruhu və tarixi keçmişi unutdurmamaq, Azərbaycanın gələcək müstəqilliyinin hərtərəfli təməllərini yaratmaq idi.

Ulu Öndərin 1969-cu ildən etibarən yaratdığı güclü, abad, rifahlı Azərbaycan onun hakimiyyətdə olmadığı illərdə dağıdıldı, dövlət məhvolma həddinə çatdı, xalqımız isə səfalətə sürükləndi.

Lakin o, yenidən qayıtdı və daha güclü, daha qüdrətli, daha nüfuzlu Azərbaycan yaratdı. Bu dəfə həm də onun şanlı irsini, şərəfli dövlətçilik xəttini sarsıtmayacaq, dağıtmayacaq, əksinə, daha böyük hədəflərə çatdıracaq layiqli varislik ənənəsi formalaşdırdı. Onun özü qədər etibar etdiyi cənab İlham Əliyevə Azərbaycan xalqı inandı, idarəçilik sükanını bu şəxsə etibar etdi.

Artıq 1987-ci ildə dövlətçilikdə olan qırılma nöqtəsi kimi bir təhlükə yoxdur, heç vaxt da olmayacaq. Bu dövləti, bu xalqı Heydər Əliyev ideyaları ilə möhtərəm Prezidentimiz İlham Əliyev daha böyük quruculuğa, inkişafa aparacaq.

Heydər Əliyevin həm şəxsiyyət kimi unikallığı, həm də fəaliyyətinin böyük miqyası onun barəsində saatlarla danışmağı zəruri edir. Bu qədər faktlar, arqumentlər, duyğular əsasında Heydər Əliyev barədə qısa danışmaq çox çətindir. Ona görə də fikirlərimi ümumiləşdirdim.

Haqlı olaraq, dünyanın ən böyük azərbaycanlısı sayılan və dünya tarixində silinməz iz qoyan bir şəxsiyyətin müasiri olmaq, onun komandasında fəaliyyət göstərmək, onun quruculuq və inkişaf proseslərinin iştirakçısı, icraçısı kim çalışmaq böyük xoşbəxtlikdir. "Azərbaycan" qəzeti ilə birgə təşkil etdiyimiz bu konfransın iştirakçıları da məhz bu xoşbəxt insanlardır.

Tədbirimizdə Ulu Öndərin əbədiyaşar xatirəsini yad edənlər sırasında öz sahəsinin peşəkarları, ölkənin nüfuzlu ziyalıları, alimləri, ictimai-siyasi, mədəniyyət xadimləri, dini icmaların nümayəndələri ilə yanaşı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin cəsur, qəhrəman əsgərləri, gənclər də var. Yəni cəmiyyətin bütün təbəqələrinin təmsilçiləri buradadır və onlar çıxış edəcəklər.

*"Hər bir azərbaycanlı Prezident İlham Əliyevin 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı sərəncamını böyük razılıqla qarşılayıb. Əslində isə, Azərbaycanda hər il "Heydər Əliyev İli" sayıla bilər" - deyən* ***"Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Bəxtiyar SADIQOV****un sözlərinə görə, Heydər Əliyev hər gün xatırlanır, hər gün anılır. Çünki daim bizimlədir, daim onun yaratdıqlarından bəhrələnir, qurduğu yeni Azərbaycanda yaşayır, müəyyən etdiyi siyasi kursla dönmədən irəliləyirik. Ulu Öndər Heydər Əliyev hansı ictimai-iqtisadi formasiyada yaşamasından, hansı vəzifə tutmasından asılı olmayaraq daim ölkəsi, xalqı üçün, Azərbaycanın indisi və gələcəyi üçün nəyi bacarıbsa, onu da edib:*

- Heydər Əliyev Azərbaycana rəhbərliyə başladığı ilk gündən hər bir vətəndaş, bütövlükdə xalq ona arxa duran, mənafeyini qoruyub müdafiə edən, haqsızlıq və qanunsuzluqla barışmayan insanın hakimiyyətə gəldiyini düşünürdü və tezliklə xalqın düşüncəsi reallıqda öz təsdiqini tapdı. Ümummilli Lider birinci dəfə Azərbaycana rəhbər seçiləndə ölkə geridə qalmış, yoxsul vəziyyətdə idi. Sənaye demək olar ki, yox idi, neft sahəsində geriləmə başlamışdı, kənd təsərrüfatı isə uğursuzluğa düçar olmuşdu. Bütün sahələri yüksəltmək üçün ilk növbədə insanlarla işləməyi bacarmaq, adamlarda inam və ruh yüksəkliyi yaratmaq zəruri idi. Böyük istedad və tükənməz enerji sahibi olan Heydər Əliyev üzünü xalqa tutdu, mütəxəssislərlə məsləhətləşdi, hamını yaranacaq dönüşə inandırdı və səfərbər etdi. Məqsədyönlü və gərgin əmək sayəsində qısa zaman kəsiyində Azərbaycanı ətalət burulğanından çıxarmaq, irəliyə aparmaq mümkün oldu.

Deyilənləri saysız-hesabsız rəqəmlərlə də göstərə bilərik. Əslində, bütün dönüş və yüksəlişi quru rəqəmlərdə əks etdirmək mümkün deyil. Hər il ittifaq birincilərindən biri kimi mərkəz tərəfindən mükafatlandırılan Azərbaycan bütün parametrlər üzrə önə çıxmışdı. Keçmiş SSRİ-dəki nüfuzundan istifadə edən Ümummilli Lider Heydər Əliyev Azərbaycanda ağır sənayenin yaranmasına, xüsusən neft maşınqayırma və neft-kimya sənayesinin inkişafına, neft hasilatının artırılmasına, elektrotexnika sənayesinin yaranmasına nail oldu. Bakı məişət kondisionerləri zavodu, dərin dəniz qazma qurğuları kimi böyük vəsaitə başa gələn ittifaq əhəmiyyətli zavodların Bakıda inşasını təmin etdi. Üzümçülüyün və şərabçılığın inkişafı ilə bağlı qəbul etdiyi qərar Azərbaycan kəndinin, emal sənayesinin yüksəlişinə, xalqın güzəranının yaxşılaşmasına şərait yaratdı. Kəndlərimizin siması tanınmaz dərəcədə dəyişdi. Yeni qəsəbələr, yaşayış məntəqələri salındı, kəndlərdəki palçıq komaları ikimərtəbəli daş evlər əvəz etdi. Kəndlinin isə həyat şəraiti əhəmiyyətli surətdə dəyişdi. Evində mebel, elektrik məişət cihazları, həyətində minik avtomobili göründü. Hər il kənd əməkçisi istehsal etdiyi məhsula görə yüksək əməkhaqqından başqa, böyük məbləğdə mükafat da alırdı. Respublikanın bütün təsərrüfatlarını qarış-qarış gəzən Ulu Öndər Heydər Əliyev insanlarla müntəzəm şəkildə təmasda olur, problemlərini həll edir, onları mükafatlandırırdı. Tarla düşərgələrində, iş başında keçirilən görüşlər ənənə halını almışdı, daim səmimi söhbətlər, dialoqlarla müşahidə olunurdu. İşi və zəhməti ilə fərqlənən insanlar istirahət evlərinə, turist səfərlərinə göndərilir, vəzifə pillələri ilə irəli çəkilirdi. Hər kəs yaxşı bilirdi ki, əməyi dövlət başçısı tərəfindən layiqincə qiymətləndiriləcək, gördüyü iş əvəzsiz qalmayacaqdı. Odur ki, ürəklə, həvəslə çalışırdı. Rəhbərə sonsuz inam və məhəbbət aparıcı qüvvəyə çevrilmişdi.

Ulu Öndər bütün bu vəzifələrin öhdəsindən daim ləyaqətlə gəldi, qeyri-adi zəka və istedad sahibi olduğunu xalqına, keçmiş SSRİ məkanına, bütün dünyaya sübut etdi. Amma Ümummilli Liderimizin Azərbaycanın əsl dövlət müstəqilliyi qazandığı dövrdə siyasət meydanında olması, buna qədər isə təkcə xalqın məhəbbətini deyil, həm də etimad və etibarını qazanması taleyin qisməti idi. Həmin günlərdə ordusuz, silahsız geriyə qayıdan Ulu Öndər xalqı fəlakətdən qurtarmaq, kövrək müstəqilliyi məhv olmaqdan xilas etmək üçün gecə-gündüz çalışdı, uzaqgörən siyasəti, müdrik addımları və yorulmaz fəaliyyəti ilə ölkəni inkişaf yoluna çıxartdı. Ulu Öndər Azərbaycanı özbaşınalıqdan, xaos və anarxiyadan, xəyanətkarlardan qorudu, möhkəm və dönməz sahiblik yaratdı. Xalqın etimad və dəstəyinə arxalanaraq iki dövlət çevrilişinə cəhdin qarşısını qətiyyətlə aldı. Milli maraqların təminini əsas tutmaqla "Əsrin müqaviləsi" neft kontraktının imzalanmasına, Azərbaycanla dünyanın aparıcı dövlətlərinin maraqlarının uzlaşdırılmasına nail oldu. Heydər Əliyev ordu quruculuğu prosesinin əsasını qoydu, Horadiz əməliyyatı keçirərək, 20-dən çox yaşayış məntəqəsini geri qaytarmaqla, ermeniləri atəşkəs barədə sazişi imzalamağa vadar etdi.

"Mən həyatımın yerdə qalan hissəsini də doğma xalqıma bağışlayıram" - deyən Ulu Öndər faktiki surətdə bütün ömrünü xalqının xoşbəxtlik və səadətinə həsr etdi.

Ulu Öndər Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərliyi dövründə gördüyü nəhəng işlər arasında iki mühüm məqamı xüsusi qeyd etmək istərdim. Bunlardan biri Azərbaycanın sürətli, davamlı və sabit inkişafını təmin edən doğru istiqamətin - Heydər Əliyev siyasi kursunun müəyyən edilməsi, digəri layiqli siyasi varisinin yetişdirilərək xalqın və dövlətin gələcək taleyinin etibarlı əllərə tapşırılmasıdır. Bəli, Ulu Öndər müstəqil Azərbaycanın gələcək inkişaf konturlarını cızmaqla uğur və qələbələrə çatdıran yeni, müasir inkişaf istiqamətlərini müəyyənləşdirdi və layiqli siyasi varis yetişdirdi. Geridə qoyduğumuz 20 ilə yaxın bir dövrdə Azərbaycanda tariximiz boyu görünməmiş inkişaf yaşanıb. Möhtərəm İlham Əliyevin rəhbərliyi ilə Heydər Əliyevin memarı və qurucusu olduğu müasir Azərbaycan hər il daha da inkişaf edərək yüksəlişə nail olub.

Geriyə boylananda görülmüş işlərin həcmi və möhtəşəmliyi qürur və iftixar hissi doğurur. Prezident İlham Əliyevin rəhbərliyi ilə bu dövrdə Azərbaycan başdan-başa dəyişdi, yeniləndi, müasirləşdi, iqtisadiyyatımız iki dəfədən çox artdı. Tarixinin ən qüdrətli, müstəqil daxili və xarici siyasətini yürüdən yeni Azərbaycan yarandı. Bu illərdə regionların sosial-iqtisadi inkişafına dair dörd dövlət proqramı təsdiq edilərək uğurla həyata keçirildi, Azərbaycanın ən ucqar yaşayış məntəqələri belə fasiləsiz elektrik enerjisi və təbii qazla təmin olundu. Nəqliyyat təhlükəsizliyi təmin edildi, yol infrastrukturu tam yeniləndi, kəndarası yollar belə asfaltlandı.

Sosial sahədə də böyük uğurlar əldə olundu. Qaçqın və məcburi köçkünlər müasir tipli evlərə və çoxmərtəbəli binalardan ibarət şəhərciklərə köçürülərək yaşayış şəraitlərini əsaslı şəkildə yaxşılaşdırdılar, yoxsulluq və işsizlik minimum səviyyəyə endirildi. Bütövlükdə Prezident İlham Əliyevin müəllifi olduğu inkişafın Azərbaycan modeli yaradılaraq müstəqil dövlətimizin sürətli, ardıcıl və davamlı inkişafı təmin edildi. Beləliklə, Azərbaycan Cənubi Qafqazın ən güclü dövlətinə, söz sahibinə, dövlət başçısı İlham Əliyev isə dünyanın sayılıb-sevilən liderlərindən birinə, ən nüfuzlu beynəlxalq tədbirlərin arzuolunan dəvətlisinə, sayılıb-sevilən iştirakçısına çevrildi.

Prezident İlham Əliyevi dünyada məşhurlaşdıran və türk dövlətlərinin sevimlisinə çevirən başlıca amillərdən biri onun Azərbaycan torpaqlarını döyüşərək geri qaytarması, ikiəsrlik "Qarabağ problemi"ni çözməsi oldu. Möhtərəm İlham Əliyev Vətən müharibəsinə mükəmməl hazırlıq gördü, Azərbaycan Ordusunu ən müasir silahlarla, ən yeni strategiya və taktika ilə təmin etdi. XXI əsrin ən yeni müharibəsini apardı, dünyaya yeni müharibə modeli təqdim etdi və bu gün də ən güclü dövlətlər belə onun tətbiq etdiyi strategiya və taktikanı öyrənərək öz ordularında tətbiqi üçün islahat və dəyişikliklər aparırlar. Bundan başqa, dövlətimizin başçısı özü bu müharibədə üç cəbhədə çalışdı: həm hərb meydanında, həm diplomatiya sahəsində, həm də informasiya savaşında. Beləliklə, 44 günlük Zəfər müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyev Ermənistan ordusunu məhv etdi, düşməni qarşısında diz çökdürdü, "dəmir yumruğ"u ilə başını əzərək kapitulyasiya aktını imzalatdırdı.

Bəli, müdrik siyasətin, Ulu Öndərin siyasi yolunun layiqli davamının nəticəsidir ki, bu gün Azərbaycan qüdrətli dövlətə çevrilib, milli birlik bərqərar olunub, ən ağrılı problem olan işğaldakı torpaqlarımız azad olunub. Hazırda Qarabağ və Şərqi Zəngəzurun bərpası və dirçəldilməsi prosesi bir daha dövlətimizin qüdrətini təcəssüm etdirir. Bütün bunları təmin edən Heydər Əliyevin layiqli siyasi varisi İlham Əliyevdir.

Ulu Öndər Heydər Əliyev dünyada görkəmli şəxsiyyət və siyasi xadim kimi qəbul olunub, ölkəmizdə isə qurucu rəhbər, mərd və xeyirxah insan, müasir Azərbaycan dövlətinin banisi və yaradıcısı kimi ürəklərdə yaşayır və daim yaşayacaq. Heydər Əliyev siyasəti hər zaman xalqımıza qələbələr, uğurlar bəxş edəcək və cənab İlham Əliyev qüdrətli Azərbaycanı bundan sonra da zirvələrə yüksəldəcək. "Heydər Əliyev İli" olan 2023-cü il də bu baxımdan əlamətdar dövr kimi tariximizə həkk olunacaq.

*"Müasir Azərbaycan memarlığında Heydər Əliyev fenomeni" mövzusunda çıxış edən* ***Azərbaycan Memarlar İttifaqının İdarə Heyətinin sədri, respublikanın Əməkdar memarı, professor Elbay QASIMZADƏ*** *qeyd etdi ki, Ulu Öndər milli memarlığın böyük himayədarı olmaqla yanaşı, həm də yeni Azərbaycanın qurucu memarı olduğundan tariximizin ən böyük memarı sayılmalıdır:*

- Memarlıq Azərbaycan xalqının ən qədim, ən möhtəşəm sənət növlərindən biridir. Bunun sübutu min illərlə tarixi olan, arxeoloji qazıntılar nəticəsində aşkar olunmuş qədim şəhərlərimizin qalıqlarıdır. Şəmkirdə, Qəbələdə, Ağsuda, Salyanda, Şamaxıda və ölkənin başqa bölgələrində qədim şəhərlərimizin qalıqları qorunub saxlanılır və xalqımızın qədim şəhərsalma mədəniyyətinə malik olduğunun əyani sübutudur.

Türkdilli xalqlar içərisində Azərbaycan xalqı minilliklərlə tarixi olan şəhərsalma mədəniyyətinə malikdir. Xalqımız dünyaya bir neçə möhtəşəm memarlıq məktəbini bəxş etmişdir. Bunlardan Təbriz məktəbi, Naxçıvan məktəbi, Qarabağ məktəbi, Şirvan məktəbinin ustadları uzaq Şərqdən yaxın Qərbə, Kordovaya qədər, Şimaldan Cənuba qədər, Hindistan yarımadasına qədər möhtəşəm memarlıq əsərləri yaratmışdılar ki, hazırda bu ərazilərdə yaşayan insanlar həmin abidələri dünyaya öz tarixi irsi kimi fəxrlə təqdim edirlər.

Artıq sirr deyil ki, Böyük Moğol, Hindistanın şahı Şah Cahan Humayun sevimli həyat yoldaşı üçün inşa etdiyi Tac Mahal türbəsi məhz Təbriz məktəbini təmsil edən memar Ağa Mirək Mirzə Qiyas Təbrizinin möhtəşəm əsərləridir. Bunlarla bərabər, dahi memarlarımız Əcəmi ibn Əbubəkr, Ustad Mahmud ibn Saad, Kərbəlayi Səfiyar Qarabaği, Zivər bəy Əhmədbəyov, Qasım bəy Hacıbababəyov, Sadıq Dadaşov, Mikayıl Useynov və bir çox başqaları ölkəmizin müxtəlif bölgələrində möhtəşəm memarlıq əsərləri yaradıblar və bununla da xalqımızın bu qədim sənət



növünün tarixi mədəniyyətimizin ayrılmaz hissəsi olduğunu təsdiqləyibləр.

Bu irs, ənənə Ulu Öndər Heydər Əliyevin həyatının ən böyük məhəbbətlərindən olan memarlığa münasibətini formalaşdırmışdır. Heydər Əliyev gənc yaşlarından memar olmaq arzusu ilə yaşamış, Azərbaycan Sənaye İnstitutunun Memarlıq fakültəsində təhsilə başlamışdır. Üçüncü kurs tələbəsi olduqda hərbi qulluğa çağırışla bağlı təhsilini dayandırmışdır. Böyük Vətən müharibəsi sovet xalqının qələbəsi ilə tamamlanandan sonra artıq xüsusi xidmət orqanlarında çalışan Heydər Əliyev təhsil istiqamətini dəyişmiş, lakin qəlbində yaradıcılığa, quruculuğa olan məhəbbətinə xilaf çıxmamışdır. İllər boyu xalqına, dövlətinə xidmət edərək, dünyaşöhrətli siyasətçi rütbəsinə malik olmuşdur, lakin memarlığa məhəbbətini itirməmiş və həyatının son mərhələsində xalq tərəfindən verilən Müasir Azərbaycanın Memarı kimi yüksək ada layiq görülmüşdür. Bəli, Müasir Azərbaycanın Memarı məhz Heydər Əliyevdir!

Bir çoxlarımız ötən əsrin 60-cı illərinin sonu, 70-ci illərinin əvvəllərini yaxşı xatırlayırıq. Ölkədə arxayınçılıq, durğunluq əhvali-ruhiyyəsi hökm sürürdü. 1969-cu ildən başlayaraq, o vaxtlar Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin Birinci katibi Heydər Əliyev ölkədə baş verənlərə düzgün qiymət verərək, respublikanın sovetlər məkanında özünə layiq yüksəkliklərə qaldırılması istiqamətində böyük işlərə başladı. İqtisadiyyatda, kənd təsərrüfatında, istehsalatda, inşaatda və təbii ki, memarlıqda yeni təfəkkürə malik yanaşmaların təşəbbüskarı oldu.

O dövr memarlıq sənətinin də ən çətin vaxtlarından idi. Bəllidir ki, İkinci Dünya müharibəsindən sonra sovet memarlığı böyük intibah dövrünü yaşamış, memarlıqda möhtəşəmlik, milli irs elementlərinin tətbiqi kimi amillər o dövrün memarlığına müsbət təsir göstərmişdir.



# Heydər Əliyev İli 2023

# qüdrətli dövlətçilik, milli inkişaf, böyük zəfər

1950-60-cı illərdə Azərbaycan memarlığı milli romantizm adlandırıla bilən dövrünü yaşayırdı. Bu illərdə inşa olunmuş milli memarlığımızı təmsil edən onlarca binalar görkəmli memarlar Sadıq Dadaşov, Mikayıl Useynov, Həsənağa Məcidov, Ənvər Qasımzadə, Hənifə Ələsgərov, Ənvər İsmayılov və başqa ustadlar tərəfindən layihələndirilmişdir. Lakin sovet ideologiyasının yanlış siyasətinin tələblərindən biri olan milli xüsusiyyətlərin aradan qaldırılması tələbi memarlıq yaradıcılığına böyük zərbə vurdu. Memarlıq eynitipləşməyə, unifikasiyaya istiqamətləndirildi.

Azərbaycana rəhbərlik edən andan Heydər Əliyev memarlar qarşısında yaradıcılıqlarında milli memarlıq irsi elementlərini tətbiq etmək tələbini qoydu. Milli memarlığımızı dərindən bilən, ona böyük hörmətlə yanaşan Heydər Əliyev, partiya iyerarxiyasının ən yüksək rütbəsində olmasına baxmayaraq, sovet ideologiyasına zidd addım atır və memarlığımızın milli xüsusiyyətli olmasının tapşırığını verirdi.

Ötən əsrin 70-ci illərində bir sıra əhəmiyyətli ictimai binalar inşa olundu, mənzil tikintisi sahəsində inqilabi dəyişikliklər baş verdi. Misal üçün, 70-ci illərə qədər "Bakıbaştikinti" 270-320 min kvadratmetr yaşayış sahəsi istifadəyə verirdisə, bu göstərici qısa müddətdə 630 minə qədər artırıldı. Bir neçə evtikmə kombinatı istifadəyə verildi. Nəhayət, 4 nömrəli evtikmə kombinatının inşa olunması ilə hədəf 1 milyon kvadratmetrə qədər artırıldı. Bütün inşa olunan ictimai, sənaye və yaşayış binalarının simasında milli memarlığımızın xüsusiyyətləri öz yerini tapırdı.

1990-cı illərin başlanğıcının nə dərəcədə faciəvi olduğu hər birimizin yadındadır. 1993-cü ildə xalq tərəfindən yenidən hakimiyyətə dəvət olunmuş Ulu Öndər Azərbaycanı vətəndaş müharibəsindən, ölkənin bölünməsi təhlükəsindən, siyasi və iqtisadi böhrandan qurtardı. Onun şəxsi nüfuzuna və mətinliyinə, uzaqgörənliyinə, cəsarətinə görə xaricdən olan təzyiqlər zərərsizləşdirildi, Azərbaycanda quruculuq işləri başlandı. Memarlığımızda da yeni intibah dövrü başladı.

Həllini axtaran geniş spektr məsələlər içində Ulu Öndər, hər zaman olduğu kimi, Azərbaycan memarlığının həm müasirliyi, həm də milliliyi tələblərini qarşıya qoyurdu. O zamanlar ölkəmizin investorlara böyük ehtiyacı var idi. İqtisadi durumumuz bugünkü kimi yaxşı deyildi. İnvestorlar, təbii ki, özləri ilə həyata keçirəcəkləri tikililərin əcnəbi memarlar tərəfindən hazırlanmış layihələrini də gətirirdilər. Lakin o zamanın iqtisadi çətinliklərinə baxmayaraq, Ulu Öndər onların qarşısına yerli memarlarla əməkdaşlıq tələbini irəli sürürdü. O deyirdi: "Sizin memarlarınızın istedadına, biliyinə, bacarığına şübhə etmirəm. Lakin, təbii ki, onlar Azərbaycanı bizim memarlar qədər tanımırlar, bizim mədəni irsimizdən xəbərsizdirlər, milli memarlıq xüsusiyyətlərimizi bilmirlər. Biz isə sizin dəstəyinizlə yeni binaları tikərək, milli memarlığımızı inkişaf etdirmək məqsədindəyik". Ulu Öndərin bu münasibəti Azərbaycan Respublikasının "Memarlıq fəaliyyəti haqqında" qanununda da öz əksini tapmışdır.

Bu münasibət bu gün də Azərbaycan Prezidenti cənab İlham Əliyev və ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva tərəfindən dəstəklənir. Bunun təsdiqini işğaldan azad edilmiş ərazilərimizdə - doğma Qarabağda və Şərqi Zəngəzurda, başqa bölgələrdə yüksələn onlarca yeni memarlıq əsərlərində görürük. Bu əsərləri yerli və əcnəbi memarlar birgə, bir-birinin üstünlük təşkil edən bacarıq və təcrübəsinə arxalanıb yaradırlar.

Müasir Azərbaycanın Memarı Heydər Əliyevdir - bu anlayış artıq hər birimizin şüurunda, düşüncəsində, mənəviyyatında möhkəm yer tutmuşdur. Bunun əsas səbəbi Heydər Əliyevin Azərbaycanın mənafeyini həm sovet dövründə, həm müstəqilliyimiz zamanı hər şeydən yüksək tutmasından, gördüyü əzəmətli işlərə əsl mənada yaradıcılıqla, novatorluqla yanaşmasından irəli gəlir. Etiraf edək ki, bu yanaşma həm qədim dövrlərə aid olan, həm də müasir həyat nöqteyi-nəzərindən fenomen adlandırılmalıdır. Bunu təkcə biz yox, bizdən çox-çox sonralar gələn nəsillər görüb, anlayıb, məhz fenomen adlandıracaqlar.

*"Heydər Əliyev və Azərbaycanda Dövlət İdarəçiliyi" mövzusunda çıxış edən* ***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan ƏLƏKBƏROV*** *vurğuladı ki, Vətən müharibəsi bitəndən sonra ölkə və regionun inkişafında yeni mərhələ başlayıb. Ölkə Prezidenti cənab İlham Əliyev xalqa müraciətində yeni mərhələnin azad edilmiş ərazilərin bərpası və inkişafı ilə əlaqədar olacağını qeyd edib. Azərbaycan Respublikasında dövlət idarəçiliyində tətbiq edilən innovativ texnologiyaların bu mərhələnin də uğurunu təmin edəcəyi şübhəsizdir:*

- Azərbaycan Respublikasının müstəqilliyinin bərpasından tarixi baxımdan qısa müddət keçməsinə baxmayaraq, bu gün ölkə iqtisadi, sosial və humanitar inkişaf göstəricilərinə görə, ölkənin hərbi təhlükəsizliyinin təmin edilməsi sahəsində yüksək nəticələr qazanıb. Ölkədə qazanılmış yüksək nailiyyətlərin əsasında Ümummilli Lider Heydər Əliyevin fenomenal liderlik istedadı ilə yanaşı, onun insan potensialının formalaşdırılması və bu əvəzsiz sərvətin səfərbər edilməsi sahəsində xüsusi bilik və bacarığı, uzaqgörənliyi durur.



Urxan Ələkbərov

Hələ sovet dövründə Ümummilli Liderin təşəbbüsü ilə ölkənin minlərlə gənci keçmiş SSRİ-nin aparıcı ali məktəblərinə müasir biliklərin alınması və bacarıqların formalaşdırılması üçün göndərilirdi. Gənclərin təhsili həm mülki, həm də hərbi ali məktəblərdə həyata keçirilirdi. Ulu Öndər Heydər Əliyev bu prosesi daim diqqət mərkəzində saxlayırdı. Müstəqil Azərbaycan Respublikasının inkişafında o zaman bu proqram çərçivəsində təhsil almış mütəxəssislərin rolu olduqca əhəmiyyətlidir. Eyni zamanda bu proses xarici ölkələrdə Azərbaycan diasporunun formalaşması və güclənməsi baxımından böyük önəm daşımışdır.

Ölkə gənclərinin hərbi məktəblərdə təhsil alması da vacib məqamlardandır. Ümummilli Lider Heydər Əliyevin hələ SSRİ dönəmində bu vacib istiqaməti diqqət mərkəzində saxlaması onun uzaqgörənliyinin təzahürüdür. Müstəqil Azərbaycanın hazırkı hərbi qüdrəti o zaman bu sahə üçün kadr hazırlığından qaynaqlanır. Bu kontekstdə ölkədə C.Naxçıvanski adına Hərbi Liseyin açılmasını və fəaliyyətini də qeyd etmək yerinə düşər. O dönəmdə Azərbaycanda bu məktəbin açılması ciddi şəkildə əsaslandırılmalı idi və Heydər Əliyev bunu böyük ustalıqla bacarmışdı. O, hərbi liseyin açılışını milli kadrların rus dili biliklərinin təkmilləşdirilməsi və onlara ilkin hərbi hazırlıq sahəsində bacarıqların aşılanması məramı ilə razılaşdıra bilmişdi.

Müstəqillik dönəmində Azərbaycan Respublikasında BMT-nin İnkişaf Proqramı ilə birgə insan inkişafı haqqında ilk hesabatların hazırlanması da Ulu Öndərin təşəbbüsü ilə baş tutub. İlk milli hesabatın təqdimatı Ulu Öndərin şəxsi iştirakı ilə həyata keçirilib. Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş insan potensialının formalaşdırılması siyasəti ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilib. Bu zərurətləri zamanında dəyərləndirən ölkə başçısı cənab İlham Əliyev xidmət və "insan mərkəzli" dövlət idarəçiliyi modelini formalaşdırmağa müvəffəq olub.

Prezident İlham Əliyev tərəfindən 2003-cü ildə irəli sürülmüş "qara qızılın insan kapitalına çevrilməsi" konsepsiyası ölkə gəncləri üçün aparıcı xarici dövlətlərdə təhsil almaq imkanı yaratmışdır. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın ölkənin insan potensialının formalaşdırılması və təkmilləşdirilməsi sahəsində fəaliyyəti də olduqca əhəmiyyətli və məhsuldardır. Onun təşəbbüsü ilə həyata keçirilən yeni məktəblərin inşası, tədris proqramlarının muasirləşdirilməsi, təhsilin inklüzivliyinə yönəldilmiş fəaliyyət, rəhbərlik etdiyi qurumlarda müasir kadrların hazırlanması və imkanlarının genişləndirilməsi yeni nəsil peşəkarlar ordusunun formalaşmasına xidmət edir. Müstəqil Azərbaycanda müasir tələblərə cavab verən insan potensialının formalaşması sahəsində qazanılan nailiyyətlər Ümummilli Lider Heydər Əliyevin vaxtilə bu prosesi düzgün təməllər əsasında qurmasının nəticəsidir.



Ümummilli Lider Heydər Əliyev fenomeninin bir təqdirəlayiq cəhəti də gələcək perspektivləri düzgün müəyyənləşdirməsi və hərtərəfli inkişaf, o cümlədən insan potensialının inkişafına yönəlik yeni istiqamətlərdə qabaqlayıcı tədbirlərin reallaşdırılması ilə bağlı idi. Bu prosesin əsasını Ulu Öndər Heydər Əliyev qoymuş və hazırda ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilir. BMT, Dünya Bankı, Davos Beynəlxalq Iqtisadı Forumu, digər nüfuzlu beynəlxalq qurumlar tərəfindən hazırlanmış rəsmi hesabatlarda göstərilir ki, Azərbaycan Respublikasının müxtəlif sahələrdə qazandığı nailiyyətlər ölkədə son iyirmi ildə həyata keçirilən islahatlar və səmərəli idarəetmənin nəticəsidir.

Azərbaycan Prezidentinin qlobal inkişafı qabaqlayan təşəbbüslərinə misal olaraq, Nazirlər Kabinetinin 2013-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2014-cü ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı yekun nitqini göstərmək olar: "Günəş, külək enerji növlərinin inkişafı ilə bağlı işlər daha da sürətlə getməlidir. Nəzərə alsaq ki, Azərbaycanda günəşli günlər kifayət qədər çoxdur, bu imkanlardan istifadə etməmək, əlbəttə ki, böyük səhv olardı". Bunun nəticəsi olaraq, hazırda Avropa İttifaqı ölkələrinin rəhbərləri Azərbaycanın potensialı, o cümlədən "yaşıl enerji" potensialının Avropa üçün yeni imkanlar açacağını etiraf etməkdən çəkinmir və ölkəmizin bərpaolunan enerji sahəsində layihələrinə böyük maraq göstərdiklərini gizlətmirlər.

Bütövlükdə qeyd etmək lazımdır ki, əsası Ulu Öndər tərəfindən qoyulan və Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin siyasi, iqtisadi, sosial, ekoloji və hərbi təhlükəsizlik sahələrində həyata keçirdiyi strategiya unikaldır və ölkənin hərtərəfli, sürətli, innovativ inkişafını, qlobal çağırışların qarşısının alınmasını təmin edir. Strategiyanın uğurunun ən parlaq təsdiqi Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ilin payızında keçirilmiş 44 günlük Vətən müharibəsidir.

Bu müharibə nəticəsində 30 ilə yaxın Ermənistan tərəfindən işğal edilmiş torpaqlar azad edildi, ölkənin ərazi bütövlüyü bərpa olundu. Bununla da BMT Təhlükəsizlik Şurasının Azərbaycan Respublikasının torpaqlarının erməni işğalından dərhal və qeyd-şərtsiz azad olunmasına dair 4 qətnaməsinin tələbləri təmin edildi. Hazırda azad edilmiş ərazilərdə bərpa işləri böyük sürətlə və ən yüksək müasir standartlar nəzərə alınmaqla həyata keçirilir. Ölkənin ərazi bütövlüyünün hərbi və hərbi-diplomatik yolla bərpası çox qısa zaman kəsiyində həyata keçirildiyi kimi, müharibə və qarətlərdən sonra azad olunmuş ərazilərin bərpası da çox yüksək templə reallaşdırılır.

44 günlük Vətən müharibəsində qazanılmış tarixi qələbə yalnız hərbi quruculuq sahəsində uğurlu fəaliyyətin nəticəsi kimi dəyərləndirilə bilməz. Hərbdə uğur və müharibənin fəsadlarının sürətli və səmərəli aradan qaldırılması ilk növbədə ölkənin iqtisadi, sosial və humanitar durumundan asılıdır. Bu sahələrin yüksək inkişaf səviyyəsində olması təhlükəsizliyin vacib şərtidir. Eyni zamanda bunun nəticəsidir ki, beynəlxalq təşkilatların rəsmi hesabatlarına əsasən, Azərbaycan Respublikası inkişafın davamlılığının təmin edilməsi və inklüziv cəmiyyətin qurulması sahəsində maddi və insan resurslarını ən səmərəli istifadə edən dövlət kimi tanınır. Bu gün Azərbaycan Respublikası 83-cü iqtisadi imkanla inklüziv inkişaf göstəricilərinə görə dünyada 25-ci yerə yüksələn yeganə dövlətdir. Nisbətən az vəsaitin istifadəsi ilə daha yüksək nailiyyətlərin əldə edilməsi intellektə əsaslanır, yalnız yüksəksəviyyəli idarəetmə texnologiyalarının tətbiqi şəraitində mümkündür.

Sözsüz, 44 günlük müharibədən sonra yaranmış reallıqlar, geri qaytarılan ərazilərdə bərpa, yenidənqurma işləri, yeni sərhədlər, qurulacaq nəqliyyat əlaqələri ölkədə ÜDM-nin böyüməsinə, sosial inkişaf trendinin təmininə və məşğulluğa töhfə verəcəkdir və verməkdədir. Bu reallıqlar nəzərə alınmaqla Prezident İlham Əliyevin yeni inkişaf strategiyasına uyğun olaraq dövlət idarəçiliyi sahəsində həyata keçirilən çoxşaxəli islahatlar, təkmilləşdirmə tədbirləri və zəruri dəyişikliklər sayəsində əldə olunan uğurlar onu deməyə əsas verir ki, bu, hələ son deyil və Azərbaycan Ulu Öndər Heydər Əliyevin hədəf və ölçülərini müəyyənləşdirdiyi inkişaf möcüzəsi ilə dünyanı heyrətləndirməkdə davam edəcəkdir.

***Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, Azərbaycan və SSRİ xalq artisti, professor Fərhad BƏDƏLBƏYLİ*** *"Heydər Əliyev və Azərbaycan mədəniyyəti" mövzusundakı çıxışında söylədi ki, Ulu Öndər tarixin Azərbaycan xalqına bəxş etdiyi dahi şəxsiyyət, fenomen insan, böyük zəka sahibi kimi əbədiyaşardır. Heydər Əliyev müasir Azərbaycanın qurucusu, parlaq ideyaları ilə xalqımızın, millətimizin yoluna nur saçan dahi siyasətçi və dövlət xadimi, vətəndaşlıq rəmzidir. Onun dühası ilə Azərbaycanda iqtisadi və mədəni yüksəliş həyata keçirilmiş, xalqımız Azərbaycançılıq ideyaları ilə sıx birləşmişdir:*

- "Vətənə məhəbbət, xalqa məhəbbət mənim beynimdədir, qanımdadır, bütün varlığımdadır. Heç nə, heç kim, heç bir qüvvə bu məhəbbəti məndən ala bilməz". Ulu Öndər Heydər Əliyevin bu sözləri, məncə, onun həm şəxsiyyətini, həm amalını, həm də bütün həyatını və fəaliyyətini təcəssüm etdirir.

Azərbaycan tarixinin mühüm mərhələləri Heydər Əliyevin adı ilə bağlıdır. O, iki siyasi sistemdə - sovet dövründə və müstəqillik dövründə Azərbaycana rəhbərlik etmişdi və bu dövrlər tariximizin parlaq səhifələri olmuşdur. Heydər Əliyev bütün həyatını və fəaliyyətini Azərbaycan Respublikasının yüksəlişinə, xalqın mənəvi-mədəni inkişafına, çağdaş Azərbaycanın, Azərbaycan xalqının, milli dövlətçiliyin inkişafına və möhkəmlənməsinə həsr etmişdir.



O, sözün əsl mənasında, hər bir sahədə Vətənimizin tərəqqisinə, ölkəmizin yüksəlişinə, mədəniyyətimizin çiçəklənməsinə nail olmuşdur. Heydər Əliyev görkəmli və böyük nüfuza malik lider olduğunu əməli fəaliyyəti ilə göstərmiş, dünyanın tanınmış dövlət və siyasi xadimləri sırasına daxil olmuşdur.

Heydər Əliyev haqqında düşünərkən, mənə elə gəlir ki, onu bütün ömrüm boyu tanımışam və mənim sənət fəaliyyətim onun gözü qarşısında keçib. Onunla görüşlərimizi xatırlayıram. Bütün tədbirlərdə, yığıncaqlarda elm və incəsənət xadimləri ilə çox canlı, dərin söhbətləri olurdu. Onun zəngin məzmunlu məruzələri, söylədiyi fikirlər bizim üçün mükəmməl bir proqram idi, fəaliyyətimizin magistral yolu idi.

Heydər Əliyev ədəbiyyata, musiqiyə və incəsənətə yüksək qiymət verirdi. Buna görə də o, böyük məmnuniyyətlə Azərbaycan ziyalıları ilə, sənət adamları ilə davamlı görüşürdü. Həm yaşlı nəsillə ünsiyyət qururdu, həm də yeni nəsillə təmasda olurdu. Heydər Əliyev yaradıcı adamların problemləri ilə yaxından maraqlanır, onların qayğılarına qalırdı. Mədəniyyət və incəsənət xadimlərinə fəxri adlar, mükafatlar təqdim edir, onlara maddi və mənəvi dəstək verirdi.

Azərbaycanda musiqi mədəniyyətinin və təhsilinin inkişafında Heydər Əliyevin böyük rolu olmuşdur. Ölkədə bir çox musiqi məktəbi, konsert zallarının yaranması, respublika, ümumittifaq və beynəlxalq miqyaslı mədəniyyət və xüsusilə də musiqi tədbirlərinin keçirilməsi bu baxımdan mühüm əhəmiyyət kəsb edirdi. Eyni zamanda görkəmli mədəniyyət xadimlərinin yubileylərinin keçirilməsi, heykəllərinin açılması, adlarının əbədiləşdirilməsi Heydər Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi və iştirakı ilə baş tuturdu. Bütün bunlar mədəniyyət tariximizdə iz salmış hadisələrdir.

Heydər Əliyev hər bir tədbirdə iştirak edərək, mədəniyyət və incəsənət xadimləri ilə görüşür və böyük məmnuniyyətlə onlarla söhbətləşirdi. O, hər bir işi ilə insanlara örnək olur, onların dünyagörüşünü, hər sahədə savadını artırmağa çağırır, musiqi düşüncəsinin təkmilləşməsinə, mükəmməlləşməsinə çalışırdı. Bu baxımdan xüsusilə 1970-ci illərdə onun təşəbbüsü ilə cümə günü təşkil olunan konsertlər hamımızın yaxşı xatirindədir.

Heydər Əliyevin müxtəlif mədəniyyət tədbirlərində, yubiley mərasimlərində, yığıncaqlarda söylədiyi nitqləri dinləyərkən adama elə gəlir ki, o, hər bir sahədə mütəxəssis idi. Həm də onun fikirləri çox səlis və məntiqli idi. Üzeyir bəy Hacıbəyli, Qara Qarayev, Fikrət Əmirov, Cövdət Hacıyev, Niyazi, Tofiq Quliyev və digər musiqi xadimləri haqqında onun çıxışları çox dəyərli idi. Hər bir bəstəkar və ya musiqi ifaçısı haqqında o, elə şövqlə danışırdı, onun yaradıcılığını elə təhlil edirdi ki, bu, mütəxəssislərdə böyük təəssürat yaradırdı. Düşünürəm ki, maraqlı fikirlərlə zəngin olan bu nitqlərin bu gün də öyrənilməsinə çox ehtiyac var.

Eyni zamanda yaddaşı çox iti idi və o, demək olar ki, hər bir musiqiçinin və ya digər sənət adamlarının uğurlarını yadında saxlayırdı, hətta bəzən illər sonra bunları öz söhbətlərində xatırladırdı. Təbii ki, Heydər Əliyev tərəfindən bu cür diqqət hər bir yaradıcı adamı qürrələndirir və sevindirirdi.

Heydər Əliyev yaradıcılıq təşəbbüslərini və musiqiçilərin qazandıqları nailiyyətləri, xüsusilə də beynəlxalq miqyasda əldə etdikləri uğurları çox yüksək qiymətləndirirdi. Mənim 1960-cı illərin sonunda beynəlxalq müsabiqədə laureat adını qazanmağımdan sonra bir sıra azərbaycanlı musiqiçilərin beynəlxalq müsabiqələrdə iştirakı çox önəmli idi və bu, məhz Heydər Əliyevin rəhbərliyi dövrünə təsadüf etmişdi. 1990-cı illərdə də gənc musiqiçilərimizin beynəlxalq miqyaslı uğurları Heydər Əliyevin diqqətini cəlb etmiş və Bakı Musiqi Akademiyasında onlarla görüşüb təbrik etmişdi.

Əlbəttə ki, Heydər Əliyevin musiqi mədəniyyəti ilə bağlı hər bir sərəncamı, fərmanı, musiqimizin inkişafı naminə gördüyü işlər, musiqi xadimlərinə diqqəti və qayğısı, musiqi haqqında fikirləri olduqca diqqətəlayiqdir və dərin tədqiqat tələb edir. Bunlar bizim mədəniyyət tariximizin səhifələrini təşkil edir. Şübhəsiz ki, Heydər Əliyevlə görüşlər bizim qəlbimizdə, yaddaşımızda dərin iz salıb və daim xatırlanır. Onların qələmə alınıb gələcək nəsillərə çatdırılması da böyük önəm kəsb edir. Bütün bunlar həm də Heydər Əliyevin həyatının səhifələri, bu dahi şəxsiyyətin portret cizgiləridir.

Əlamətdardır ki, Ulu Öndər Heydər Əliyevin ənənələrinin layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fəaliyyətində digər sahələrlə yanaşı, musiqi mədəniyyətinin inkişafına da çox diqqət yetirilir. Eyni zamanda Heydər Əliyevin adını daşıyan fondun əsas prioritet istiqamətlərindən biri musiqi ilə bağlıdır ki, onun rəhbəri Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə beynəlxalq miqyaslı layihələr həyata keçirilir. Musiqi mədəniyyətimizi dünyada tanıdan bu layihələrin Heydər Əliyevin adı ilə bağlanması onun əməllərinin və ənənələrinin yaşarılığının bariz nümunəsidir.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyi ölkəmizdə və beynəlxalq miqyasda geniş qeyd olunur. Bakı Musiqi Akademiyasında da bu münasibətlə silsilə konsertlərin, konfransların keçirilməsi, bəstəkarlarımızın Heydər Əliyevə həsr olunmuş əsərlərinin səsləndirilməsi nəzərdə tutulur. Heydər Əliyevin əziz xatirəsinə ehtiramımızı musiqi dili ifadə edərək, onun ideyalarını yaşadır və gələcək nəsilləri vətənpərvərlik, Azərbaycançılıq ruhunda yetişdiririk. Bu, Ulu Öndərin ən böyük amalı idi.

*(Konfrans materiallarının ardı növbəti sayda dərc olunacaq)*

***"AZƏRBAYCAN"***

# Azərbaycanın xarici işlər naziri Qətərdə səfərdədir

**Martın 6-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Ən az inkişaf etmiş ölkələr üzrə Birləşmiş Millətlər Təşkilatının (BMT) Beşinci Konfransı (LDC5) çərçivəsində BMT-nin Cənub-Cənub Əməkdaşlıq İdarəsinin direktoru Dima Əl-Xatib ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə ən az inkişaf etmiş ölkələrin müxtəlif sahələrdə inkişafında texnoloji, sosial müdafiə, səhiyyə, təhsil və digər sahələrdə yardımların rolu, həmçinin bu istiqamətdə yardımların göstərilməsində əməkdaşlıq imkanları müzakirə edilib.

Nazir Ceyhun Bayramov Azərbaycanın ən az inkişaf etmiş ölkələrə həyata keçirdiyi yardımlar barədə ətraflı məlumat verib. Ölkəmizin Qoşulmama Hərəkatı və İslam Əməkdaşlıq Təşkilatının üzv ölkələrinə tələbə təqaüd proqramlarının mövcudluğu diqqətə çatdırılıb.

Nazir Ceyhun Bayramov qarşı tərəfə bölgədə münaqişə sonrası mövcud vəziyyət, ölkəmizin sülh quruculuğu addımları, Ermənistanla münasibətlərin normallaşdırılması, azad edilmiş ərazilərdə aparılan bərpa və quruculuq işləri, davam edən mina təhdidlərindən bəhs edib. Nazir eyni zamanda Ermənistanın təxribatları və sülh prosesinə maneələri barədə qarşı tərəfi məlumatlandırıb.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Martın 6-da Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Ən az inkişaf etmiş ölkələr üzrə BMT-nin beşinci Konfransında (LDC5) iştirak etmək üçün Qətərə işgüzar səfəri çərçivəsində Qətər Dövlətinin Baş nazirinin müavini və xarici işlər naziri Şeyx Mohammed bin Abdulrahman bin Jassim Al Tani ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan və Qətər arasında ikitərəfli siyasi münasibətlərin inkişafından məmnunluq ifadə olunub və iqtisadi-ticarət, investisiya, maliyyə, sənaye, enerji, nəqliyyat, təhsil, turizm, mədəniyyət və digər sahələrdə gələcək əməkdaşlığın perspektivlərinə dair müzakirə aparılıb.

Nazir Ceyhun Bayramov bölgədəki cari vəziyyət, işğaldan azad olunmuş ərazilərdə Azərbaycan hökuməti tərəfindən aparılan bərpa və quruculuq işləri, ölkəmizin təşəbbüsü və iştirakı ilə bölgədə həyata keçirilən nəqliyyat, kommunikasiya layihələri barədə ətraflı məlumat verib və bu istiqamətlərdə əməkdaşlıq imkanlarının olduğu vurğulanıb. Bununla yanaşı, Ələt Azad İqtisadi Zonası çərçivəsində əməkdaşlıq imkanları müzakirə edilib.

Qətər Dövlətinin Baş nazirinin müavini və xarici işlər naziri Şeyx Mohammed bin Abdulrahman bin Jassim Al Tani ölkəsinin Azərbaycanla hərtərəfli əməkdaşlıqda maraqlı olduğunu qeyd edib.

Tərəflər qarşılıqlı maraq doğuran regional xarakterli məsələlərə dair fikir mübadiləsi aparıblar.

* * *

Martın 6-da Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Qətər Dövlətinə işgüzar səfəri zamanı BMT Baş katibinin müavini, az inkişaf etmiş və dənizə çıxışı olmayan ölkələr üzrə ali nümayəndəsi Rabab Fatima ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə nazir Ceyhun Bayramov Azərbaycanın BMT və onun qurumları ilə sıx əməkdaşlıq etdiyini və humanitar sahədə həyata keçirilən layihələrdə ölkəmizin iştirakı, ən az inkişaf etmiş ölkələrə göstərilən yardımlar, 130-a yaxın ölkəyə yardım proqramları barədə ətraflı məlumat verib. Azərbaycanın təqaüd və təlim proqramlarından faydalanmaq imkanları diqqətə çatdırılıb.

Nazir Azərbaycanın Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsində əhəmiyyətli irəliləyiş əldə etdiyini vurğulayaraq hazırda ölkəmizdə BMT-nin müəyyən etdiyi davamlı inkişaf gündəliyinin icrası, şaxələndirilmiş, texnologiya və elm tutumlu iqtisadiyyatın inkişafı istiqamətində ardıcıl tədbirlərin icra olunduğu barədə məlumat verib.

Azərbaycanın işğaldan azad olunmuş ərazilərdə apardığı genişmiqyaslı bərpa və quruculuq işləri, o cümlədən sülh gündəliyinin irəli aparılması istiqamətində ölkəmiz tərəfindən göstərilən səylər barədə məlumat verən Ceyhun Bayramov Ermənistanın təxribatları barədə də məlumatı qarşı tərəfin diqqətinə çatdırıb.

BMT Baş katibinin müavini, az inkişaf etmiş və dənizə çıxışı olmayan ölkələr üzrə ali nümayəndəsi Rabab Fatima rəhbərlik etdiyi qurumun həmin ölkələrin üzləşdiyi problemlərin həlli istiqamətində gördüyü işlərdən danışıb. Rabab Fatima Azərbaycanın təşəbbüsü və dəstəyi ilə həyata keçirilən irimiqyaslı layihələ-




rin xüsusilə dənizə çıxışı olmayan region ölkələrinin nəqliyyat imkanlarını artıracağını və BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin icrasına əsaslı töhfə verəcəyinə inamını ifadə edib. Azərbaycanın yardım proqramlarının əhəmiyyət daşıdığı bildirilib.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Martın 6-da Qətər Dövlətinə işgüzar səfəri çərçivəsində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ABŞ Dövlət katibinin Beynəlxalq Təşkilatlar məsələləri üzrə köməkçisi Mişel Sison ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüş zamanı regiondakı cari vəziyyət, iki ölkə arasında ikitərəfli əlaqələr, habelə çoxtərəfli platformalarda əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Nazir Ceyhun Bayramov Azərbaycanın bir sıra beynəlxalq təşkilatlarda fəal rol oynadığını, hazırda Qoşulmama Hərəkatı, İqtisadi Əməkdaşlıq Təşkilatında sədrliyi həyata keçirdiyi və genişmiqyaslı təşəbbüslərlə çıxış etdiyini bildirib. Qarşı tərəfə martın 2-də Bakıda keçirilmiş Qoşulmama Hərəkatının Zirvə Görüşü və nəticələri barədə məlumat verib.

Ceyhun Bayramov eyni zamanda az inkişaf etmiş ölkələrə yardım və təqaüd proqramları barədə ətraflı məlumat verib.

Nazir qarşı tərəfə bölgədə münaqişəsonrası vəziyyət, ölkəmizin sülh quruculuğu addımları, azad edilmiş ərazilərdə aparılan bərpa-quruculuq işləri və mövcud mina təhlükəsindən bəhs edib. Azərbaycanın sülh quruculuğu səylərinə baxmayaraq, Ermənistanın təxribatlardan əl çəkmədiyi, öhdəliklərinə zidd olaraq mina təhdidlərini davam etdirdiyi diqqətə çatdırılıb.

Görüş zamanı tərəflər həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıblar.

* * *

Martın 6-da Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov BMT-nin Ən az inkişaf etmiş ölkələr üzrə Beşinci Konfransı çərçivəsində Qana Respublikasının xarici işlər və regional inteqrasiya naziri Şirley Ayorkor Botçvey ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə əvvəlcə C.Bayramov qanalı həmkarını bu ölkənin milli günü münasibətilə təbrik edib və dost Qana xalqına tərəqqi, sülh, əmin-amanlıq arzulayıb.

Sonra tərəflər ikitərəfli və çoxtərəfli platformalarda əməkdaşlıq gündəliyinə daxil olan məsələlər barədə fikir mübadiləsi aparıb və gələcək potensial əməkdaşlıq istiqamətlərini müzakirə ediblər.

Nazir Ceyhun Bayramov BMT Təhlükəsizlik Şurasının hazırkı qeyri-daimi üzvlərindən biri qismində Qanadan olan həmkarını postmünaqişə dövründə Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması prosesi, eləcə də regionda hazırkı təhlükəsizlik vəziyyəti barədə məlumatlandırıb. Bildirilib ki, Ermənistan tərəfinin davam edən hərbi təxribatları, o cümlədən martın 5-də törədilmiş insident bu ölkənin regionda davamlı sülhün əldə olunmasında və Azərbaycanla qarşılıqlı hörmətə əsaslanan münasibətlərin qurulmasında maraqlı olmadığını bir daha göstərir.

Görüşdə Qoşulmama Hərəkatı çərçivəsində əməkdaşlıq məsələləri də müzakirə edilib. Hərəkatın təsisçi dövlətlərindən biri kimi Qananın Qoşulmama Hərəkatının fəaliyyətində aktiv iştirakı vurğulanıb. Qarşı tərəf Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun bir neçə gün əvvəl Bakıda keçirilmiş Zirvə görüşü və onun nəticələri barədə məlumatlandırılıb.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

* * *

Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov martın 6-da Ən az inkişaf etmiş ölkələr üzrə BMT-nin Beşinci Konfransında (LDC5) çıxış edib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, Ceyhun Bayramov çıxışında əvvəlcə Türkiyədə və Suriyada zəlzələ nəticəsində həlak olanlarla əlaqədar başsağlığı diləklərini çatdırıb.

Tədbirin yüksək səviyyədə təşkilinə görə Qətər Dövlətinə təşəkkür edən nazir bu mötəbər konfransda hazırda az inkişaf etmiş 46 ölkənin və bu ölkələrdə yaşayan 1,1 milyard əhalinin problemlərinin həlli istiqamətində əhəmiyyətli qərarların qəbul olunacağına inamını ifadə edib.

Ceyhun Bayramov on ildən bir keçirilən bu konfransın təkcə həmrəylik deyil, eyni zamanda inkişaf tərəfdaşlarının az inkişaf etmiş ölkələrin ehtiyaclarının təmin edilməsi üzrə öhdəliklərinin bir daha təsdiqlənməsi və bu sahədə 2022-2031-ci illər üzrə Doha Fəaliyyət Planının icrası üçün vacib tədbir olduğunu diqqətə çatdırıb. Bu 46 ölkədən 39-nun Azərbaycanın sədrlik etdiyi Qoşulmama Hərəkatı üzvləri olduğu xatırlanıb.

Nazir Azərbaycanın ərazilərinin 30 ilə yaxın müddətdə Ermənistanın işğalı altında olmasına, bir milyona yaxın azərbaycanlının doğma torpaqlarından didərgin düşməsinə, minlərlə insanın həlak olmasına, işğalın Azərbaycanın sosial-iqtisadi rifahına dağıdıcı təsirlərinə baxmayaraq, uğurlu daxili və xarici siyasət nəticəsində ölkəmizin çətinliklərin öhdəsindən gəldiyini, yardım alan ölkədən donor ölkəsinə çevrildiyini qeyd edib.

Həmçinin Azərbaycan tərəfindən 130-a yaxın ölkəyə səhiyyə, təhsil, texniki və humanitar sahələrdə yardımlar göstərildiyi diqqətə çatdırılıb. Azərbaycanın İstanbul Fəaliyyət Planı və Dayanıqlı İnkişaf Məqsədləri çərçivəsində praktiki töhfələri qeyd olunub. Ölkəmizin İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində Azərbaycan hökuməti tərəfindən təqaüd proqramları barədə məlumat verilib, ən az inkişaf etmiş 21 ölkənin diplomatları üçün təlimlər keçirildiyi vurğulanıb.

Mötəbər tədbirdə COVID-19 pandemiyası dövründə ölkəmizin donorluq fəaliyyəti, qlobal pandemiya ilə mübarizəyə töhfələri barədə ətraflı məlumat verilib. Pandemiya ilə əlaqədar Azərbaycanın 80 ölkəyə maddi və humanitar dəstək göstərdiyi, 14 ölkəyə 1 milyon doza vaksin təklif etdiyi bildirilib.

Həmçinin 2023-cü il martın 2-də Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Bakıda keçirilmiş Zirvə görüşünün ölkələrin pandemiyalar zamanı həmrəylik nümayiş etdirməsi baxımından əhəmiyyəti vurğulanıb. Azərbaycanın zirvə görüşündə Afrika, habelə inkişaf etməkdə olan kiçik ada dövlətlərinə yardım üzrə fondun yaradılması təşəbbüsü ilə çıxış etdiyi, bu fondların hərəsinə 1 milyon ABŞ dolları məbləğində vəsait ayrıldığı qeyd edilib. Bundan başqa, Azərbaycanın bu təşəbbüslərinə dəstəyin zəruriliyi diqqətə çatdırılıb.

# Azərbaycan XİN Ermənistanın növbəti təxribatları barədə məlumat yayıb

**Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Rusiya Federasiyası sülhməramlı kontingentinin müvəqqəti olaraq yerləşdiyi Azərbaycan ərazilərində Ermənistanın növbəti təxribatları barədə məlumat yayıb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a daxil olan məlumatda Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin məlumatında qeyd edildiyi kimi, daxil olmuş operativ məlumata əsasən, Ermənistan tərəfinin 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın müddəalarına zidd olaraq, Xankəndi-Xəlfəli-Turşsu torpaq yolundan istifadə edilməklə Rusiya Federasiyası sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərinə silah və sursatların, şəxsi heyətin, o cümlədən minaların daşınmasını həyata keçirməkdə davam etdiyi vurğulanıb.

Qeyd edilib ki, Azərbaycan tərəfindən daha əvvəl də məlumat verildiyi kimi, Ermənistan ərazilərimizin 30 illik işğalına son qoyulduğu 44 günlük Vətən müharibəsindən sonra da öz təxribatlarından əl çəkməyib, erməni silahlı qüvvələrini tam olaraq Azərbaycan ərazilərindən çıxarmayıb, Azərbaycan ərazilərinə silah, sursat və Ermənistan Respublikasında 2021-ci ildə istehsal olunmuş minaların daşınmasını və yerləşdirilməsini həyata keçirib. Minaların yerləşdirilməsi faktları Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin bölgəyə səfəri zamanı da nümayiş etdirilib.

Laçın yoluna alternativ olan köməkçi yollardan silah və sursatın, şəxsi heyət və minaların daşınması ilə bağlı daxil olmuş məlumatı yoxlamaq və dəqiqləşdirmək məqsədilə martın 5-də Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin əməliyyat bölməsi əraziyə göndərilib, Ermənistandan Xankəndiyə silah, sursat, şəxsi heyət və minaları daşıyan avtomobillərin yoxlanmasına cəhd edilib. Bu zaman qarşı tərəfdən açılan atəş nəticəsində Azərbaycan Respublikasının Silahlı Qüvvələrindən ölən və yaralananlar var. Qarşı tərəf Silahlı Qüvvələrimiz tərəfindən açılan cavab atəşi ilə susdurulub.

"Bu kimi təcavüz aktı və təxribatlar Ermənistanın Azərbaycana qarşı işğal siyasətindən əl çəkmədiyini, Ermənistan tərəfindən sülh gündəliyi ilə bağlı fikirlərin riyakarlıqdan başqa bir şey olmadığını, Ermənistanın regionda sülh və təhlükəsizliyin bərqərar edilməsində maraqlı olmadığını bir daha nümayiş etdirir. Bu əməllər Azərbaycan-Ermənistan arasında sərhəd nəzarət-buraxılış rejiminin tətbiq edilməsinin labüdlüyünü bir daha sübut edir.

Azərbaycan tərəfi bu kimi hərbi təxribatların qarşısını almaq məqsədilə üçtərəfli Bəyanatın icrasının təmin edilməsini, Ermənistandan qeyri-qanuni silah və sursatın, şəxsi heyətin və minaların daşınmasına son qoyulmasını, Azərbaycan ərazilərindən erməni silahlı qüvvələrini dərhal çıxarmağı tələb edir.

Bölgədə vəziyyətin gərginləşdirilməsinə görə bütün məsuliyyət Ermənistan tərəfinin üzərinə düşür", - deyə Azərbaycan Xarici İşlər Nazirliyinin məlumatında bildirilib.

# "Raisina" Dialoq Forumunun iştirakçıları Qarabağdakı vəziyyət barədə məlumatlandırılıb




**Martın 3-5-də Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini Elnur Məmmədov "Raisina" Dialoq Forumunda iştirak məqsədilə Hindistana işgüzar səfər edib.**

Səfər çərçivəsində nazir müavini Elnur Məmmədovun "Raisina" Dialoq Forumunda iştirak və çıxış edib, forumun əsas təşkilatçısı olan "Observer Research Foundation" beyin mərkəzinin vitse-prezidenti Qautam Çikermane ilə müsahibəsi, habelə Hindistanın xarici işlər və mədəniyyət üzrə dövlət naziri Menakşi Lexi, bu ölkənin Xarici İşlər Nazirliyinin Qərb üzrə katibi (xarici işlər nazirinin müavini) Sancay Verma ilə ikitərəfli görüşləri baş tutub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, "Raisina" Dialoq Forumunda çıxış edən nazir müavini Elnur Məmmədov 2016-cı ildən etibarən Dehli şəhərində keçirilən, beynəlxalq ictimaiyyətin qarşısında duran geosiyasi və geoiqtisadi çağırışlarla mübarizə yollarının müzakirə olunduğu bu platformada Azərbaycanın ilk dəfə iştirak etdiyini məmnunluqla diqqətə çatdırıb. Bu xüsusda çoxtərəfli əməkdaşlığın beynəlxalq münasibətlər sisteminin transformasiyası dövründə qlobal çağırışlarla mübarizədə hər zamankından daha əhəmiyyətli olduğu vurğulanıb. Azərbaycanın beynəlxalq birliyin məsuliyyətli üzvü kimi hər zaman qlobal inkişaf gündəliyinə sadiq olduğu, beynəlxalq sülh və təhlükəsizliyin bərqərar edilməsinə ardıcıl töhfələr verdiyi qeyd edilib.

Postmünaqişə dövründə regionda yaranmış yeni reallıqlar, bölgədə mövcud vəziyyət barədə forum iştirakçılarını ətraflı məlumatlandıran nazir müavini Elnur Məmmədov Azərbaycanın işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işləri apardığını diqqətə çatdırıb. Ermənistan tərəfindən maneələrə baxmayaraq, Azərbaycanın sülh gündəliyinin irəli aparılması istiqamətində qərarlı olduğu vurğulanıb.

Səfər çərçivəsində həmçinin nazir müavini Hindistan Respublikasının xarici işlər və mədəniyyət üzrə dövlət naziri Menakşi Lexi və Hindistan Respublikasının Xarici İşlər Nazirliyinin Qərb üzrə katibi (xarici işlər nazirinin müavini) Sancay Verma ilə ikitərəfli görüşləri keçirilib.

Görüşlərdə Azərbaycan və Hindistan arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyinin aktual məsələləri, o cümlədən regional vəziyyət ətrafında fikir mübadiləsi aparılıb.

Nazir müavini qarşı tərəfi postmünaqişə dövründə regional vəziyyət, Azərbaycanın sülh və quruculuq səyləri barədə məlumatlandırıb.

# Almaniya səfiri erməni terroru nəticəsində həlak olan Gəncə sakinlərinin xatirəsini anıb

**Almaniyanın ölkəmizdəki səfiri Ralf Horleman Gəncə şəhərinə səfəri çərçivəsində Ermənistanın günahsız mülki insanlara qarşı raket hücumları ilə törətdiyi cinayət yerini ziyarət edib, həlak olan şəhər sakinlərinin xatirəsini anıb.**

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Almaniya səfiri erməni terroru nəticəsində həlak olan dinc sakinlərin xatirəsinə ehtiram əlaməti olaraq anım yerinə gül dəstələri düzüb.

Məlumat verilib ki, işğalçı Ermənistanın silahlı qüvvələri 44 günlük Vətən müharibəsində beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il Cenevrə konvensiyalarını və onların Əlavə protokollarını, habelə özlərinin israrlı xahişləri əsasında Moskvada keçirilmiş görüşün yekunu olaraq razılaşdırılmış humanitar atəşkəs rejiminin tələblərini pozaraq



Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla, yaşayış məntəqələrini ağır artilleriyadan - "Toçka-U", "Smerç", "Skad" və digər raketlərlə atəşə tutub. Bu hücumların həyata keçirilməsi çoxlu sayda dinc insanın qətlə yetirilməsi məqsədi daşıyıb. Baxmayaraq ki, dinc vətəndaşların məqsədyönlü şəkildə hədəfə alınması insanlığa qarşı cinayətdir, Ermənistan beynəlxalq hüquqa məhəl qoymadan müharibə cinayətlərini davam etdirib.

Qeyd olunub ki, 44 günlük müharibə dövründə Ermənistan cəbhədən yüzlərlə kilometr aralıda yerləşən, Azərbaycanın ikinci böyük şəhəri, çoxsaylı tarixi və mədəni abidələri olan qədim Gəncəni 4, 5, 8, 11 və 17 oktyabr tarixlərində raket və ağır artilleriyadan atəşə tutub, nəticədə 26 dinc sakin həlak olub, 175 nəfər yaralanıb.

Ermənistan silahlı qüvvələrinin raket və ağır artilleriya hücumları nəticəsində Bərdə rayonunda 29 nəfər həlak olub, 112 nəfər isə yaralanıb.

Naftalan şəhərində Qaşaltı-Qaraqoyunlu kəndində yerləşən, kənd sakini Qurbanov Elbrus İsa oğlunun evinə top mərmisinin düşməsi nəticəsində bir ailə (5 nəfər) tamamilə məhv olub.

Ümumilikdə Ermənistanın hərbi təcavüzü nəticəsində 12-si uşaq, 27-si qadın olmaqla 93 mülki şəxs həlak olub, 454 mülki vətəndaş yaralanıb. 12292 yaşayış və qeyri-yaşayış sahəsinə, 288 nəqliyyat vasitəsinə, 1018 fermer təsərrüfatına, mülki infrastruktur obyektlərinə, nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəyib.

# *Almaniya səfiri:* "Gəncədəki dağıntılar müharibənin nə qədər dəhşətli olduğunu göstərir"

**Gəncədəki dağıntılar müharibənin nə qədər dəhşətli olduğunu göstərir.**

Bunu AZƏRTAC-ın bölgə müxbirinə müsahibəsində Almaniyanın ölkəmizdəki səfiri Ralf Horleman Gəncədə Ermənistanın günahsız mülki insanlara qarşı raket hücumları ilə törətdiyi cinayət yerini ziyarət edərkən deyib.



"Mülki insanlar müharibənin günahsız qurbanlarıdır. Təəssüflər olsun ki, iki dövlət arasında sülh hələ də əldə edilməyib. İstərdik ki, regionda sülh olsun və insanlar təhlükəsiz, sülh şəraitində yaşasınlar," - deyə diplomat bildirib.

# Akademik Zərifə Əliyevanın 100 illik yubileyinə həsr edilmiş beynəlxalq elmi konfrans keçirilir

**Martın 6-da AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın anadan olmasının 100 illik yubileyinə həsr edilmiş "Dəyişən dünyada qadın: Şərq və Qərb baxışı" mövzusunda beynəlxalq elmi konfransın açılışı olub.**



AZƏRTAC xəbər verir ki, konfransın təşkilində AMEA-nın Şərqşünaslıq İnstitutu ilə yanaşı, Misir Ərəb Respublikasının Bint Bələd qubernatorluğu üzrə Qadınlar Cəmiyyəti, Rusiya Federasiyasının Tarix, İqtisadiyyat və Hüquq Elmi-Tədqiqat İnstitutu, Qazaxıstan Respublikasının Təhsil və Elm Nazirliyinin R.B.Süleymenov adına Şərqşünaslıq İnstitutu, İraq Strateji Araşdırmalar Mərkəzi və Çin Xalq Respublikasının Hebey Universiteti də iştirak edir.

Konfransa Azərbaycan, Qazaxıstan, Misir, Mərakeş, İraq, Livan, Malayziya, Çin, Ukrayna, Rusiya və Belarusdan ümumilikdə 170-ə yaxın alim qatılıb.

Konfransın açılışında çıxış edən AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Azərbaycan Respublikası Prezidentinin "Akademik Zərifə Əliyevanın 100 illik yubileyinin qeyd edilməsi haqqında" Sərəncamını xatırladaraq, ölkəmizdə, o cümlədən AMEA-da bir sıra tədbirlər keçirildiyini bildirib. Akademik Zərifə Əliyevanın ölkəmizdə göz xəstəliklərinin diaqnostika və müalicəsindəki mühüm xidmətlərindən danışan akademik İsa Həbibbəyli görkəmli alimin gözün peşə və irsi xəstəliklərinə, sənaye müəssisələrində, neft-kimya sənayesində çalışan şəxslərin görmə orqanlarına təsir edən amillərə dair fundamental tədqiqatları olduğunu vurğulayıb, Fiziologiya İnstitutunda Zərifə Əliyevanın təşəbbüsü və bilavasitə rəhbərliyi ilə yaradılan laboratoriyada dəyərli araşdırmalar aparıldığını qeyd edib.

AMEA-nın vitse-prezidenti, akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun baş direktoru akademik Gövhər Baxşəliyeva qadın azadlığı, qadının cəmiyyətdə və ailədə rolu, onun təhsili, ictimai həyatda iştirakı, gender bərabərliyi və digər məsələlərin istər Qərbdə, istərsə də Şərqdə maarifpərvər ziyalıları daim düşündürdüyünü, çoxsaylı bədii əsərlərin mövzusu olduğunu, tarixin müxtəlif mərhələlərindən keçərək bərabərsizliklə üzləşən qadınların öz hüquqları uğrunda mübarizə apardıqlarını deyib: "Hazırda dünyanın əksər ölkələrində qadınlar kişilərlə bərabər hüquq əldə edərək, bir çox uğurlara imza atıblar və həyatın ən müxtəlif sahələrində öz sözünü deməyə müvəffəq olublar. Bu baxımdan konfransımızın əhatə etdiyi mövzular - tarix və ədəbiyyatda qadın, elmdə və təhsildə qadın, incəsənət və mədəniyyətdə qadın, günümüzdə qadın, müasir dövrdə qadın problemləri - dəyişən dünyada qadının rolunu hərtərəfli işıqlandırmağa imkan yaradacaq".

G.Baxşəliyeva görkəmli alim-oftalmoloq Zərifə Əliyevanın səhiyyə tarixində əvəzedilməz yeri, oftalmologiya sahəsində geniş elmi axtarışları olduğunu qeyd edib, Zərifə xanımın timsalında ideal qadın və əsl Azərbaycan xanımı obrazının canlandığını deyib.

Daha sonra konfransın təşkilatçıları olan xarici elmi və ictimai qurumların nümayəndələrinin videoçıxışları təqdim edilib.

Rusiya Federasiyasının Tarix, İqtisadiyyat və Hüquq Elmi-Tədqiqat İnstitutunun prezidenti tarix üzrə elmlər doktoru, professor İqor Turitsın qadın hərəkatının Qərbdə təşəkkülü tarixindən danışaraq, Şərqdə bu hərəkatın nisbətən sonra başlandığını qeyd edib, əvvəlki əsrlərdə Şərqlə yanaşı, Qərbdə də qadın hüquqlarının qorunmadığını bildirib. Rusiyada ötən əsrin əvvəllərindən qadınların fəallığının artmasından danışan İ.Turitsın onların ictimai-siyasi həyatda rolundan bəhs edib.

Misir Ərəb Respublikasının Bint Bələd qubernatorluğu üzrə Qadınlar Cəmiyyətinin vitse-prezidenti professor Əmirə Əbdulhəkim konfransda dinlənilən mövzularda məruzələrin əhəmiyyətini qeyd edib.

Qazaxıstan Respublikasının Elm və Ali Təhsil Nazirliyinin Elm Komitəsinin R.B.Süleymenov adına Şərqşünaslıq İnstitutunun direktor müavini iqtisad elmləri doktoru Duysen Qalımjan müasir dünyada geosiyasi risklərin və insanların həyat və fəaliyyətinin dayanıqlığının artması şəraitində sülhün, xeyirxahlığın və inkişafın rəmzi kimi çıxış edən qadınların ictimai həyatda rolundan danışıb. Tarixin qadınların qlobal inkişaf yolunda əzmkarlıq, fədakarlıq nümunələri ilə zəngin olduğunu deyən D.Qalımjan fikrini nümunələrlə əsaslandırıb.

Tədbirdə AMEA-nın Qadınlar Şurasının sədri professor Rəna Mirzəzadə "Birinci vitse-prezidentliyə gələn yol və gender siyasəti", Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini filologiya üzrə fəlsəfə doktoru Qəmər Cavadlı "İslamda qadın hüquqları və gender bərabərliyi", Asiya Fəlsəfə Assosiasiyasının vitse-prezidenti, AMEA-nın müxbir üzvü, fəlsəfə üzrə elmlər doktoru Könül Bünyadzadə "Qadına fəlsəfi baxış" mövzusunda məruzələr ediblər.

Daha sonra konfransın bölmə iclasları keçirilib. Konfransa martın 7-də yekun vurulacaq.

# Leyla Əliyevanın iştirakı ilə növbəti "Bizim həyət"in açılışı olub





**IDEA İctimai Birliyinin təmirə ehtiyacı olan həyətlərin abadlaşdırılmasına yönəlmiş "Bizim həyət" layihəsi çərçivəsində yenilənən növbəti həyət martın 6-da sakinlərin istifadəsinə verilib.**



AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva həyətin açılışında və tədbir çərçivəsində keçirilən kütləvi ağacəkmə aksiyasında iştirak edib.

Yenilənmiş həyət Suraxanı rayonu, Qaraçuxur qəsəbəsi, Yeni Günəşli, "Q" massivi, Süleyman Əhmədov küçəsində 1200 sakinin yaşadığı 21, 22, 23, 24, 25, 26, 27 nömrəli çoxmərtəbəli binaları əhatə edir.

"Bizim həyət" layihəsinin əsas məqsədi ölkə ərazisində həyətlərin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Abadlaşdırılan növbəti həyətdə əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarını səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə ərazidə süni örtüklü minifutbol stadionu, şahmat meydançası, müxtəlif idman qurğuları, uşaq meydançaları salınıb. Eyni zamanda ərazidə 7 söhbətgah, çoxsaylı oturacaqlar, tullantılar üçün qutular, quş yuvaları və pişik evləri quraşdırılıb.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, həyətdə yeni işıqlandırma dirəkləri, müşahidə kameraları quraşdırılıb, binaların fasad və blokları tam təmir olunub, asfalt və dam örtüyü yenilənib, elektrik sistemi yenidən qurulub.

Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, 1300 ədəd müxtəlif cinsli ağaclar əkilib, 3 min kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb. Bununla yanaşı, həyətin ətrafında sıx bitən və havanın çirklənməsini səmərəli şəkildə azalda bilən minlərlə adi daşsarmaşığı və digər sarmaşan bitkilər əkməklə "yaşıl sədlər" yaradılıb.

Sözügedən layihə çərçivəsində ümumi yaşayış sahələrinin həyətlərinin abadlaşdırılmasına dair məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

# Dövlətimiz tərəfindən qadınlara xüsusi diqqət və qayğı göstərilir

**Martın 6-da Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə Bakıda 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə tədbir keçirilib.**





AZƏRTAC xəbər verir ki, tədbirdə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova, Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva və ictimai-siyasi sahədə xidmətləri ilə seçilən qadınlar iştirak ediblər.

Tədbirdən əvvəl iştirakçılar Fəxri xiyabana gedərək müasir müstəqil dövlətimizin memarı və qurucusu Ümummilli Lider Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə gül dəstələri qoyublar.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə gül dəstələri düzülüb.

Tədbir Azərbaycanın Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş qəhrəman Vətən övladlarının, həmçinin qardaş Türkiyədə baş vermiş zəlzələ nəticəsində həlak olanların əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Sonra dövlətimizin qadın siyasətindən bəhs edən videoçarx nümayiş etdirilib.

Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qadınlara ünvanladığı təbrik məktubunu oxuyub.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova çıxışında dövlətimiz tərəfindən qadınlara xüsusi diqqət və qayğı göstərildiyini bildirib. Qeyd edib ki, Azərbaycan qadınları istənilən sahədə uğur qazanmaqla yanaşı, Vətənə layiqli övladlar yetişdirməyi də bacarırlar. Eyni zamanda Azərbaycan qadınlarının əməyi mütəmadi olaraq yüksək qiymətləndirilir.

Bahar Muradova həmçinin 44 günlük Vətən müharibəsindən də söz açaraq bildirib ki, biz Qarabağa qayıtdığımız kimi, Qərbi Azərbaycana da qayıdacağıq.

Prezident İlham Əliyevin 2023-cü il 6 mart tarixli Sərəncamına əsasən "Tərəqqi" medalı ilə təltif edilmiş qadınları təbrik edən Bahar Muradova onlara uğurlarının davamlı olmasını arzulayıb.

"Tərəqqi" medalı ilə təltif edilmiş qadınlar onlara göstərilən diqqət və qayğıya, fəaliyyətlərinin yüksək qiymətləndirilməsinə görə dövlətimizin başçısı İlham Əliyevə təşəkkürlərini bildiriblər. Tədbir bədii hissə ilə davam edib.

# "Yaşıl Marafon - 2023" ağacəkmə kampaniyasına start verilib





**Martın 6-da Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın iştirakı ilə Bakıda "Ümumrespublika Yaşıllaşdırma Marafonu"nun ("Yaşıl Marafon") 2023-cü il yaz mövsümü üzrə ilk ağacəkmə aksiyası keçirilib.**



AZƏRTAC xəbər verir ki, ağacəkmə aksiyası zamanı Bakının Xətai rayonunda yerləşən "Gənclik" parkında Yaponiya dövləti tərəfindən Azərbaycana hədiyyə edilmiş sakura ağaclarından ibarət bağ salınıb. Azərbaycan və Yaponiya arasında dostluq rəmzi olaraq əkilmiş həmin sakura ağaclarının çiçəklənməsi ölkələrin inkişafı, onların dostluq və həmrəylik rəmzi olacaq. Eyni zamanda aksiya zamanı könüllülərin iştirakı ilə parkda qurumuş ağacların əvəzinə Abşeron yarımadasının torpaq-iqlim şəraitinə uyğun yeni şam ağacları əkilib.

IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə həyata keçirilən "Yaşıl Marafon" kampaniyası çərçivəsində ölkənin müxtəlif regionlarında yaz-payız əkin mövsümlərində kütləvi ağacəkmə aksiyaları təşkil olunur.

Kampaniyanın əsas məqsədi yaşıllıq sahələrinin artırılmasına, ağac əkilməsini təşviq edərək ətraf mühitin mühafizəsinə, eyni zamanda yaşıllıqların qorunması ilə bağlı maarifləndirmə işinə töhfə verməkdir.

Ölkəmizdə yaşıllıqların mühafizəsi və artırılması səylərini bundan sonra da davam etdirmək niyyətində olan IDEA İctimai Birliyi öz tərəfdaşları ilə birgə ictimaiyyəti planetimizin mühafizəsi ilə bağlı mübarizədə, ətraf mühit naminə görülən tədbirlərdə fəal iştirak etməyə çağırır.

# Müasir Azərbaycan hərbçisinin gözündən heç nə yayınmır və istənilən təxribat cavabsız qalmır

## "Dəmir yumruq" təxribatçıların başını əzdi



*Əvvəli 1-ci səh.*

## Qalib Azərbaycan Ordusu şəhidlərimizin qisasını aldı

### Növbəti erməni təxribatı və alınan qisas

İkinci Qarabağ müharibəsinin başa çatmasından iki ildən artıq vaxt keçməsinə baxmayaraq, hələ də sülh müqaviləsini imzalamağa hazır olmayan məğlub Ermənistan öz çirkin əməllərindən əl çəkmir. Martın 5-də ermənilərin növbəti dəfə təxribata əl atması nəticəsində hər iki tərəf itki verib.

Müdafiə Nazirliyinin yaydığı məlumatda bildirilir ki, Xankəndi-Xəlfəli-Turşsu torpaq yolundan istifadə edilməklə Ermənistandan hərbi ləvazimatların, silah-sursatın və şəxsi heyətin Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərinə daşınmasının həyata keçirilməsi barədə operativ məlumatlar daxil olub. Məlumatın yoxlanması məqsədilə qanunsuz hərbi daşınmalar həyata keçirən nəqliyyat vasitələri Azərbaycan Ordusunun bölmələri tərəfindən saxlanılaraq yoxlanılmasına cəhd göstərilib. Yoxlama cəhdi zamanı qarşı tərəfdən Azərbaycan hərbçilərinə atəş açılıb. Təxribat nəticəsində Azərbaycan Ordusunun hərbi qulluqçuları Əlibəyli Şəhriyar Ramiz oğlu və Hüseynov Eşqin Cəmil oğlu şəhid olublar.

Amma şəhidlərimizin qanı yerdə qalmayıb. Görülən cavab tədbirləri zamanı 3 erməni təxribatçı məhv edilib, 1-i ağır yaralanıb. Ermənistan tərəfinin yaydığı məlumata görə, məhv edilən erməni separatçılardan biri polkovnik-leytenant Armen Babayan, mayor David Danielyan, digəri isə leytenant Ararat Qasparyandır.

### Məsuliyyət Ermənistanın və Rusiya sülhməramlı kontingentinin üzərinə düşür

Baş verən hadisəyə görə, məsuliyyət ilk növbədə Ermənistanın, daha sonra Rusiya sülhməramlı kontingentinin üzərinə düşür. Azərbaycan ərazilərində müvəqqəti yerləşdirilən Rusiya sülhməramlıları martın 5-də gündəlik yaydıqları məlumatlarda baş verən hadisədən bəhs etməyiblər. Halbuki separatçıların yaydığı fotolarda sülhməramlıların hadisə yerinə gəldiyi görünür.

Azərbaycan Müdafiə Nazirliyi Rusiya sülhməramlı kontingentinin komandanlığının diqqətinə çatdırıb ki, üçtərəfli Bəyanatın bəndlərinin yerinə yetirilməsi qeyd-şərtsiz və tam təmin edilməlidir. "Bildiririk ki, Qarabağ iqtisadi rayonu ilə Ermənistan Respublikası arasında yeganə istifadə oluna biləcək avtomobil yolu Xankəndi-Laçın yoludur. Rusiya sülhməramlı kontingentinin komandanlığına bir daha xatırladırıq ki, başqa marşrutlar üzrə hərbi və digər təyinatlı daşınmaların həyata keçirilməsi qəti surətdə yolverilməzdir", - deyə nazirliyin yaydığı məlumatda vurğulanıb.

Onu da əlavə edək ki, hadisənin baş verdiyi ərazi də önəmlidir. Azərbaycanın Qarabağ iqtisadi rayonu ərazisində Xankəndi-Xəlfəli-Turşsu torpaq yolu Laçın yoluna alternativ hesab edilir. Ərazi torpaq yol olduğu üçün əvvəllər elə də çox istifadə olunmayıb. Azərbaycanlı fəalların Laçın yolunda aksiya keçirməsindən sonra Ermənistan tərəfi silah və şəxsi heyətin daşınması üçün alternativ gizli yollara əl atıb. Beləliklə, təxribatçılar silah daşımaq üçün Xankəndi-Xəlfəli-Turşsu yolundan istifadə ediblər və bu fakt Azərbaycan Ordusunun gözündən yayınmayıb.

Hərbi təyinatlı "Caliber" internet kanalının Xankəndi-Xəlfəli-Turşsu torpaq yolu vasitəsilə Ermənistandan Azərbaycanın Qarabağ bölgəsinə silah, döyüş sursatı və yanacağın aparılmasına dair videosübutlar yayması da deyilən faktları bir daha təsdiqləyir. Həmin süjetdə bildirilir ki, qanunsuz daşımalar gecə-gündüz həyata keçirilir və hər iki istiqamətdə nəqliyyatın hərəkəti müşahidə olunur.

### Ermənistanın təcavüz və terror siyasətinə layiqli cavab veriləcək

Ümumilikdə Azərbaycan Silahlı Qüvvələri Qarabağda baş verən bütün təxribatların qarşısını alır və bundan sonra da alacaq. 44 günlük Vətən müharibəsində düşmənin başını əzən "dəmir yumruq" yerindədir. Yaxşı olardı ki, ermənilər bunu unutmasınlar, yoxsa sonları döyüş meydanında məhv edilən həmyerlilərindən heç nə ilə fərqlənməyəcək.

Son hadisə göstərdi ki, sülhməramlıların müvəqqəti yerləşdiyi ərazilərdəki təxribatçı ünsürlər dərhal tərk-silah edilməlidir. Eyni zamanda Laçın-Xankəndi yolunun üzərində müvafiq nəzarət-keçid məntəqəsinin yaradılması da təmin olunmalıdır. Şübhə yox ki, Azərbaycan tərəfi ilk gündən ortaya qoyduğu qətiyyətli addımlarını davam etdirərək istəyinə nail olacaq.

Hərbi ekspertlər də hesab edirlər ki, sülh danışıqlarından yayınan Ermənistan bu yolla təxribatçı olduğunu bir daha təsdiqləyir. Ona görə də Xocalıdakı görüş görüntü xarakteri daşıyırdı. Ermənilər bununla vaxt qazanmaq imkanı əldə edirlər. Bu səbəbdən də onlara belə imkan vermək olmaz. Baş vermiş insident bir daha Azərbaycan tərəfindən Laçın-Xankəndi yolunun üzərində müvafiq nəzarət-keçid məntəqəsinin yaradılmasının zəruri olduğunu göstərir.

Ermənistanın yenə də Azərbaycanın Qarabağ iqtisadi rayonuna silah-sursat və yanacaq daşıması faktı bu ölkənin Azərbaycana qarşı davam edən təcavüzü və terror siyasətidir. Əlbəttə, Azərbaycan Ordusu bunun qarşısını hər zaman almaq gücündədir və bundan sonra da cavab əməliyyatları ilə düşmənə gözdağı verəcək.

Ali Baş Komandan İlham Əliyev də haqlı olaraq bəyan edir ki, Ermənistan istənilən təxribatı ilə, çirkin əməlləri ilə özünə "quyu qazır". Prezidentin söylədiyi kimi, bu yanaşma Ermənistanı çıxılmaz vəziyyətə gətirib çıxaracaq. Ona görə də məğlub Ermənistan hökuməti İkinci Qarabağ müharibəsinin dərsini unutmamalıdır. Həmin dərsi yaxşı öyrənməli və Azərbaycana qarşı hər hansı ərazi iddialarından çəkinməlidir. Çünki İrəvan hakimiyyətinin destrukriv siyasəti Azərbaycanın sərt addımlar atmasına gətirib çıxara bilər.

### Azərbaycan Ordusu hərbi gücünə görə 145 ölkə arasında 57-ci yerdədir

Azərbaycan Ordusunun cavab tədbirləri, əlbəttə ki, separatçılara növbəti dərs oldu. Bir daha revanşistlərə və Ermənistan rəhbərliyinə bəlli oldu ki, müasir Azərbaycan hərbçisinin gözündən heç nə yayınmır və istənilən təxribat cavabsız qalmır.

Bütün bunlar bir daha onu deməyə əsas verir ki, Ali Baş Komandan İlham Əliyev dünyanın ən güclü ordularından birini yaradıb. Bu gün Azərbaycan Ordusu öz hərbi gücünə görə "Global Firepower" reytinqində 145 ölkə arasında 57-ci yerdədir.

"Globalfirepower.com" saytının yaydığı məlumata əsasən, reytinq ordunun və hərbi hissələrin sayı, müdafiə xərcləri, döyüş arsenalının miqdarı və ordunun döyüş qabiliyyətinə təsir edən digər 60 müxtəlif faktor əsasında tərtib olunub.

Reytinqin ilk beşliyində ABŞ, Rusiya, Çin, Hindistan və Böyük Britaniya qərarlaşıb. Azərbaycan siyahıda 57-ci yeri tutur. Türk Dövlətləri Təşkilatının digər üzvləri - Türkiyə 11-ci, Özbəkistan 62-ci, Qazaxıstan 63-cü, Türkmənistan 82-ci, Qırğızıstan isə 107-ci sırada yer alıb. Reytinq cədvəlinə əsasən, Pakistan 7-ci, Ukrayna 15-ci, İran 17-ci, İsrail 18-ci, Gürcüstan 85-ci, Ermənistan isə 94-cü pillədədir.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Ermənistan imzasına hörmət etmir

**Xəbər verildiyi kimi, iki gündür ki, Azərbaycan Ordusunun mövqeləri erməni separatçıları tərəfindən atəşə tutulur. Martın 5-də səhər saatlarında qeyri-qanuni erməni birləşmələrinin törətdikləri təxribat nəticəsində Azərbaycan Ordusunun hərbi qulluqçuları Əlibəyli Şəhriyar Ramiz oğlu və Hüseynov Eşqin Cəmil oğlu şəhid olublar. Azərbaycan Müdafiə və Xarici İşlər nazirlikləri məsələ ilə bağlı bəyanatlarında Azərbaycan tərəfindən Laçın-Xankəndi yolunun üzərində müvafiq nəzarət-keçid məntəqəsinin yaradılmasının vacibliyi qeyd edilib.**





Baş vermiş insident Azərbaycan-Ermənistan arasında sərhəd nəzarət-buraxılış rejiminin tətbiq edilməsinin zəruriliyini sübut edir. Son təxribatın Rusiya sülhməramlılarının müvəqqəti nəzarət zonasında, Azərbaycanın suveren ərazisində törədilməsi onun miqyasının böyüklüyünü göstərir. Bu, separatçıların dərhal tərk-silah olunmalarının labüdlüyündən xəbər verir.

### Ermənistan təxribatların hərbi yolla həllinin olduğunu unutmamalıdır

Milli Məclisin deputatı Arzu Nağıyev deyib ki, ermənilərin son təxribatları onların imza atdıqları üçtərəfli bəyanatlara məhəl qoymadıqlarını sübut edir: "İki ölkə arasında sülh o vaxt bərqərar olar ki, qeyri-qanuni erməni silahlı birləşmələri Azərbaycan ərazilərini tərk etsinlər. Erməni kütləvi informasiya vasitələri, eləcə də Ermənistan rəhbərliyi terrorçulara haqq qazandırmağa çalışır, guya, polis əməkdaşı olduqlarını bildirirlər. Sual olunur, heç bir statusu olmayanların polisi hardandır?! Onlar açıq-aşkar terrorçudurlar".

Deputatın sözlərinə görə, 10 noyabr üçtərəfli Bəyanatda göstərilən müddəalardan biri də Ermənistan silahlılarının qalıqlarının Azərbaycan ərazisindən çıxarılmasıdır. "Ona görə də Ermənistan tərəfi dərhal bunu təmin etməli idi. Sənədə imza atan dövlət öz imzasına hörmətlə yanaşmalıdır. Əks halda davamlı olaraq belə təxribatlarla üzləşə bilərik. Sülhməramlı qüvvələr də məsuliyyətlərini dərk etməli, funksiyalarını mütləq yerinə yetirməlidirlər. Görünür, Azərbaycan sülhə cəhd etsə də, sülh müqaviləsinin imzalanması istiqamətində müvafiq addımlar atsa da, Ermənistan rəhbərliyi və erməni separatçıları bu məsələdə maraqlı deyillər. Bunun nəticəsidir ki, onlar hər sülh danışığından sonra sülhə zidd bəyanatlar verir, silahlı təxribat törədir, atəşkəsi pozurlar. Nəzərə almırlar ki, bunun nəticəsində Ermənistan tərəfindən ciddi itkilər olur".

A.Nağıyev həmçinin bildirib ki, Ermənistan münaqişənin hərbi yolla həll olunduğunu unutmamalıdır: "Biz 44 günlük Vətən müharibəsində bunu onlara sübut etdik. Şanlı qələbəmiz ermənilərin özləri barədə miflərini darmadağın etdi. Son vaxtlar Qərbə meyillənmiş, Fransaya arxalanmış ermənilər jandarm qüvvələrini, vizual kəşfiyyatçıları gətirib, guya, müşahidə missiyası adı ilə sərhəddə yığıblar. Amma açıq-aydın ortadadır ki, burada əsas hədəf vəziyyəti gərginləşdirməkdir. Hər kəsə məlumdur ki, hərbi təxribatlar hərbi qarşıdurmalara gətirib çıxara bilər. Bu isə təkcə region ölkələrinə deyil, dünyaya təsirsiz ötüşməz. Ona görə də bu məsələyə beynəlxalq səviyyədə qiymət verilməlidir, ilk növbədə isə Rusiya Ermənistana təzyiq və təsirini artırmalıdır".

### Hərbçilərimizin təxribatlara cavabı beynəlxalq hüquqa və təcavüzkarlıqla mübarizə prinsiplərinə uyğundur

Milli Məclisin deputatı Bəhruz Məhərrəmov qeyd edib ki, ekofəalların dinc aksiyaları fonunda Laçın-Xankəndi yolu ilə hərbi xarakterli yüklər, o cümlədən minalar daşımaq imkanından məhrum olan Ermənistan məhz Xankəndi-Xəlfəli-Turşsu yolundan istifadə edərək belə daşımaları həyata keçirməyə başlamaqla Azərbaycana qarşı təcavüzü və terror siyasətini davam etdirir: "10 noyabr kapitulyasiya aktına əsasən, Qarabağ iqtisadi rayonu ilə Ermənistan arasında yeganə kommunikasiya xətti kimi Laçın-Xankəndi yolunun müəyyən edilməsinə baxmayaraq, ermənilər Xankəndi-Xəlfəli-Turşsu torpaq yolundan istifadə etməklə Ermənistandan Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərinə gizlicə hərbi ləvazimatlar, silah-sursat, yanacaq və şəxsi heyət daşıyırlar. Bu, təbii ki, Azərbaycanın müdafiə və təhlükəsizliyi üçün təhdiddir və belə halların qarşısını almaq Azərbaycan Silahlı Qüvvələrinin konstitusion təyinatıdır. Konstitusiyamızın 9-cu maddəsinə əsasən, Azərbaycan Respublikası Silahlı Qüvvələrini məhz öz təhlükəsizliyini və müdafiəsini təmin etmək məqsədi ilə yaradır".

Deputatın sözlərinə görə, BMT Nizamnaməsinin 51-ci maddəsinə əsasən, Azərbaycan dövlətinin özünümüdafiə hüququ təsbit olunub: "Dövlətimiz beynəlxalq humanitar hüququ rəhbər tutmaqla istənilən təhdidi hərbi yolla aradan qaldıra bilər. Bu mənada martın 5-də səhər saatlarında hərbçilərimizin Qarabağ iqtisadi rayonuna hərbi daşımaların həyata keçirilməsinin qarşısını alması və təxribata cavab olaraq düşməni məhv etməsi beynəlxalq hüququn prinsipləri və təcavüzkarlıqla mübarizə təcrübəsinə tam uyğundur. Buna görə də şəhidlərimiz Əlibəyli Şəhriyar Ramiz oğlu və Hüseynov Eşqin Cəmil oğluna Allahdan rəhmət diləyir, yaxınlarına dərin hüznlə başsağlığı veririk. Hər kəs əmin olsun ki, Azərbaycan bundan sonra da milli maraqlarımıza təhdid sayıla biləcək bütün məsələlər, o cümlədən təxribat, terror və separatizmlə mübarizəsini əzmlə davam etdirəcək, həmçinin ən qısa zamanda Azərbaycan tərəfindən Laçın-Xankəndi yolunun üzərində müvafiq nəzarət-keçid məntəqəsi yaradılacaq".

*Nəzrin QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Erməni xisləti dəyişmir

## Son qanlı hadisə Ermənistanın sülhə əngəl törətdiyini bir daha təsdiqləyir

**Vətən müharibəsində torpaqlarının 30 illik işğalına güc yolu ilə son qoyan Azərbaycan münaqişə bitdikdən dərhal sonra sülh razılaşması üçün ərazi bütövlüyünün və suverenliyin tanınmasına əsaslanan beş əsas prinsipini təqdim edib.**

İki ölkə arasında münasibətlərin normallaşdırılması üçün Ermənistana təkmil sülh modeli təklif edən rəsmi Bakı özü 10 noyabr üçtərəfli Bəyanatı ilə üzərinə götürdüyü bütün öhdəliklərini layiqincə və zamanından öncə yerinə yetirib.

### Rəsmi İrəvan ölkəmizə qarşı məkrli siyasətindən əl çəkmək istəmir

Lakin 44 günlük müharibənin üzərindən keçən iki il yarımlıq vaxt ərzində Ermənistanın eyni konstruktivlik nümayiş etdirmədiyini, əksinə müharibədəki biabırçı məğlubiyyətindən dərs çıxarmayaraq əlinə keçən hər fürsətdə bölgədə sülhə xələl gətirən davranışlar sərgilədiyinin şahidi olduq. Eyni zamanda Ermənistan ötən müddət ərzində davamlı təcavüz aktları və təxribatlar törədərək ölkəmizə qarşı işğal siyasətindən əl çəkmək niyyətində olmadığını açıq şəkildə göstərdi.

Elə martın 5-də Rusiya Federasiyası sülhməramlı kontingentinin müvəqqəti olaraq yerləşdiyi Azərbaycan ərazilərində Ermənistanın törətdiyi növbəti təxribatlar da bunun əyani göstəricisidir.

Azərbaycan Müdafiə Nazirliyinin məlumatına əsasən, Ermənistan tərəfi 10 noyabr üçtərəfli Bəyanatın müddəalarına zidd olaraq Xankəndi-Xəlfəli-Turşsu torpaq yolundan istifadə edilməklə Rusiya Federasiyası sülhməramlı kontingentinin müvəqqəti olaraq yerləşdiyi Azərbaycan ərazilərinə silah və sursatların, şəxsi heyətin, o cümlədən minaların daşınmasını həyata keçirməkdə davam edib.

Laçın yoluna alternativ olan köməkçi yollardan silah və sursatın, şəxsi heyət və minaların daşınması ilə bağlı daxil olmuş məlumatı yoxlamaq və dəqiqləşdirmək məqsədilə martın 5-də Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin əməliyyat bölməsi əraziyə göndərilib, Ermənistandan Xankəndiyə silah, sursat, şəxsi heyət və minaları daşıyan avtomobillərin yoxlanmasına cəhd edilib. Bu zaman qarşı tərəfdən açılan atəş nəticəsində Azərbaycan Respublikasının Silahlı Qüvvələrindən ölən və yaralananlar olub. Qarşı tərəf Silahlı Qüvvələrimiz tərəfindən açılan cavab atəşi ilə susdurulub.

### Üçtərəfli Bəyanata zidd davranışlar

Ermənistanın sülhə zərbə vuran xain əməlləri sözügedən faktla da yekunlaşmır və davam edir. Müdafiə Nazirliyinin məlumatına əsasən, martın 4-də Azərbaycan Ordusunun hərbi qulluqçusu xidməti vəzifələrini yerinə yetirərkən ermənilər tərəfindən basdırılmış minaya düşərək həlak olub. Nazirliyin digər bir məlumatında bildirilir ki, martın 5-i saat 15:00-dan martın 6-sı saat 03:10-dək Azərbaycan Ordusunun mövqeləri 19 dəfə atəşə tutulub.

Törədilən bütün bu təxribatlar isə bir daha Ermənistanın bölgədə sülhə başlıca təhdid olduğunun əyani göstəricisidir.

Ötən dövrdə sülhün əldə olunması istiqamətində Brüsseldə və Soçidə keçirilən görüşlərdə rəsmi İrəvan üzdə barışığa razı olduğunu bildirsə də, hər dəfəsində riyakarlıq göstərərək sülh sazişinin bağlanmasına əngəl olub. Üçtərəfli Bəyanata zidd olaraq Ermənistan silahlı qüvvələrinin tör-töküntülərini hələ də Azərbaycan ərazilərindən çıxarmayıb, kommunikasiyaların açılmasını, sərhədlərin delimitasiyasını təmin etməyib. Təcavüzkar ölkə Birinci Qarabağ müharibəsində əsir düşmüş minlərlə azərbaycanlının taleyi və kütləvi məzarlıqlar haqda məlumat verməkdən hələ də yayınır. Eləcə də Laçın yolundan təyinatına uyğun, yəni humanitar məqsədlərlə istifadə etməyən Ermənistan həm hərbi təxribatlar, həm də qeyri-qanuni iqtisadi fəaliyyət üçün bu yoldan istifadə edib.

Ötən il dekabrın 12-dən Laçın-Xankəndi yolunda ekofəallarımızın və QHT nümayəndələrimizin Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində separatçı rejimin təbii sərvətlərimizi talamasına, ekologiyamıza qarşı terror törətməsinə qarşı qalxdıqları etiraz aksiyasındakı tələbləri arasında Ermənistan tərəfinin Laçın yolundan hərbi texnikanın, minaların, silah-sursatın və talan olunan təbii sərvətlərin daşınması məqsədilə istifadə edilməsinə son qoyulması da var.

Ermənistanın törətdiyi bu hərbi cinayət əməlləri Azərbaycan-Ermənistan arasında sərhəd nəzarət-buraxılış rejiminin tətbiq edilməsinin vacibliyini bir daha sübut edir.

### Azərbaycanın sülh üçün Ermənistana tanıdığı zamanın limiti artıq tükənmək üzrədir

Görünən odur ki, müstəmləkəçi Fransa kimi havadarlarına olan güvəni, eləcə də Azərbaycanın icazəsi olmadan Avropa İttifaqının məramı sülh olmayan missiyasının sərhədimizə gəlişi Ermənistanı ölkəmizə qarşı təxribata, revanşa cürətləndirir. Buna görə hətta yaxın zamanlara qədər İrəvan rəsmi səviyyədə riyakarcasına sülhə razı olduğunu bildirsə də, törətdiyi təxribatlarla bunun əksini, barışığı istəmədiyini göstərmiş olur.

Bir sözlə, zaman dəyişsə də, erməni xisləti dəyişmir, "məzlum" obrazında cilddən-cildə girərək xalqımıza qarşı qanlı əməllər törətməkdə davam edir.

O da var ki, 30 illik işğala cəmi 44 günə son qoyan Azərbaycan sonrakı dövrdə də Ermənistanın ölkəmizə qarşı törətdiyi bütün təxribatların cavabını layiqincə verib və təcavüzkarları yerlərinə otuzdurub.

Ermənistan özü də yaxşı bilir ki, artıq Azərbaycanın sülh üçün Ermənistana tanıdığı zamanın limiti tükənmək üzrədir. Buna görə də rəsmi İrəvan 10 noyabr üçtərəfli Bəyanatı ilə üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyə məcburdur, əks təqdirdə Azərbaycan güc yolu ilə təcavüzkarı buna məcbur edəcək.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Azərbaycan rəsmi Tehrandan törətdiyi terrora görə cavab gözləyir

# Düşmənimizin dostu

## Bir səfərin xoş olmayan təəssüratları

**Ötən əsrin 90- cı illərinin əvvəllərində İran dövləti dini lideri Xomeyninin vəfat etdiyi günü geniş şəkildə qeyd etmək üçün müxtəlif ölkələrdən Tehrana təyyarə və avtobuslarla minlərlə adam gətirir, bunun üçün külli miqdarda vəsait sərf edirdi. Xalqı isə aldadıb deyirdi ki, Xomeyni dünyada çox böyük nüfuz sahibi olub, görün onun xatirəsini yad etmək üçün hər il Tehrana nə qədər insan gəlir. 1992-ci və 1995-ci illərdə mən də həmin tədbirin iştirakçısı olmuşam.**




Bu il yanvar ayının 27- də Azərbaycanın İrandakı səfirliyində törədilən terror aktı mənə 1995-ci ildəki səfərimizi xatırlatdı. Respublika Əlyazmalar İnstitutunda şöbə müdiri işləyən Möhsün Nağıyevlə Tehran səfirliyinə gedərkən səfirliyin qarşısında mühafizəçi görməmişdik. Bu barədə səfirlik işçilərindən soruşanda dedilər ki, mühafizəçilər kefləri istəyəndə qeybə çəkilirlər.

Həmin illərdə Azərbaycan səfirliyinin İranda normal işləyib fəaliyyət göstərməsi üçün şərait yaradılmamışdı. Halbuki Tehranda erməni səfirliyi hündür hasarla dövrələnmiş çoxmərtəbəli ayrıca binada fəaliyyət göstərirdi. Bizim səfirliyin normal işləməsi üçün İran hökumətinə və Prezidentinə müraciət olunsa da, uzun illər nəticəsiz qalmışdı. Burada bir faktı xatırlatmaq yerinə düşər ki, Naxçıvanda 1992-ci ildə İran konsulluğu açılanda Azərbaycan konsulluğunun da Təbriz şəhərində açılması nəzərdə tutulmuşdu. Təəssüf ki, İran məsələni 12 il uzatmış, 2004-cü ildə Təbrizdə Azərbaycan konsulluğu fəaliyyətə başlamışdı.

Biz həm Astaradan gedərkən, həm də Tehrandan qayıdarkən yalnız gecələr yol getdik. İranın niyyəti bir tərəfdən ətraf kəndləri, acınacaqlı mənzərələri bizə göstərməmək idisə, digər məqsədi tədbirə gələn qonaqları İran avtobuslarının gətirdiyi yerli əhalidən gizlətmək idi. Tehrandakı "İnqilab" hotelində yerləşdikdən sonra isə məlum oldu ki, heç kəs mehmanxananın həyətindən küçəyə çıxa bilməz. Səbəbini soruşduqda müxtəlif bəhanələr gətirdilər. Bizi gündə iki dəfə şəhərin görməli yerlərinə avtobusla aparıb qəhvəxanada, istirahət parkında mer-meyvə, çay süfrələri açsalar da, soyuq münasibəti hiss edirdik.

İlk xoşagəlməz faktla İran Astarasında qarşılaşdıq. Orada 18-20 yaşlı bir gənc Azərbaycandan gəldiyimizi bildikdə çığır-bağır salmağa başlayıb dedi:

- Qayıdın geriyə. Sizi görmək istəmirik.

- Niyə?

- İran Azərbaycanın neft konsorsiumunda iştirak etmir.

Oğlana dedik ki, Azərbaycan İranın həmin konsorsiumda iştirak etməsi üçün əlindən gələn köməyi əsirgəməyib. Öz payının 5 faizini sizin ölkəyə vermişdi. Lakin konsorsiumun digər üzvləri İranın iştirakına razı olmadılar. O isə sözümüzə məhəl qoymayıb hey qışqırırdı. Axırda iş o yerə çatdı ki, polis onu maşına qoyub apardı. Halbuki həmin müqavilə 8 ay əvvəl - 1994-cü ilin sentyabr ayında bağlanmışdı. Bu isə o demək idi ki, İran hələ də bu məsələylə bağlı anti-Azərbaycan təbliğatını davam etdirirdi.

O vaxt Azərbaycanın İrandakı səfiri Əliyar Səfərli ilə də bu barədə söhbətimiz oldu. Səfir dedi ki, İranın neft konsorsiumunda iştirak etməməsini burda çox pis qarşıladılar. Sanki hamı yasa batmışdı. İran qəzetlərində əleyhimizə xeyli yazılar verildi. Rəsmi qəzetlərdən sayılan "Ettelaat"da dərc olunmuş bir yazıya cavab göndərdik. Səs çıxmadığını görüb redaksiyaya zəng çaldıq. Dedilər ki, it-bata düşüb. Surətini göndərdik, yenə çap etmədilər.

Biz səfirlikdə olarkən İranda çıxan gündəlik fars və ingilis dilində qəzetlərə də nəzər yetirdik. Azərbaycan haqqında heç bir məlumata rast gəlmədik. İranın Ermənistana göstərdiyi təmənnasız yardımlar, xüsusilə pulsuz yanacaq verməsi barədə qəzetlərin hamısı müxtəlif yazılar çap etmişdi. Səfirliyin əməkdaşları dedilər ki, İran qəzetləri Ermənistanla bağlı hər gün belə yazılar verir.

İranda ilk getdiyimiz yerlərdən biri "Azərbaycan Mədəniyyət Mərkəzi" adlanırdı. İçəridə 4 adamın güclə yerləşdiyi kiçik səhnə vardı. Burada bizə çay süfrəsi açdılar və gətirib hərənin qabağına bir sulu qəlyan qoydular. Təbii ki, hamımız sulu qəlyandan imtina etdik. Müğənni fars dilində bir neçə mahnı oxudu. Mehmanxanaya qayıdanda gördüm ki, Bakıdan gedən 2 nəfər oranı tərifləyir. Onlara izah edəndə ki o yerin üstünə Azərbaycan Mədəniyyət Mərkəzi yazılıb, qanları qaraldı. Dedilər ki, qardaş, biz bilməmişik, belə də mədəniyyət mərkəzi olar? Çox sağol ki, bizi başa saldınız.

Bizi Qum şəhərinə də apardılar. Orda bir neçə məsciddə olduq. Onların birində dini təhsil alan 13-14 yaşlı naxçıvanlı uşaqlarla rastlaşdıq. Bizi görüb çox sevindilər. Təhsilləri ilə maraqlandıq. Hərəsi bir söz dedi. Uşaqların dərs keçdikləri yerə isə bizi heç yaxınlaşmağa belə qoymadılar.

İyunun 3-də İmam Xomeyni türbəsində ölkənin dini rəhbəri, Prezidenti və digər yüksək rütbəli məmurlar yığışırlar. Bu dəfə də içəri xarici ölkələrdən gələn qonaqlarla dolu idi. Hava həddindən artıq isti olduğundan çölə çıxanda gördüm ki, 14-15 yaşında xeyli azərbaycanlı uşaq əllərində zəncir içəri girmək üçün növbə gözləyirlər. Çıxışlar qurtarandan sonra onlar özlərinə zəncir vuracaqdılar. Çöldə Qum şəhərindən gəlmiş bir neçə azərbaycanlı ilə də tanış oldum. Onlardan biri mənə dedi:

- Siz Xomeynini çox istəyirsiz? Qum radiosunda deyirlər ki, xarici ölkələrdə Xomeyninin çox böyük hörməti var. Ona görə də hər il o ölən gün minlərlə adam öz xərcləri ilə Tehrana gəlib onu yad edir. Siz də öz pulunuzla gəlmisiz?

- Bəs siz necə?, - suala sualla cavab verdim.

- Bizi gətiriblər.

- İçəridəki çıxışlara niyə qulaq asmırsız?

- Eyni sözləri eşitməkdən qulağımız dolub. Bir də ki, nəyinə qulaq asaq. Dolanışığımız, gün-güzəranımız ildən-ilə pisləşir.

"İnqilab" hotelində ilk gün Tehran universitetinin tələbəsi ilə söhbət də heç yadımdan çıxmaz. O özünü təqdim edib dedi ki, sizi müşayiət etmək mənə tapşırılıb. Əvvəlcə söhbətimiz heç cür alınmadı. Oğlanın söhbət zamanı fars sözlərini çox işlətdiyini görüb, mən də yarı Azərbaycan, yarı rus dilində cavab verdim.

- Mən sizin danışıqlarınızı başa düşmürəm.

- Elə mən də.

Bu söz onu tutdu. Bundan sonra o bir kəlmə də olsun fars sözü işlətmədi. Əsl söhbət bundan sonra başladı. Ona xalqımızın başına gətirilən müsibətlər barədə ətraflı məlumat verib dedim:

- İranda Azərbaycan dilində qəzet, jurnal çıxır?

- Xeyr.

- Televiziya və radioda Azərbaycan dilində verilişlər necə?

- Yox! Azərbaycan dilində məktəblər də yoxdur.

- Bəs erməni dilində necə?

- Var. Onların məktəbləri də var, qəzetləri də çıxır. İran hökuməti onlara hər cür şərait yaradıb.

Sonraki günlər o bizi müşayiət etməli olduğu halda gözə görünmədi. Görünür mənim dediklərim ona bərk təsir eləmişdi. Bakıya yola düşəndə gözləmədiyim halda gəlib məni qucaqlayıb yaxşı yol arzuladı. İran Astarasına sübh tezdən çatdıq. Bizi avtobusdan düşürdülər. Nümayəndə heyətimiz İran avtobuslarının Bakıyadək sürmələrini xahiş edəndə bizi Tehranda qarşılayıb Astarayadək müşayiət edənlərdən biri öz həmkarına farsca dedi:

- Bizə bunların mərasimdə iştirakı lazım idi. Onu da elədik... Avtobuslarımız sərhədi keçməyəcək.

Belə də oldu. Vəziyyətdən xəbər tutan bizim Astara Rayon İcra Hakimiyyəti kifayət qədər avtobus təşkil edib gömrükxana işçilərimizin köməyilə hamımızı qısa müddətdə Bakıya yola saldı.

O vaxtdan 28 il keçir. Təəssüf ki, İran bu illər ərzində Azərbaycanla münasibətləri yaxşılaşdırmaq üçün heç bir addım atmayıb. Əksinə, ölkəmizin sürətli inkişafını İran rəhbərliyi heç cür həzm edə bilmir. 44 günlük müharibə dövründə İran rejimi əsl simasını göstərərək Ermənistana açıq-aydın hərbi yardım etdi. Molla rejimi bu gün də Ermənistana hərtərəfli yardım göstərir. Başqa sözlə, Ermənistan arzuladığı və aradığı malları İrandan alır, İran da dünya bazarında satılmayan mallarını Yerevana satır.

Azərbaycanın İrandakı səfirliyində törədilən terror aktına gəldikdə bu terror aktı İran hakimiyyətinin xüsusi xidmət orqanları tərəfindən əvvəlcədən planlaşdırılıb. Düşmənimizlə dostluq edən İran rejimi hələ də bu hadisəyə başqa don geyindirməyə çalışır. Ancaq faktlar hər şeyin dövlət tərəfindən təşkil olunduğunu göstərir! Ermənistanın dostundan bundan artıq nə gözləmək olar!

*Rüstəm RÜSTƏMOV,*
*Əməkdar jurnalist*



# Özbəkistanın nümayəndə heyəti "AzerGold" QSC-nin qonağı olub

**"AzerGold" Qapalı Səhmdar Cəmiyyətində (QSC) Özbəkistan Prezidenti yanında Strateji İslahatlar Agentliyinin Strateji müəssisələrin transformasiyasının əlaqələndirilməsi departamentinin rəhbəri Mansurxoca Yusupxocayevin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.**




Görüşdə iştirak edən "AzerGold" QSC-nin İdarə Heyəti sədrinin müavini Xəyyam Fərzəliyev qonaqları salamlayaraq, ötən ay Özbəkistan Respublikasının paytaxtı Daşkənd şəhərində keçirilən Birinci Özbəkistan-Azərbaycan Regionlararası Forumunu məmnunluqla xatırlayıb. Forum çərçivəsində "AzerGold" QSC ilə Özbəkistanın Dağ-mədən İşi və Geologiya Nazirliyi arasında imzalanan Anlaşma və Razılaşma Memorandumunun iki dost-qardaş ölkənin dağ-mədən sənayesi sahəsində geniş əməkdaşlıq perspektivləri açdığı diqqətə çatdırılıb. X.Fərzəliyev cəmiyyətin fəaliyyət sahələri üzrə əldə etdiyi nailiyyətlər barədə qonaqlara ətraflı məlumat verib.

Səmimi qəbula görə təşəkkür edən Mansurxoca Yusupxocayev mütəmadi olaraq keçirilən bu cür görüşlərin əlaqələrin möhkəmlənməsinə xidmət etdiyini bildirib. Qonaq hər iki ölkə arasında dərinləşən iqtisadi əlaqələrdən bəhs edib, ölkəsinin Azərbaycanda aparılan iqtisadi islahatlar təcrübəsinin öyrənilməsində maraqlı olduğunu qeyd edib.

Özbəkistan Respublikasının İqtisadiyyat və Maliyyə Nazirliyi yanında Dövlət Vergi Komitəsinin İri Vergi Ödəyiciləri ilə İş üzrə Regionlararası Müfəttişliyinin rəisi Feruz Əhmədov Özbəkistanda icra edilən vergi islahatları və onun biznesin, xüsusilə sənayenin inkişafına təsiri barədə danışıb.

Daha sonra iki ölkə arasında dağ-mədən sektoruna investisiyaların cəlb olunması üçün vergi qanunvericiliyi sahəsində məlumat mübadiləsi aparılıb, qonaqları maraqlandıran suallar cavablandırılıb. Görüşdə həmçinin digər qarşılıqlı maraq doğuran məsələlər müzakirə edilib.

# Xəzər qurumaqda davam edir

## Qlobal iqlim dəyişikliyi dənizin səviyyəsinə təsirsiz ötüşmür

**Qlobal problemlərdən biri olan su çatışmazlığı, dənizlərin, çayların suyunun enməsi, içməli su ehtiyatının ildən-ilə azalması əksər ölkələrdə olduğu kimi, Azərbaycanda da müşahidə olunur. Su ehtiyatlarının 70 faizi kənarda formalaşan, ölkəmizdə ən böyük və əsas su mənbəyi Kürün ildən-ilə quruması problemlər yaradır. Təbii ki, problem yalnız içməli suya olan tələbatın ödənilməməsi ilə deyil, həmçinin kənd təsərrüfatı ilə bağlıdır. Yaz aylarında əkinə başlayan əhali öz sahələrini suvarmağa su tapmır.**

Nəticədə çəkdikləri əziyyət boşa gedir. Nəzərə alsaq ki, bölgələrdə əhalinin əsas gəlir mənbəyi kənd təsərrüfatı və maldarlıqdır, beləliklə, suyun olmamasının bu sahələrə zərərsiz ötüşmədiyini aydın təsəvvür etmək mümkündür.

İqlim dəyişikliyi Xəzər dənizinin səviyyəsinə də təsirsiz ötüşmür.

### Dünya ölkələri bu problemlə üz-üzədir

Təbii ki, çaylarda, dənizlərdə suyun səviyyəsinin aşağı düşməsi tək ölkəmizin problemi deyil. Dünya da hazırda bu sıxıntı ilə üz-üzədir. Quraqlıq, yağıntıların az düşməsi ildən-ilə su çatışmazlığını artırır.

Məsələn, ABŞ-nin Milli Qar və Buzlaqlar Data Mərkəzinin son məlumatlarına əsasən, fevral ayında Antarktidada buz təbəqəsinin səviyyəsi son 45 illik tarixində minimuma enib. Mərkəzdən bildirilib ki, bununla 2022-ci ilin fevralındakı antirekord yenilənib. Fevralın 21-də buz təbəqəsinin sahəsi 1,79 milyon kvadrat kilometr olub.

Məlumata görə, buzların əriməsinin təsiri dərhal hiss edilməyəcək. "Buz təbəqəsinin əriməsi hər yay baş verir, qışda isə bərpa olunur. Lakin son 2 ildə qışda bu bərpa prosesi müşahidə olunmur", - deyə mərkəzin məlumatında qeyd olunub.

Yağıntıların az olması, buzlaqların əmələ gələ bilməməsi, çaylarda suyun səviyyəsinin azalması nəticəsində içməli suya tələbat tam ödənmir. Məlumatlara görə, dünyada təxminən 2,1 milyard insanın təmiz və təhlükəsiz içməli suya çıxışı yoxdur. Onların da 40 faizi - 418 milyondan çoxu Cənub-Şərqi Afrikada yaşayır.

ÜST və UNİCEF-in hesabatlarına görə, 2000-2020-ci illər arasında Afrika əhalisinin sayının artması nəticəsində onların suya əlçatanlıq səviyyəsi aşağı düşüb. Belə ki, hər üç afrikalıdan birinin su qıtlığından əziyyət çəkdiyi bildirilir. Mütəxəssislər afrikalıların bu probleminin əsas səbəblərini su strukturlarının düzgün idarə edilməməsində, əhalinin sürətli artımında və iqlim dəyişikliyində görürlər.

Bundan əlavə, bəzi qıt su mənbələri də təhlükəli hesab olunur, çünki çirkli su hər il 3,4 milyondan çox insanın ölümünə səbəb olur.

### 2050-ci ilə qədər Xəzər dənizinin səviyyəsi 3 metrə qədər enə bilər

Azərbaycanda da son illər həm çaylarda, həm Xəzər dənizində suyun səviyyəsinin azalması müşahidə edilir. Xəzərin geri çəkilməsinin dövri olduğu və təxminən 2050-ci ildən sonra yenidən geri qayıdacağı, yəni suyun səviyyəsində artım müşahidə olunacağı proqnozlaşdırılır. Ümumiyyətlə, Xəzər qapalı su hövzəsi olduğundan və dünya okeanı ilə əlaqəsi olmadığına görə onun səviyyəsi dənizə daxil olan və gedən sularla əlaqədar dəyişilə bilir. Dənizin səviyyəsinin azalması onun flora və faunasına da mənfi təsir edir. Belə ki, müəyyən balıqların sayı azalır, onlar kürü qoya bilmir və kürüləmək üçün başqa yer axtarırlar. Bu isə ümumilikdə balıq sənayesinə təsirsiz ötüşmür. Xəzərin səviyyəsindəki enmələr Dənizkənarı Milli Parkda da açıq-aydın müşahidə edilir. Araşdırmalara görə, Volqa çayının axıdılması müvafiq olaraq qlobal və regional miqyasda Xəzər dənizinin səviyyəsinin dəyişməsinə əhəmiyyətli təsir göstərir.

Elm və Təhsil Nazirliyinin Həsən Əliyev adına Coğrafiya İnstitutunun Xəzər dənizinin sahillərinin və dibinin geomorfologiyası şöbəsinin müdiri, coğrafiya elmləri doktoru Əmir Əliyev bildirib ki, Xəzər dənizində suyun səviyyəsində 2022-ci ildə 20-25 santimetr enmə müşahidə olunub. Onun sözlərinə görə, ölçülər müxtəlif yerlərdə bir-birindən fərqlənir. 2021-ci ildə bu göstəricinin 19 sm olduğunu deyən alim qeyd edib ki, enmə sürəti artıb. Bu templə gedərsə, 2023-cü ildə enmə daha çox olacaq. Beləliklə, səviyyənin 2050-ci ilə qədər təxminən 2-3 metr aşağı düşəcəyi proqnozlaşdırılır.

Xəzərin üç hissədən ibarət olduğunu deyən şöbə müdiri bildirib ki, Şimali Xəzər dayazdır, təxminən 4-5 metr dərinlikdədir: "Orta Xəzərlə Cənubi Xəzərdə ən dərin yerlər dolandan sonra su şərqə doğru hərəkət edir. Şərqdə də istilik çox olduğuna görə su tez buxarlanır. Ona görə dənizə nə qədər su gələrsə, bir o qədər şərqə gedir və buxarlanma çoxalır. Bu səbəbdən Xəzərin səviyyəsi həddən artıq yuxarı qalxa, ya da çox aşağı düşə bilməz. Bu, buxarlanmanın səviyyəsindən asılıdır. Son 200 ildə Xəzərin amplitudu 3.5 metrə qədər olub, yəni bundan yuxarı qalxa və enə bilməz".

Ə.Əliyev deyir ki, Xəzərin səviyyəsinə təsir edən əsas amil iqlim faktorlarıdır. O bildirib ki, son illərdə iqlimdəki proseslər, istiləşmə, yağıntıların azalması səbəbindən dənizə çaylardan az su gəlməsi səviyyəyə təsir edir.

Alim deyir ki, 2050-ci ildən sonra Xəzərdə suyun səviyyəsində ilbəil artım müşahidə olunacaq. Dənizdə suyun səviyyəsi periodik olaraq 250 il enir, növbəti 250 illik dövrdə isə qalxır.

Xəzərin səviyyəsinin 1978-ci ildən 1995-ci ilə qədər 2.5 metr qalxdığını deyən Əmir Əliyev bildirir ki, bu dövrdə Azərbaycan ərazisinin 50 min hektarı su altında qalıb. "1995-ci ildən bu günə qədər Xəzərin səviyyəsi təxminən 190 sm azalıb və təxminən 38 min hektar sahə su altından çıxıb. Artıq əvvəlki vəziyyətinə gəlir. 1977-ci ildə Xəzərdə suyun səviyyəsi ən aşağı həddə olub, bu gün isə ondan da 70-80 sm aşağıdır. Ümumilikdə, 2050-ci ilə qədər Xəzərin səviyyəsi 3 metrə qədər enə bilər".

### Volqa çayındakı proseslərdən asılı olaraq Xəzərdə səviyyə tərəddüdləri baş verir

Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında İctimai Şuranın sədri Amin Məmmədov qəzetimizə açıqlamasında bildirib ki, Xəzərsahili zonalarda suyun səviyyəsinin bir növ sahildən uzaqlaşması Xəzər hövzəsinin daxili tərəddüdləridir. Onun sözlərinə görə, bu hallar yalnız Azərbaycan sahillərində deyil, İran, Qazaxıstan və digər ölkələrin dəniz sahillərində də müşahidə oluna bilər. Bu, hövzənin ümumi dinamikası ilə əlaqədar proseslərdir.

Amin Məmmədov bildirir ki, 2000-ci illərin əvvəllərindən Xəzər dənizində suyun səviyyəsinin enməsi qeydə alınıb: "1990-cı illərin ortalarında suyun səviyyəsində bir az qalxma var idisə, sonradan səviyyə enməyə doğru gedib. Qərb alimləri bəzən reallıqdan uzaq olsa da, Xəzərin səviyyəsinin 2050-2100-cü illərə 10-15 metrə qədər düşməsi ilə bağlı proqnozlar verirlər. Onlar bunu Xəzər dənizinin əsas qida mənbəyi olan Volqa çayı ilə bağlayırlar. Bunu iqlim dəyişiklikləri, Rusiyanın gələcəkdə sugötürmə həcmini çoxaltması ehtimalları ilə əlaqələndirirlər".

A.Məmmədov qeyd edir ki, iqlim faktorları nəzərə alınaraq, suyun səviyyəsinin enmə ehtimalı var, amma o dərəcədə deyil. O bildirir ki, Xəzərdə suyun səviyyəsi ən pis halda 1.5-3 metr arası aşağı düşə bilər.

Azərbaycanda Xəzər hövzəsinə tökülən əsas Kür çayıdır. Kür çayında da son zamanlar, xüsusən 2020-ci ildəki proseslər zamanı suyun hətta deltaya çatmaması kimi hallar müşahidə olunmuşdu. İndi Kürdəki su tənzimlənir, həmçinin yuxarı axında - Gürcüstan və Türkiyədə suyun idarə olunması, eyni zamanda ölkələrarası koordinasiya aparılır. Amma Xəzərin qidalanmasının 80 faizini Volqa çayı təmin etdiyinə görə, bu çayda baş verən proseslərdən asılı olaraq dənizdə səviyyə tərəddüdləri olur. Rusiya alimləri də Xəzərin səviyyəsinin düşəcəyini istisna etmirlər. Amma onlar avropalılar kimi, bu səviyyənin böyük inteqralda deyil, 1.5-2 metr aralığında enəcəyini deyirlər.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# REGİONLAR

## Şirvan şəhərində "Heydər Əliyev İli" çərçivəsində tədbir keçirilmişdir





**Şirvan Kommersiya Məhkəməsi şəhər və rayonlarda fəaliyyət göstərən bir qrup sahibkarın iştirakı ilə "Heydər Əliyev İli" çərçivəsində hüquqi mövzuda "dəyirmi masa" keçirmişdir.**

Şirvan Apellyasiya və Kommersiya məhkəmələri hakimlərinin, məhkəmə işçilərinin, Şirvan Regional Ədliyyə İdarəsinin və habelə Mediasiya Şurası nümayəndələrinin də qatıldığı tədbir iştirakçıları əvvəl Ümummilli Lider Heydər Əliyevin Şirvan şəhərindəki abidəsini ziyarət etmişlər.

Tədbirdə Şirvan Apellyasiya Məhkəməsinin sədr müavini Zaur Allahyarov Ulu Öndər Heydər Əliyevin ömür yolundan danışmış, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələr üzrə əldə edilmiş nailiyyətlərdən söz açmışdır. Şirvan Kommersiya Məhkəməsinin sədri Namidar Misirzadə isə Azərbaycanda azad sahibkarlıq mühitinin formalaşmasında Ümummilli Liderin təməlini qoyduğu baza prinsiplərindən, son dövrlər bu sahədə Prezident İlham Əliyevin vətəndaşların hüquqi cəhətdən müdafiəsinin səmərəliliyinin artırılmasına verdiyi dəstəkdən bəhs etmişdir.

"Dəyirmi masa"da həmçinin iqtisadi inkişaf və sahibkarlıq sahəsində normativ əsasların müəyyənləşdirilməsindən, sahibkarlıq subyektlərinin hüquqi mənafelərinin qorunmasının səmərəliliyindən söhbət açılmış, Prezident İlham Əliyevin 3 aprel 2019-ci il tarixdə imzaladığı "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" fərmanın mühüm "yol xəritəsi" olduğu tədbir iştirakçılarının nəzərinə çatdırılmışdır.

Tədbirin sonunda sahibkarların sualları cavablandırılmış, problemləri dinlənilmiş və fikir mübadiləsi edilmişdir.

*Seyran CAVADOV, "Azərbaycan"*

## "Azərbaycan Bayrağı" ordenli şəhidin 30 yaşı məzarı başında qeyd olunmuşdur

**Ermənistan silahlı qüvvələrinin törətdiyi təxribatların qarşısının alınmasında Qazaxın igid oğulları da qəhrəmancasına döyüşərək adlarını Azərbaycanın hərb tarixinə qızıl hərflərlə yazmışlar. Onların arasında Kəmərli kəndindən olan baş gizir Azər Məmmədov da var.**

44 günlük Vətən müharibəsində Azər torpaqlarımızın bütövlüyü uğrunda qəhrəmancasına vuruşmuş, sinəsini düşmən gülləsinə sipər edərək şəhidlik zirvəsinə ucalmışdır. Qanı ilə tarix yazan igid vətən oğlu bununla xalqın məhəbbətini qazanmışdır. Vaxtilə təkcə valideynlərinin övladı olan Azər Məmmədov bu gün hər bir Azərbaycan vətəndaşının doğması, əzizidir.

Vətən müharibəsində göstərdiyi qəhrəmanlığa görə o, "Zəngilanın azad olumasına görə" və "Vətən müharibəsi iştirakçısı" medallarına, ölümündən sonra isə "Azərbaycan Bayrağı" ordeninə, həmçinin "Vətən uğrunda" medalına layiq görülmüşdür.

Bu günlər igid Azərin 30 yaşı rayon rəhbərliyi və ictimaiyyəti tərəfindən məzarı başında qeyd olunmuşdur. Məzar önünə toplaşanlar Vətən uğrunda canından keçən Azər Məmmədovun ruhuna dualar etmiş, onun kimi cəsur oğullarımızın daim qəlblərdə yaşayacaqlarını söyləmiş, Azərbaycan xalqının qüruru, fəxri olan bütün şəhidlərimizin xatirəsini daim əziz tutacaqlarını qeyd etmişlər. Şəhidin atası Mustafa Məmmədov çıxış edərək ailəsinin, el-obasının adını uca edən oğlu ilə fəxr etdiyini söyləmiş və övladına göstərilən diqqətə görə minnətdarlığını bildirmişdir.



## Goranboylular üçün də yeni il bahardan başlayır




**Bu il deyəsən bahar tez gələcək. Havalara görə deyirik. Həmişə "boz mart", yaxud "martın hamısı, aprelin yarısı qışdandır" kimi illərin sınağından çıxmış xalq deyimləri, belə görünür, bu dəfə özünü doğrultmayacaq. Çünki artıq təkcə təqvimdən yox, həm də təbiətdən baharın ətri gəlir, hətta Novruza xeyli qalsa da.**

Goranboylular da bu bahar ətirli günləri səbirsizliklə gözləyirdilər. Gözləyirdilər ki, qollarını çırmalayıb çölə-bayıra çıxsınlar, qışdan başladıqları işlərini yekunlaşdırsınlar və planlaşdırdıqlarına başlasınlar, təmizlik, abadlıqla məşğul olsunlar, tiksinlər, qursunlar... Yeri gəlmişkən, qeyd edək ki, Goranboy ötən ili yüksək göstəricilərlə yola salmışdır. Rayon üzrə 468,3 milyon manatlıq ümumi məhsul istehsal olunmuşdur ki, onun da 7,3 faizi sənayenin, 27,8 faizi kənd təsətrrüfatının, 43,4 faizi tikintinin, 21,5 faizi xidmət sahələrinin payına düşmüşdür. İl ərzində əhaliyə 35,9 milyon manatlıq ödənişli xidmətlər göstərilmişdir. Göstərilən xidmətlərin 35,3 faizi dövlət, 64,7 faizi qeyri-dövlət təşkilatları tərəfindən həyata keçirilmişdir. İl ərzində 118-i daim olmaqla 314 yeni iş yeri yaradılmışdır. Muzdla çalışan işçilərin sayı isə 12,8 min nəfər olmuşdur.

Goranboyda vətəndaş müraciətlərinə baxılması, xüsusən də şəhid ailələri və qazilərin sosial qayğılarının araşdırılması, bu sahədə operativlik və obyektivliyin təmin edilməsi daim diqqət mərkəzindədir. Həm də bunun nəticəsidir ki, keçən il rayon sakinləri tərəfindən mərkəzi və yerli icra orqanlarına edilən müraciətlərin sayı azalmışdır.

Rayonun təhsil sistemində yenilənmə davam edir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın tapşırığı və Heydər Əliyev Fondunun təşəbbüsü ilə "Yenilən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində Goranboy şəhərində 700 şagirdlik yeni məktəb binası tikilib istifadəyə verilmişdir. Məlum olduğu kimi, Vətən müharibəsində rayonda bir sıra məktəb binalarına ziyan dəymişdir. Qısa müddətdə Qaraçinar və Tap kənd tam orta məktəblərində əsaslı təmir və yenidənqurma işləri aparılmışdır. Ermənilərin zərər vurduğu Qızılhacılı qəsəbə 1 nömrəli və Səfikürd kənd tam orta məktəblərinin isə cari il ərzində əsaslı təmiri nəzərdə tutulmuşdur.

*Sabir ƏLİYEV, "Azərbaycan"*

## İşğaldan azad olunmuş ərazilərdə 18 nəqliyyat layihəsi həyata keçirilir

**Hazırda ümumi uzunluğu 2,2 min km olan 18 nəqliyyat layihəsinin tikintisi yüksək sürətlə davam edir.**

Trend-in məlumatına görə, bu barədə Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəhman Hümmətov jurnalistlərə deyib.

Nazir müavininin sözlərinə görə, əsasən Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun və Horadiz-Ağbənd dəmir yolunun tikintisi aparılır.

Bundan başqa, yaxın gələcəkdə Şuşa şəhərində teleqüllənin tikintisinə başlamaq planlaşdırılır.



"Bu gün Şuşada və ətraf ərazilərində 11 televiziya və 7 radio kanalının yayımı təmin olunub", - o deyib.

R.Hümmətov bu gün Qarabağda 203 stansiyanın mobil əlaqəni təmin etdiyini vurğulayıb.

## Kəndlinin ki təsərrüfatında mal-qarası olmadı...

### Şabranlı fermerlərin bu sarıdan problemi yoxdur

**Şabranda heyvandarlığın inkişafı üçün yaxşı şərait var. Rayonda otlaq sahələri çoxdur, elə maldarlıqda təcrübəsi olan insanlar da az deyil. Yəqin həm də bu səbəbdəndir ki, Şabranda heyvandarlıq sosial həyatın təminatında, ailə büdcəsinin formalaşmasında öncül rol oynayır.**

Əhalinin ət, süd və yumurtaya olan tələbatının ödənilməsi, eləcə də həmin məhsulları satmaq üçün kənar rayonlara və paytaxta aparılması yerli heyvandarların əlindən xeyli tutur.

Məlumat üçün bildirək ki, rayonda 25 min baş qaramal var. Onların təxminən 2420 başı camışdır. Camışlar cəmi 5 kənddəki ailə-fermer təsərrüfatlarında bəslənir. Bu gün Quba və Siyəzəndən gələn sahibkarlar həmin təsərrüfatlardan camışı necə saxlamağın sirlərini öyrənirlər. Ümumiyyətlə, belə gedərsə, yaxın gələcəkdə camışçılığın bölgədə yayılacağı ehtimal edilir.

Şabranda fərdi təsərrüfatlarla yanaşı, heyvandarlıq kompleksləri də fəaliyyət göstərir. Onlardan biri Aygünlü kəndində yerləşən "KFT MK" kompleksidir. Məmmədtağı Kazımovun rəhbərlik etdiyi kompleksdə "Simmental" cinsli 114 baş qaramal saxlanılır.

- Əvvəlki illərdə bir qədər çətinliyimiz vardı. - Məmmədtağı Kazımov bildirir. - Şükür, bütün problemlərə qalib gələ bildik. Hazırda burada iki iri kompleks yarada bilmişik. Onların hərəsində 60 başdan artıq cins mal saxlanılır.

Öyrənirik ki, buzovlar ayrı tövlədə saxlanılır. Onlara verilən yemdən tutmuş senajacan hamısı kompleksdə hazırlanır. Kompleks tam halda mexanikləşdirilib. Tövlələrdə əl əməyindən demək olar ki, istifadə edilmir.

- Bu yaxınlarda Avstriyadan xüsusi cins mal gətirmişik. Əvvəlcə işçilərdən bir neçəsini Almaniyaya yolladıq. Orada təcrübə keçdilər. Gətirilən heyvanlar artıq yerli iqlimə alışıb. Bu gün həmin malqaranın hər biri gündə 22-24 litr süd verir, - deyə M.Kazımov sözünə davam edir.

Təsərrüfatda süd istehsalı da yüksək səviyyədə qurulub. Kompleksdə yaradılan laboratoriyada hər inəyin südü ayrıca analiz edilir. Südün ümumi yağlılıq dərəcəsi 4,3 faizdən çoxdur. Hər səhər Bakıya buradan 1,8-2 ton süd göndərilir.

Kompleksin ayrıca torpaq sahəsi var. 80 hektar ərazidə arpa, 20 hektarda isə qarğıdalı əkilir. Onların suvarılması müasir qaydada aparılır ki, bu da su itkisinin qarşısını alır. Həmçinin 18 hektarda çoxillik yonca əkilib. Kompleksin ərazisində senaj quyusu var. 60 tonluq hovuz isə tövləleri mütəmadi su ilə təmin edir.

Məmmədtağı Kazımov onu da dedi ki, kompleksdə süni mayalanma da aparılır: "Baytarlarımız heyvanlara hər gün baş çəkir, onların sağlamlığını yoxlayır. Dərman təminatını da yüksək səviyyədə qurmuşuq. Preparatlara gəlincə, onların hamısı xarici ölkələrdən gətirilir".

Kompleksdə 70 nəfərdən artıq adam çalışır. Onların çoxu Avstriya və Almaniyada təcrübə keçib. Yaxın gələcəkdə kompleksin bir qədər də genişləndiriləcəyi nəzərdə tutulub.

*Akif ƏLİYEV, "Azərbaycan"*



## "La RAN" ixrac coğrafiyasını genişləndirir

**Əhalinin ərzaq məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsi, idxaldan asılılığın azaldılması dövlətimizin əsas prioritet məsələlərindən biridir.**



Ölkəmizdə uzun illərdir ki, ərzaq təhlükəsizliyinin təmin olunması və yerli istehsalın dəstəklənməsi üçün müxtəlif tədbirlər həyata keçirilir, müəyyən güzəştlər tətbiq edilir. Sahibkarlara güzəştli şərtlərlə kreditlərin verilməsi ilə qida məhsullarının istehsalı, emalı sektorunun inkişaf etdirilməsi uğurla davam etdirilir.

Dövlət dəstəyi tədbirlərinin həyata keçirilməsi nəticəsində 2021-ci illə müqayisədə ötən il Azərbaycanda qida məhsullarının istehsalında 7,7 faiz artım qeydə alınıb.

Ölkədə yaradılan əlverişli biznes mühiti qida sektorunda çalışan sahibkarların sayının da ildən-ilə artmasına şərait yaradır.

Lənkəranda qənnadı məhsullarının istehsalı ilə məşğul olan, "Made in Azerbaijan" brendi altında istehsal etdiyi məhsullarını xarici bazara çıxarmağa nail olan Nurlan Nurəliyev belə sahibkarlardan biridir. AZƏRTAC xəbər verir ki, Onun yaratdığı müəssisə 2020-ci ildən "La RAN" MMC adı ilə fəaliyyət göstərir. Hazırda burada 120 nəfərə yaxın işçi çalışır.

Şirkət məhsul istehsalı üçün lazım olan xammalın böyük bir qismini Azərbaycanın yerli tədarükçülərindən əldə edir. Amma bəzi xammallar - xüsusi yağlar, bir sıra qatqılar xaricdən, əsasən də Rusiya və Türkiyədən idxal edilir.

Sahibkarın sözlərinə görə, şirkət dörd kateqoriya üzrə məhsul istehsal edir. Bunlar lokum, marmelad, orta seqmentə aid konfetlər və premium sinfə aid brend şokoladlardır. İl ərzində 2500 tona yaxın məhsul istehsal edən şirkət bunun 300 tonunu xaricə göndərir, qalanı isə daxili bazarın tələbatının ödənilməsi üçün yerli bazara çıxarılır.

Şirkət rəhbəri bildirib ki, ölkə əhalisinin yerli məhsullara daha çox üstünlük verməsi yeni avadanlıqların alınmasını zəruri edir: "Bu yaxınlarda dövlət dəstəyi ilə Sahibkarlığın İnkişafı Fondu tərəfindən bizə 300 min manat kredit ayrıldı. Bu məbləği yeni avadanlıqların alınmasına sərf etmişik. Hazırda istehsal həcminin artırılması məqsədilə Sahibkarlığın İnkişafı Fonduna böyük məbləğdə əlavə kreditin ayrılması üçün müraciət etmişik. Bu kreditlə istehsal çeşidini genişləndirmək üçün yeni avadanlıqlar almağı nəzərdə tuturuq".

İş adamının sözlərinə görə, şirkətin məhsulları Rusiya, Özbəkistan, Qırğızıstan və Türkmənistana ixrac olunur. Yaxın aylarda isə "La RAN" məhsullarını Moldovaya ixrac etməyə başlayacaq. Bu ölkəyə orta seqmentə aid olan şokolad və konfetlərin ixracı nəzərdə tutulur. Gələcəkdə İsrailə və ərəb ölkələrinə də məhsul ixracı planlaşdırılır. Artıq bununla bağlı təkliflər alınıb və yoxlanış üçün məhsul nümunələri göndərilib.

## Bərdə-Ağdam dəmir yolu xəttinin tikintisi bu il başa çatacaq

**"Azərbaycan Dəmir Yolları QSC" işğaldan azad edilən ərazilərdə 2 böyük layihə icra edir.**

Bunlardan biri Bərdə-Ağdam, digəri isə Horadiz-Ağbənd dəmir yolu xətlərinin tikintisidir. AZƏRTAC xəbər verir ki, bu sözləri "Azərbaycan Dəmir Yolları" QSC-nin İdarə Heyətinin müşaviri Nazim Talıbov deyib. O bildirib ki, Bərdə-Ağdam dəmir yolu xəttinin uzunluğu 47,3 kilometrdir. Yolboyu 4 stansiyanın tikintisi nəzərdə tutulub və işlərin 90 faizi həyata keçirilib. Tikintinin cari ildə başa çatdırılması planlaşdırılıb.

## Ağdam pambıqçıları çiyid səpininə hazırlaşırlar

**Rayon üzrə indiyədək 1546,19 hektar sahədə qış şumu aparılıb. Fermerlər strateji sahə olan pambıqçılığı inkişaf etdirmək və bol məhsul götürmək üçün növbəli əkin sisteminə üstünlük verirlər.**

Artıq "MKT İstehsalat Kommersiya" MMC, "Azərpambıq" MMC və "P-Agro" MMC ilə 1651,57 hektar sahədə pambıq əkilməsi üçün 525 məhsul istehsalçısı ilə müqavilə bağlanılıb. AZƏRTAC xəbər verir ki, çiyid səpininə optimal temperatur yarandığı təqdirdə mart ayının sonu - aprel ayının əvvəllərində başlanılacaq.




● Xalq bayramı

**İlaxır çərşənbələrin üçüncüsü Yel çərşənbəsidir. Bu çərşənbə el arasında "Küləkli çərşənbə", "Külək oyadan çərşənbə", "Yelli çərşənbə", "Badi (külək) çərşənbə", "Nəfəs çərşənbə", Muğanın bir sıra kəndlərində isə "Heydər çərşənbə" adlandırılır. Erkən etiqadlara görə, çərşənbədə oyanan külək Yer üzünü gəzir, artıq oyanmış suyu, odu hərəkətə gətirir. İnama görə, Yel çərşənbəsində gün ərzində küləklər bir neçə dəfə dəyişir. Bu çərşənbədə isti-soyuq küləklərin əsməsi artıq yazın gəlişindən xəbər verir.**



# Külək oyadan çərşənbə

Mifoloji təsəvvürlərə görə, "qara nəhrdə" yatmış dörd cür külək əvvəlcə Yer üzünə çıxıb özü təmizlənir, sonra hər biri fərqli libasda özünü göstərir. Küləyin libasları ilə xarakteri arasında da oxşarlıq vardır. Burada rənglərin mifik mənaları xüsusilə önəmlidir, məsələn, Ağ yel ağ libasda, Qara yel qara libasda, Xəzri göy libasda, Gilavar qırmızı libasda xarakterizə edilir.

Erkən dövrlərdə insanlar küləyi öz istəklərinə uyğun yönəltməkdən ötrü mərasimlər keçirmiş və nəğmələr oxumuşlar. Küləyə belə münasibət yalnız bizim əcdadlarımıza deyil, demək olar ki, bütün dünya xalqlarına aiddir. Məsələn, yəhudi mifik düşüncəsində əsas Tanrı olan Yəhva və ya Elohim küləyə çevrilərək bir anda dünyanı dolaşır. Yunan mifologiyasına görə, Odissey öz yoldaşları ilə külək Allahı Eolun adasında bir ay qonaq qalır, ondan böyük hörmət görür, Odissey ona öz macəralarından danışır, nəhayət, ondan evə qayıtmaq üçün icazə istəyir. Eol razılaşır və Odisseyə bir böyük tuluq verir. O, qərb küləyi olan Zefiri azad buraxaraq digər 3 küləyi həmin tuluğun içində həbs edir. Zefir Odisseyin gəmisini evinə doğru istiqamətləndirməli idi. Lakin ölkəsinə çataçatda allahlar Odisseyi yuxuya verir, yoldaşları isə tuluğun içində ləl-cəvahirat olduğunu düşünərək onu açırlar. Bunun nəticəsində dənizdə tufan qopur və gəmini yenidən Eolun adasına doğru aparır. Odissey Eoldan bir daha kömək göstərməsini xahiş edir, lakin Eol allahların nifrət və təqib etdiyi bir şəxsə yardım göstərməyəcəyini bildirir. Yunan mifologiyasında dörd cür külək vardır ki, birincisi qərb küləyi Zefirdir. Onun atası Titan Astreydir ("ulduzlu Səma"), anası isə səhər şəfəqi ilahəsi Eosdur. İkincisi, şimal küləyi olan Boreydir. O, qanadlı, uzunsaçlı, saqqallı təsvir edilir. Məskəni zülmət və soyuğun hökm sürdüyü Trakiyadır. Çox vaxt erkək at şəklində təsəvvür olunur. Üçüncüsü, cənub küləyi Notdur. O da saqqallı və qanadlıdır. Zefir, Borey və Not qardaşdırlar, hamısı Eola tabedir. Dördüncüsü, cənub-şərq küləyi Evrdir, onun mənşəyi məlum deyil və antropomorfik özəllikləri yoxdur.

Yel-külək həm də Tanrı səviyyəsində təzahür olunmuşdur. Dini mənbələr və səma kitablarında yel dünyanı idarə edən Tanrı hesab olunur, yaxud da Allah tərəfindən göndərilən bir antropomorf kimi təsəvvür edilir. Məsələn, Məhəmməd Peyğəmbər əleyhissəlam buyurub ki, "külək Allahın qullarına bir nemətidir. Bəzən insanlara rəhmət, bəzən də əzab gətirir. Külək olduğu zaman ona söyməyin, onun xeyrini istəyin, şərindən də Allaha sığının, başqa sözlə, külək Allahın əmrindəndir".

Külək havanın üfüqi istiqamətdə hərəkətinə deyilir. Əgər külək olmasaydı, isti ərazilər həmişə isti, soyuq ərazilər isə hər zaman soyuq olardı, yəni hava hərəkət etməzdi. Elmdə daimi, mövsümi və hakim küləklər anlayışları mövcuddur. Şimal-cənub, şərq-qərb deyə cəhətlərin adı ilə adlandırılan küləklərin yerli adları var. Ağ yel - qara yel, xəzri, gilavar. Burada rənglərin öz semantikası vardır. Dilimizdə külək anlayışını ifadə edən sözlər də var, lakin kiçik məna çalarları ilə bir-birindən seçilir, məsələn, səmum - səhralarda əsən çox şiddətli isti və quru küləkdir, nəsim - yüngül mehdir, səba - şimal şərqdən əsən yüngül və xəfif mehdir, rüzgar, boğanaq və s. kəlmələr də külək anlayışlarını ifadə edir.

Klassik ədəbiyyatımızda "badi-səba" bir obraza çevrilib, konkret funksiya daşımışdır. Poeziya nümayəndələri öz şeirlərində gənclərin bir-birinə sözünü çatdırmaq vəzifəsini "badi-səba" (səhər küləyi) üzərinə qoymuşdular.

Yel çərşənbəsində "külək oyatmaq" mərasimi keçirilərdi. Bu mərasim zamanı cavanlar kağızdan böyük çərpələnglər hazırlayar, dam və hündür təpələrin başından uçurardılar. Bu çərpələnglər xüsusi funksiya daşıyırdı, belə ki, bəzən onun üzərinə Tanrıya şikayət məktubu və yaxud xahişnamələr "göndərənlər" də olurdu, hamı maraqla səmadakı çərpələnglərə tamaşa edərdi. Yel çərşənbəsində həm də külək əsmədikdə də onu çağırmaq məqsədilə çərpələngdən istifadə edilirdi. Meydançanın ortasında yerə basdırılmış dirəyə çərpələng asılar, dörd-beş nəfər yelpiklərlə çərpələngi yavaşca hərəkətə gətirmək üçün oxuyardılar:

Yel babam, yelli babam,  
Elim, obam batdı, gəl,  
Çərpələngim yatdı, gəl...

Yel çərşənbəsində icra olunan mərasimlərdən biri də "Küfdibi"dir. "Küfdibi" - özünü küləyə vermək, yellənmək deməkdir. Burada gənclər daha fəal iştirak edərdilər, meyvə ağacından yelləncək asıb onu gül-çiçəklə bəzəyərdilər. İştirakçılar bir-bir, iki-iki yelləncəkdə yellənər, deyişmə və bayatılar, nəğmələr söyləyərdilər:

Örpəyi çəhrayı qız,  
Adaxlının adın de,  
Saçları xurmayı qız,  
Adaxlının adın de,  
Gözləri sürməli qız,  
Adaxlının adın de...

Rəvayətə görə, Yel çərşənbəsində Yer üzünə təşrif gətirmiş müqəddəs Xızır qardaşı Nəbiyə bir qırmızı alma verib tapşırır ki, almanı yeyib uzun ömürlü olsun, onun tumlarını əsən küləklərə paylayıb Yer üzünə səpələsin. Alma ağacının dünyanın hər yerinə yayılması bununla izah edilir.

İnanca görə, cənnət meyvəsi sayılan alma dünyaya nə qədər çox yayılarsa, insanlar arasında xoş münasibətlər bir o qədər geniş vüsət alar. Milli folklorumuzda da nağıl və dastanlarda övlad həsrəti çəkən yaşlı cütlüklər müqəddəs şəxslərin, o cümlədən Xızırın və ya dərvişin verdiyi qırmızı almanı yeməklə arzularına çatırlar. Hətta inanca görə, xalq arasında çərşənbə axşamları cavanlar qırmızı alma yeyib on ədəd toxumunu yastıqlarının altına qoyurlar ki, gələcək qismətlərini yuxuda görə bilsinlər.

Yel və Yel çərşənbəsi ilə bağlı xalq arasında erkən dövrlərdən küləyin əhəmiyyətini əks etdirən bəzi folklor nümunələrinə diqqət yetirək:

Yelli babam, Yel babam  
Telli babam, Tel babam  
Elim, günüm batdı, gəl,  
Çərpələngim yatdı, gəl,  
Təknədə qaldı aşım,  
Yatdı dəyirman daşım...

A Yel baba, Yel baba  
Qurban sənə, gəl, baba  
Taxılımız yerdə qaldı,  
Yaxamız əldə qaldı,  
A Yel baba, Yel baba  
Qurban sənə, gəl, baba

Xalqın mifik təfəkkürünün önəmli səhifələrini aydın şəkildə təsdiqləyən çoxlu sayda folklor mətnləri vardır ki, onlar həm bugünkü, həm də gələcək nəsillərin folklor qaynaqlarından bəhrələnməsi üçün zərurət yaradır.

***ÜLKƏR NƏBİYEVA,***  
***Bakı Dövlət Universitetinin professoru, filologiya elmləri doktoru***

● Təbiət bahara bürünür

# Baharın ilk müjdəçiləri

**Dünyada nə qədər xalq varsa, hər birinin özünəməxsus adət-ənənəsi, hər il xüsusi təmtəraqla qeyd etdiyi milli bayramları mövcuddur. Bu bayramlar oxşar və fərqli xüsusiyyətləri, bəziləri hətta qəribəlikləri ilə diqqəti cəlb edir. Ancaq əksəriyyətinin bəxş etdiyi bir duyğu var, bayramlar insanlara ruh yüksəkliyi, təbəssüm, sevinc gətirir. Qohumlar, qonşular bir-birlərini yada salır, hal-əhval tutur, bayramlaşırlar.**

Ancaq Novruz bayramı bütün bayramlardan fərqlidir. Əvvəla, ona görə ki, bu bayramın müddəti bir və ya bir neçə gün deyil.

### *Təbiətin oyanışı*

Bayram ovqatı bir ay boyunca duyulur. Çünki Novruz qışın axırıncı ayı, son mərhələsi sayılan Boz aydan başlayır. Fevralın 21-də Kiçik çillənin dövranını başa vurub yerini təhvil verdiyi Boz ay boyunca dəyişkən havalar hökm sürür. Xalq arasında "Alaçalpov" da deyilən bu ayın çərşənbələrinin hər birinin öz adı, özünəməxsus adət-ənənələri, mərasimləri var. Novruzdan əvvəlki dörd çərşənbə yaradılışın dörd mərhələsi ilə əlaqələndirilir. İlkinə Su çərşənbəsi deyirlər. Bu çərşənbədə keçirilən mərasimlər daha çox su ilə bağlıdır. İnanca görə, Su çərşənbəsi günü "təzə su"dan keçənlər, azarını, bezarını ona verənlər ilboyu xəstəlikdən uzaq olarlar. Odur ki, gün doğmamış su üstünə gedib əl-üzünü yuyar, bir-birinə su çiləyər, su üstündən atlanarlar.

Beləcə, yaradılışın dörd ünsüründən biri - su oyanır. Axa-axa öz dilində torpağa, daşa, havaya, Günəşə bahardan danışır.

Boz ayda qeyd edilən ikinci çərşənbəyə xalq arasında xəbərçi çərşənbə, üskü çərşənbə, addı çərşənbə də deyilən Od çərşənbəsidir. Bu çərşənbədə qədim insanlar Günəşə, oda olan inamlarını tonqal qalamaqla ifadə ediblər. Alovun üzərindən tullanaraq bütün azar-bezarlarının odda yanmasını diləyiblər.

Əsən küləklərin nəfəsinə üçüncü çərşənbədən - Yel çərşənbəsindən sonra hərarət gəlir. Sonrakı çərşənbədə isə oyanmaq növbəsi torpağa çatır. İlaxır çərşənbə də adlandırılan Torpaq çərşənbəsi özündən əvvəlki çərşənbə bayramlarından daha təmtəraqlı keçirilir. Evlərdə şam yandırılır, xonçalar düzülür. Əkinbiçin yerlərində torpaq daşlardan təmizlənir, bağ-bağata əl gəzdirilir, həyət-baca səliqə-sahmana salınır.





### *Torpağın qara bürünmüş sinəsindən boylanan gül*

Adətən çiçəklər açmaq üçün soyuq havaların sovuşmasını, təbiətə hərarət gəlməsini gözləyirlər. Ancaq novruzgülü torpağın qara bürünmüş sinəsindən də boy verir. Elə Novruz bayramı ərəfəsində açıldığına görə novruzgülü adlandırılıb. Bu gül planetin müxtəlif yerlərində bitir. Təxminən 20 növü var. Bütün növləri "Qırmızı kitab"a düşüb. Azərbaycan dağlarında ən çox üç rəngdə - göy, bənövşəyi və ağ rənglərdə novruzgülülər bitir.

Dünyanın bir çox ölkəsində aprelin 19-u Novruzgülü günü kimi qeyd olunur. O da məlumdur ki, aprel ayının adı latınca "aperire" sözündən götürülüb. Tərcüməsi "açmaq"dır. Belə deyilir ki, ilk çiçəklər apreldə açdığı üçün bu ayı belə adlandırıblar.

Orta əsrlərdə novruzgülü paklığın rəmzi sayılıb. Bu çiçəyi çox sevən ingilislərin belə bir rəvayətləri var ki, novruzgülü ətrafında olan evi yalnız pis ruhlardan yox, eyni zamanda bütün fəlakət və bədbəxtlikdən qoruyur.

Azərbaycan folklorunda isə belə bir əfsanə var ki, novruzgülü ilə qızılgül əbədi sevgilidirlər. Novruzgülü yazın əvvəlində, qızılgül isə iki ay sonra açıldığı üçün bir-birini görə bilmirlər. Azərbaycan folklorunda belə inanc var ki, bu iki gülü bir-birinə çatdıran behiştlik olacaq.

Havalar isindikcə, Günəş Yer üzünə bol-bol hərarət bəxş etdikcə quşlar havada şövqlə uçur, nəğmələr oxuyurlar. Ancaq Novruz bayramından qabaq gələn, baharın gəlişinin müjdəsini verən quşlar da var. Deyirlər ki, hacıleyləklərin gəlişi bahar fəslinin ilk əlamətlərindəndir. Erkən geri dönən bu quşlar adətən öz köhnə yuvalarına dönürlər. Novruzu öz yuvalarında keçirirlər. Hacıleyləklər, əsasən Kiçik çillənin sonu, Boz ayın əvvəllərində təşrif gətirirlər. Onlar qayıdandan sonra havalar bir neçə günlüyə soyuyur, küləklər əsir. Xalq arasında buna "Leylək boranı" deyirlər və onu da söyləyirlər ki, gərək hacıleylək yumurtasının üstünə qar yağa.

Qədim zamanlarda deyirdilər: "Hacıleyləklər yazın muştuluqçusudur". Bu quşların gəlişinə şadlanırdılar. İlk dəfə hacıleyləyi görən uşaqlar evə qaçır, böyüklərdən muştuluq istəyirdilər. Yaşlılar onlardan xəbər alırdılar: "Hacıleyləyin dimdiyində nə vardı?". Cavab sünbül olanda çox sevinirdilər. Ona görə ki, bu, bərəkər rəmzi sayılırdı.

Baharın ilk müjdəçilərindən biri də qaranquşlardır. Evlərin eyvanında, taxtapuşunda yuva quran bu quşların civiltisi eşidildikcə, sevinclə havada dövr etdikcə könüllərə bir rahatlıq gəlir. Qaranquşlar sanki quş dilində insanlara "Bahara az qalıb" deyirlər. Şanapipik, alacəhrə də qaranquşların səsinə səs verir. Köçəri quşlar bir-bir geri dönürlər. Ağaclar yaşıl donunu geyinir, çiçəklər açır. Təbiət bahara bürünür...

***Zöhrə FƏRƏCOVA,***  
***"Azərbaycan"***

● İlin əziz günləri

# Aşıq yaradıcılığında NOVRUZ



**Qədim zamanlardan başlayaraq bu gün də fəal şəkildə davam etməkdə olan zəngin ozan-aşıq sənətində yazın, baharın, Novruzun tərənnümü mühüm rol oynayır. Aşıqlar ya bütövlükdə şeirini yaza, bahara həsr edir, ya da ayrı-ayrı şeirlərinin bəndlərində, misralarında ilin təbiəti canlandıran, yeniləşdirən fəslini xatırladır. Sırf baharın - Novruzun təsvir-tərənnümünə həsr olunan şeirlər "Novruznamə" adlanır. El şairlərimizin və aşıqlarımızın əsərlərində bu mövzu daha çox öz əksini tapıb.**

XVI əsrin qüdrətli sənətkarı Qurbaninin, ustadnamələr və təcnislər müəllifi Xəstə Qasımın, şeirlərində "Qul", "Şikəstə", "Bikəs" təxəllüsü ilə daha çox tanınan Abbas Tufarqanlının, Qaracaoğlanın, el şairi Yəhya bəy Dilqəmin əsərlərində yaz, bahar mövzusu xüsusi yer tutur. Dilqəmin əsərlərində dövrdən, zəmanədən, vəfasızlıqdan şikayət motivi üstünlük təşkil edir. "Dilqəmi" saz havası onun adına bağlıdır. Şairin nikbin ruhlu şeirləri də çoxdur. Bunu baharın tərənnümünə həsr olunmuş "Dağlar" rədifli qoşmasından da görmək olar:

Zinəti nərgizlərdən, tər bənövşədən,  
Al yaşıl geyinib şad olan dağlar.  
Ruhu təzələyir gülab suları,  
Dəhanlarda şirin dad olan dağlar.

Qərənfil, şəqayiq, lalə təzə-tər.  
Baharın gülləri onu al bəzər.  
Qara gəlsin süsən, sünbül sərbəsər,  
Bülbülü güllərdən yad olan dağlar.

Bundan başqa, Aşıq Alının gəraylı və qoşmalarında, şəmkirli Aşıq Hüseynin, Aşıq Musanın Novruza, baharın gəlişinə həsr olunmuş xeyli seçmə əsərləri vardır. Azərbaycan aşıq-şeir sənətinin zirvəsini fəth etmiş ustad sənətkar Aşıq Ələsgərin əsərləri arasında bu mövzu ilə bağlı örnəklər qədərincədir:

Könlüm qaranquş tək uçub qoynuna,  
Gəzir hər yamacı, hər yanı, yaylaq!  
Ruhum təzələnir, məst olur ürək,  
Görəndə bu çağı, bu halı, yaylaq!

Kəkötü, qırxbuğum, qaymaqçiçəyi,  
Bənövşə, qantəpər, qızlar örpəyi,  
Qoyun mələşməsi, çoban tütəyi,  
Çəkir uzaqlara xəyalı, yaylaq!

Aşıq Musanın "Kəklik" rədifli şeiri də el arasında xüsusilə sevilir:

Baharın gülşən çağında,  
Nə oxursan, sona kəklik.  
Oxudun, gəldin xoşuma,  
Yaşayasan sən, a kəklik.

Kəklik məskən salıb daşa,  
Sürmə çəkib gözə, qaşa,  
Bu dövranın getməz başa,  
Ovçu gəldi, sin, a kəklik.

Təbiətin nadir ətirli çiçəyi bənövşə çox şairin ilham mənbəyi olmuşdur. Aşıq Şəmşir də bu boynu bükük çiçəyi öz şeirinin mövzusuna çevirmişdir:

Bahar çatıb bəzəyirmi dağları,  
Açılırmı sizin yerdə bənövşə?  
Qımışırmı dodaqları nərgizin,  
Təzə-tərmi güneylərdə bənövşə?

Aşıq Qurbanidən qalıb nişana,  
Torpaqdı bizə də, ona da ana,  
Boynunu pərişan əyməsin yana,  
Salmasın qəlbini dərdə bənövşə.

Aşıq Şakir 1922-ci ildə Ağsu rayonunun Xəlilli kəndində anadan olmuşdur. Hələ məktəb illərində el sənətinə maraq göstərmişdir. Orta məktəbi bitirdikdən sonra iki il Göyçayda Aşıq Mürsələ şəyirdlik etmiş, özü ustad aşıq kimi formalaşmışdır. El şənliklərində məlahətli səsi ilə sevilən Aşıq Şakir həyatın nəbzini duyan, ona söz qoşan sənətkar olmuşdur. Onun şeirləri arasında bahar təravətli nümunələr daha çoxdur:

Bahar gülür, günəş gülür, el gülür,  
Nazlı dilbər, dövran gülür, sən də gül.  
Çəmən gülür, çiçək gülür, çöl gülür,  
Lalə, nərgiz, reyhan gülür, sən də gül.

Ötür azadlığın xoş təranəsi;  
Hər budaq üstündə bir quşun səsi  
Baxdıqca insanın gəlir həvəsi  
Cüyür, maral, ceyran gülür, sən də gül.

Gülşəndə şövq ilə ötür bülbüllər.  
Çəməndə gül dərir türfə gözəllər,  
Toy-bayram keçirir obalar, ellər.  
Qoca gülür, cavan gülür, sən də gül.

Aşıq poeziyası və aşıq sənəti Azərbaycan xalqının bədii təfəkkürünün parlaq və zəngin sahəsidir. Ədəbiyyat və incəsənət xəzinəmizin qiymətli incilərindən olan bu sənət mahiyyəti etibarilə həmişə xalq həyatı, onun mübarizəsi və mənəviyyatı ilə bağlı olmuşdur.

***İradə ƏLİYEVA,***  
***"Azərbaycan"***

● Xəbər

# Azərbaycanda yaz fəsli martın 21-i saat 01:24-dən başlayır

**Yaz fəslinin Azərbaycana daxil olması martın 21-i Bakı vaxtı ilə saat 01:24-ə təsadüf edəcək.**

Bu barədə Bakı Dövlət Universitetinin Fizika fakültəsinin Astrofizika kafedrasından məlumat verilib. Bildirilib ki, həmin vaxt gecə ilə gündüz bərabərləşəcək, Günəş ekliptika üzrə hərəkət edərək ekvatoru kəsməklə cənub yarımkürəsindən şimal yarımkürəsinə keçəcək. Həmin andan şimal yarımkürəsində yaz fəsli başlayacaq. Yaz fəslinin uzunluğu 92 gün 17 saat 33 dəqiqə 23 saniyə olacaq.



Qeyd edək ki, XXI əsrdə yaz bərabərliyi günü 19 mart tarixinə 20 dəfə, 20 mart tarixinə 78 dəfə, 21 mart tarixinə isə cəmi 2 dəfə düşəcək.

# Heydər Əliyev Mərkəzində "Yerlə göy arasında" adlı sərgi açılacaq

**Martın 9-da Heydər Əliyev Mərkəzində "Yerlə göy arasında" adlı Azərbaycan-Latviya birgə incəsənət sərgisinin açılışı olacaq.**




AZƏRTAC xəbər verir ki, Latviyanın ölkəmizdəki səfirliyi ilə birgə təşkil olunan sərgi dahi şair Mövlana Cəlaləddin Ruminin poeziyasını əhatə edir. XIII əsrdə yaşayıb yaratmış Ruminin ideyaları mənəvi yüksəliş və kamilliyə çatmağa həsr olunub. Latviyadan İeva Krumina və dünyaşöhrətli fotoqraf Rza Deqqətinin əsərlərinin nümayiş olunacağı sərgi aprelin 3-dək davam edəcək.

Tanınmış rəssam İeva Krumina Latviya Rəssamlıq Akademiyasının Tekstil şöbəsinin müdiridir. O, Latviya Rəssamlar İttifaqının və Latviya Tekstil Rəssamları Assosiasiyasının üzvüdür. İeva Krumina məşhur latviyalı şair və yazıçı İmants Ziedonisin "Sevgisiz yaşama, sevgisiz heç nəyin önəmi yoxdur" sözlərinə əsaslanır, xalqlar arasında oxşar, ümumi çalarları öyrənməyə çalışır. Onun hər bir sənət əsərinə baxanda özümüzü o sənət əsərində görürük. Onun sənət əsərləri insanlara dünyamızı sevgi sapları ilə təmir etmək ismarışını çatdırır.

REZA kimi tanınan dünyaşöhrətli fotojurnalist Rza Deqqəti müharibələri, hərbi münaqişələri, eləcə də bəşəriyyətin gözəlliklərini işıqlandırır. Onun işləri "National Geographic", "Time", "Stern", "Newsweek", "Paris Match" jurnallarında yer alıb. O, 30 kitabın müəllifi və bir çox mükafatın sahibidir. Rzanın Ruminin ideyalarını, mistik rəqslə dövrə vuran, yerlə göy arasındakı enerji dövranı mövzusunu çatdıran əsəri 1994-cü ildə "National Geographic" jurnalının üz qabığında yer alıb. O, Fransanın "Xidmətlərə görə" kavaler ordeninə və Azərbaycanın "Dostluq" ordeninə layiq görülüb.

# Afrikada Makrona ciddi etiraz

## KDR Prezidenti 29 il öncə ölkəsində baş verən soyqırımı aktını Fransanın həyata keçirdiyini bəyan etdi

**2017-ci ildə Fransa Prezidenti Emmanuel Makron Afrika ölkələrinin birində çıxış edərək Parisin postmüstəmləkəçilik siyasətinə son qoyacağına söz vermiş və Avropanın bununla bağlı törətdiyi cinayətlər barədə danışmışdı. O, daha sonra afrikalı gənclərlə ortaq dil tapmaq üçün cəhdlər etdi: 2021-ci ildə Monpelyedə Fransa-Afrika sammitinə 12 ölkədən gənclərin nümayəndələri dəvət olundu, arxivlərin açılması, muzeylərin əntiq əşyalarının və mədəniyyət nümunələrinin Afrika ölkələrinə qaytarılması prosesi baş verdi.**




Ancaq bu, kömək etmədi. Prezident Makronla Afrikanın bir sıra ölkələrinin hakim dairələri arasında münasibətlər xüsusən də 2020-2022-ci illərdə bu qitədə baş verən hərbi çevrilişlərdən sonra davamlı şəkildə pisləşir. Nəticədə ötən il Fransa qoşunları Mərkəzi Afrika Respublikası və Malidən çıxarılıb və artıq bu ilin fevralında 2009-cu ildən orada yerləşən hərbi qulluqçular Burkina Fasonu tərk ediblər. Bunun ardınca ölkənin yeni hakimiyyət orqanları Fransa ilə 1961-ci ilin aprelində imzalanmış hərbi əməkdaşlıq haqqında sazişi pozublar.

Bu günlərdə Makron qitənin problemlərinə Parisin yeni yanaşmasını nümayiş etdirmək məqsədilə növbəti Afrika turunu başa vurub. O, bundan sonra Fransanın Afrika ölkələrinin daxili işlərinə qarışmayacağına və onlarla balanslaşdırılmış tərəfdaşlıq quracağına söz verib. Səfər zamanı Fransa Prezidenti işgüzar və humanitar əməkdaşlığa diqqət yetirib. Lakin onun bu səfəri də müsbət nəticə verməyib.

O, beş gün ərzində Afrikanın dörd paytaxtına - Librevil (Qabon), Luanda (Anqola), Brazzavil (Konqo Respublikası) və Kinşasaya (Konqo Demokratik Respublikası - KDR) səfər edib.

Keçmiş müstəmləkələrində Fransa ABŞ, Çin, Türkiyə və Rusiyanın artan təsiri ilə, həmçinin Afrika gəncləri, xüsusən Sahel və Mərkəzi Afrikada artan anti-Fransa əhval-ruhiyyəsi ilə üzləşib. Paris iqtisadi sahədə də təzyiq altındadır. Belə ki, 2000-ci illərdən Fransa biznesinin qitədəki mövqeyi durmadan zəifləyir.

Makronun sonuncu ölkəyə - KDR-ə gəlişi ərəfəsində yerli anti-fransız fəallar Fransa səfirliyi qarşısında iğtişaşlar törədiblər. Emmanuel Makron və bu ölkənin Prezidenti Feliks Çisekedi arasında danışıqların mərkəzi mövzularından biri də ölkənin şərqində "23 Mart Hərəkatı"nın hücumu olub. Ruanda əsaslı olaraq konqolu tutsilərin bu üsyançı təşkilatını dəstəkləməkdə ittiham olunur.

BMT-nin müstəqil ekspertləri, ABŞ və Fransa da daxil olmaqla, digər Qərb ölkələri Kinşasanın qiymətləndirməsi ilə razılaşırlar, lakin Prezident Makron Parisin yaxın vaxtlarda münasibətləri normallaşdıra bildiyi Ruandanı birbaşa tənqid etməkdən çəkinib. Buna görə də o, yalnız Ruanda da daxil olmaqla bütün tərəfləri vəziyyətə görə "məsuliyyəti öz üzərinə götürməyə" çağırıb.

Bundan əlavə, Paris KDR-ə humanitar yardım üçün 34 milyon avro ayrıldığını açıqlayıb. Bu, Avropa İttifaqının ölkənin münaqişədən zərər çəkmiş şərq bölgələrinə yardımın çatdırılması üçün humanitar hava körpüsünün açılmasını elan etməsi ilə üst-üstə düşüb.

Konqo Demokratik Respublikasına "humanitar hava körpüsü" Fransanın dəstəyi ilə Avropa İttifaqı tərəfindən təşkil edilir. Əməliyyat UNICEF və digər humanitar tərəfdaşlarla əməkdaşlıq çərçivəsində Avropa Komandası təşəbbüsünün bir hissəsi olaraq həyata keçirilir.

Tibbi ləvazimatlar, ərzaq və zəruri əşyalar humanitar yardım olaraq Konqo Demokratik Respublikası və Ruanda sərhədindəki Qoma şəhərinə göndəriləcək.

Lakin bu sülh təşəbbüsünə, Emmanuel Makronun səfərinə qarşı Kinşasada etiraz edilir. Etirazçılar Rusiya bayraqlarını dalğalandırıblar.

Son məlumara görə, KDR prezidenti Feliks Çisekedi fransalı həmkarına onun ölkəsinin 1994-cü il soyqırımında iştirakını xatırladanda aralarında mübahisə yaranıb. Belə ki, Prezident Çisekedi Fransanın KDR-də təhlükəsizliyin bərpasına necə kömək edəcəyini soruşub. Diplomatik cavab əvəzinə Makron jurnalistlərin gözü qarşısında həmkarı ilə mübahisə etməyə başlayıb və Fransaya aid ola biləcək məsuliyyəti rədd etdiyini söyləyib: "Mən həqiqətin tərəfdarıyam, amma tam həqiqətin - bütün bu yükü öz üzərimə götürməkdən imtina edirəm. Fransa sizi "yaxşı" etməyə borclu deyil, bu, sizin vəzifənizdir".

Burada məşhur atalar sözü yada düşür: "Oğru elə bağırdı ki..."

***Rizvan CƏFƏROV, "Azərbaycan"***

## BİLDİRİŞ

Mərkəzi Bankın əməkdaşları üçün südün satın alınması ilə bağlı keçirilmiş kotirovka sorğusu üzrə Satınalmalar komissiyasının 01 mart 2023-cü il tarixli qərarına əsasən "SOBRAN" MMC qalib elan edilmişdir.

Qalib şirkətlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Satınalmalar komissiyası***


**Qəzetin daim yenilənən rəsmi internet ünvanı:**
**www.azerbaijan-news.az**




AZƏRBAYCAN
Güc simvolu
Heydər Əliyev İli - 2023
Ulu Öndər bizə Azərbaycanı məhz onun kimi sevməyi öyrətdi
İlham Əliyev dünyada ən yüksək döyüş qabiliyyətinə malik ordulardan birini yaradıb
YAP-da islahatlar yeni keyfiyyət mərhələsinə qədəm qoyub
Qoşulmama Hərəkatının fəaliyyətində ən uğurlu dövr
Xarici jurnalistlər Gəncədə erməni terroru zamanı həlak olan dinc sakinlərin xatirəsini anıblar
Xarici media nümayəndələri Füzulidə erməni barbarlığının şahidi olublar
Azərbaycanlı həkim: "Kahramanmaraşda yerli sakinlər bizi çox böyük coşqu ilə qarşılayırdılar..."
Qərbi Azərbaycandan olan soydaşlarımızın tarixi torpaqlarına qayıtmaları təmin edilməlidir
Su axdıqca təkcə durulmur

# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN" *qəzetinə abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*


## BİLDİRİŞ

"İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxsi tərəfindən "Xroniki böyrək çatışmazlığı üzrə Tədbirlər Proqramının icrası məqsədilə dərman vasitələri"nin satın alınması məqsədilə açıq tender metodu tətbiq edilməklə keçirilmiş satınalma prosedurunun qalibi "Zeytun Pharmaceuticals" Məhdud Məsuliyyətli Cəmiyyəti müəyyən edilmişdir.

"İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxsi ilə "Zeytun Pharmaceuticals" Məhdud Məsuliyyətli Cəmiyyəti arasında 28.02.2023-cü il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

*Təkrar*

## "Azərişıq" ASC Şamaxı rayonu Meysəri kəndinin elektrik təchizatının yaxşılaşdırılması və yeni yaradılan infrastrukturun elektrik enerjisi ilə təmin olunması məqsədilə görüləcək işlərin satın alınması məqsədilə *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:
**LOT-1:** "Azərişıq" ASC-nin Şamaxı rayonu, Meysəri kəndinin elektrik təchizatının yaxşılaşdırılması və yeni yaradılan infrastrukturun elektrik enerjisi ilə təmin olunması məqsədilə görüləcək işlərinin satın alınması.

**İştirak haqqı: 850 manat**
**"Azərişıq" ASC**
**Hesab: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əlaqələndirici şəxs: Namik Heybətov
Əlaqə telefonu (şəhər): 012 440 39 93 (daxili 92-19)
Elektron poçt: namiq.heybetov@azerishiq.az
Ünvan: Bakı şəhəri, M.Əliyev küçəsi, 130, AZ1009

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Mirzağa Əliyev küçəsi, 130 ünvanında yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
*-iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə (sənədlərin təsdiqi tender elanı tarixindən sonra Notarial qaydada təsdiq olunması zəruridir.);*
*-iddiaçının VÖEN-i, bank rekvizitləri, ünvanı, dövlət reyestrindən çıxarış (sənədlərin təsdiqi tender elanı tarixindən sonra Notarial qaydada təsdiq olunması zəruridir.);*
*-iddiaçının Dövlət Statistika Komitəsindən sahibkarlıq kateqoriyası haqqında arayışı;*
*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*-iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*-iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyət dövründəki);*
*-müvafiq lisenziya və icazələr.*
*-tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*-tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (Təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
*-iddiaçının fəaliyyətə başladığı dövrdən iş təcrübəsi, yerinə yetirdiyi cari işlər və müqavilələr barədə məlumatlar;*
*-iddiaçının analoji işlərdə obyektlərin tikintisi üzrə baş podratçı qismində həyata keçirdiyi və tətbiq etdiyi uğurlu ən azı 3 layihənin bitməsinə dair tövsiyə məktubunun və apardığı layihənin ilk və sonuncu sənədlərinin surəti;*
*-podrat müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, maddi-texniki bazasının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlılığının olmasını təsdiq edən sənəd;*
*-iddiaçının yüklülük haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş arayışı;*
*-satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə tərtib olunan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (www.tender.gov.az).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **13.03.2023-cü il saat 15:00-a** qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə **29.03.2023-cü il saat 15:00-a** qədər Bakı şəhəri, Mirzağa Əliyev küçəsi, 130 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **30.03.2023-cü il saat 15:00-da** Mirzağa Əliyev küçəsi, 130 ünvanında "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti 539-49-20**

## ALLAH RƏHMƏT ELƏSİN!

Ziyad Səmədzadə, Fikrət Əzizov, Şakir Səlimov, Elxan Bəşirov və Pənah Süleymanov Süleyman Məmmədova qayınatası

**HAMLET HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Xəyal və Xəyyam Nəsibovlar Əməkdar incəsənət xadimi, Azərbaycan Yazıçılar Birliyinin Qazax Bölməsinin sədri Barat Vüsala (Barat Alı oğlu Əliyevə)

**QARDAŞININ**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Əmək və ekologiya hüququ kafedrasının əməkdaşları: Alış Qasımov, Mayis Əliyev, Zahid Cəfərov, Lalə Ələsgərova, Mahir Əliyev, Ülkər Əkbərli, Anar Əsədov, Fəridə Əliyeva, Fəridə Aslanova, Nərmin Təhməzli, Vasif Hüseynli kafedranın professoru Hüseynov Əbülfəz İbrahim oğluna qardaşı

**BABAŞOV RƏŞƏDDİN İBRAHİM OĞLUNUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Şirvan Apellyasiya Məhkəməsinin kollektivi Ağcabədi Rayon Məhkəməsinin sədri Sulduz Ləzimova anası

**MƏLEYKƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman | |
| Baş redaktor müavinləri | - 538-86-86, | və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| | 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 5172
Sifariş 627

Qiyməti 40 qəpik